# Həzrəti Süleyman




Harun Yahya



## MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı il-də Ankarada anadan olmuşdur. Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil almışdır. 1980-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Müəllifin üzərində çalışdığı əsas mövzular elm adı altında təqdim edilən 2 müasir mif olan darvinizm və materializmin puç edilməsidir. Müəllifin bəzi əsərləri 40-dan artıq dilə tərcümə edilmiş və həmin ölkələrdə nəşr edilmişdir. Harun Yəhyanın əsərləri yaş, irq, milliyyət ayrıseçkiliyi salmadan bütün insanlara səslənir. Müsəlmanlara olduğu qədər, müsəlman olmayanlara da xitab edir. Bu kitabların əsas məqsədi oxucunu Allahın varlığı və təkliyi kimi mövzular haqqında fikirləşməyə həvəsləndirərək oxucunun görüşünü açmaq, inamsız sistemlərin batil görüşlərini və çürük quruluşlarını ortaya çıxarmaqdır.

بسم الله الرحمن الرحيم

الله
رسول
محمد

# OXUCUYA

Zalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adıçəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.

Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.

Nəzərə çatdırılması lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.

Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.

Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Zünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.

Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.

Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.

# Həzrəti Süleyman

*"Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə! O daim Allaha sığınan bir kimsə idi" ("Sad" surəsi, 30).*

## Harun Yahya

# MÜƏLLİF VƏ ONUN ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Zox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, bolqar, yapon, xin, Azərbaycan kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə

tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi daha əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

# Həzrəti Süleyman

Harun Yahya

*Giriş 10*

*Həzrəti Süleyman 14*

*Hz.Süleymana verilən üstün elm və nemətlər 17*

*Hz.Süleymanın möhtəşəm hakimiyyəti və güclü ordusu 59*

*Hz.Süleymanın yüksək əxlaqı 66*

*Harut və Marut 88*

*Hz.Süleymanvə Səba məlikəsi 94*
*Hz.Süleymanın vəfatı 126*

*Hz.Süleymanın əmrindəki cinlər və heyvanlar 128*

*Hz.Süleymanla Hz.Zülqərneyn arasındakı oxşarlıqlar 134*

*Quranda tərif edilən iki müxtəlif idarəçilik 146*

*Səba xalqının məruz qaldığı aqibət 152*

*Əhdi-Ətiqdə Hz.Süleyman 162*

*Hz.Süleyman, Hz.Zülqərneyn və Mehdi oxşarlıqları 192*

*Nəticə 256*

*Quranda cinlər 258*

*Quranda şeytan 272*

# Giriş

İnsanlara bir rəhmət və hidayət rəhbəri olaraq nazil edilən Quranda Peyğəmbərimiz Hz.Məhəmmədin (s.ə.v.) yaşadıqlarından, inkarçılara qarşı apardığı təbliğatdan və Allahın dinini yaymaq üçün apardığı böyük mübarizədən çox qiymətli hikmətlər verilib. Eyni şəkildə Peyğəmbərimizdən (s.ə.v.) əvvəl yaşamış Hz.Musa, Hz.Yusif, Hz.İsa, Hz.Yunus, Hz.Lut, Hz.Nuh, Hz.Şueyb və Hz.Saleh kimi bir çox elçinin həyatı haqqında da mühüm məlumatlar verilir. Peyğəmbərimiz (s.ə.v.) kimi onlar da axirət gününü xatırladaraq insanları Allaha iman gətirməyə dəvət etmiş, gözəl əxlaqın cəmiyyət tərəfindən mənimsənilməsi məqsədilə haqq dinin təbliğatını aparmaq vəzifəsini öz üzərlərinə götürmüşdülər.

Ayələrdə elçilərin gözəl əxlaqı, səmimi duaları, çətinliklər qarşısındakı hərəkətləri və ürəkdən gələn səyləri bütün insanlara bir nəsihət və xatırlatma kimi tərif edilir. Və Allah insanlara bu müqəddəs elçilərin göstərdiyi yolla getməyi, onlara itaət etməyi tövsiyə edir. Bu hidayət rəhbərlərinin yolu ilə gedən, ehtiyatı əldən verməyən və davranışlarını düzəldənlərin dünya və axirətdə olduqları müddət ərzində bir qorxu və kədər yaşamayacağını müj-

dələyir ("Əraf" surəsi, 35). Elçilərin göndərilmə səbəbləri "Nisa" surəsində bu şəkildə göstərilir:

**"Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik..."** ("Nisa" surəsi, 64).

Budur, adı Quranda bu dəyərli və müqəddəs insanlar arasında çəkilən peyğəmbərlərdən biri də Hz.Süleymandır. Hz.Süleyman Hz.Nuhun kökündən gələn, Allah dərgahından hidayət və yüksək elm bəxş edilən bir peyğəmbərdir. Quranda Hz.Süleyman haqqında belə bildirilir:

**"...Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq"** ("Ənam" surəsi, 84).

Allah Hz.Süleymanı İsrailoğullarına bir xəbərdaredici və qorxuducu kimi göndərmişdi. Və o, Allah dərgahından vəhy alan peyğəmbərlərdən biridir:

**"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik"** ("Nisa" surəsi, 163).

Kitabın qarşıdakı fəsillərində müfəssəl şəkildə görəcəyimiz kimi, Allah Hz.Süleymana böyük bir səltənət, tayı-bərabəri olmayan bir var-dövlət, cinlərin və quşların dəstəklədiyi çox güclü ordular və üstün elmi biliklər bəxş etmişdi. Hz.Süleyman yaşadığı torpaqlarda həyatı boyu ədalətlə hökm etmiş, yüksək hökmranlıq və rəhbərliyi sayəsində müxtəlif birlikləri öz ətrafında toplamışdı. Ancaq kainatdakı




"Biz Davuda Süleymanı bəxş etdik.
Nə gözəl bəndə! O daim
Allaha sığınan bir kimsə idi"
("Sad" surəsi, 30).

bütün elmlərin, mülkün və hökmün gerçək sahibinin aləmlərin Rəbbi olan Allah olduğunu hər zaman bilərək hər işində Allahı düşünüb Ona yönəlmişdi ("Sad" surəsi, 30). Ona qarşı olan itaətkar və təslimiyyətli davranışını ömrü boyu qoruyub saxlamışdı.

Bu kitabı yazmaqda məqsədimiz Allahın bir çox xüsusiyyətləri ilə insanlardan üstün tutduğu Hz.Süleymanı Quranda tərif edilən özünəməxsusluğu ilə insanlara tanıtmaq, Rəbbimizin bu seçilən qulunun nümunəvi əxlaqı üzərində dərindən düşünməkdir. Hz.Süleymandan bəhs edən ayələr öyüd almaq məqsədilə incələnəndə onların hər birinin bu günümüzə də işıq salacaq çox mühüm nəsihət və dərslər olması görünəcək.

Bu kitabı yazmaqda digər bir məqsədimiz isə sözügedən bu qissənin bir çox cəhətdən axır zamana aid olmasıdır. Məlum olduğu kimi, axır zaman qiyamətə yaxın bir vaxtda Quran əxlaqının bütün dünya üzərində hakim olacağı və insanlar arasında geniş şəkildə yaşanacağı bir mərhələdir. Keçmiş dövrlərdə edilmiş əxlaqsızlıqlar, təzyiqlər, zülmlər, ədalətsizliklər və degenerasiya bu firavan dövrdə ortadan qalxacaq, hər növ sıxıntının yerini bərəkət, bolluq, zənginlik, gözəllik, sülh və xoşbəxtlik alacaq. Texnologiya getdikcə inkişaf edəcək və bütün bunlardan insanların xeyri və rahatlığı üçün istifadə ediləcək.

Peyğəmbər əfəndimizdən (s.ə.v.) alınma hədislərdə axır zamanın bir çox özəlliyi tərif edilir. Bu dövrdə Allah Hadi (hidayət verən) sifətini daşıyan bir şəxsi-mənəvini (Mehdi) səbəb salacaq, inkarçı fəlsəfə və ideologiyaları ortadan qaldıracaq və dünyanın dörd bir tərəfində davam edən zülmə və qarışıqlığa son qoyacaq. Mehdinin ən mühüm vəzifəsi dinin Peyğəmbərimiz (s.ə.v.) dövründəki kimi olmasını təmin etmək, Quran əxlaqını insanlar arasında hakim əxlaqa çevirmək, bütün dünyada sülh və əmin-amanlığı bərpa etməkdir. Peyğəmbərimizin (s.ə.v.) aşağıdakı hədisində isə Mehdinin Hz.Süleyman və Hz.Zülqərneynlə oxşar bir xüsusiyyətinə diqqət çəkilir:

**"Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcək"** ***(Əl-qavlul muxtəsər fi əlamatil Mehdiyil muntazar, s. 29).***

Yuxarıdakı hədisdə Hz.Süleyman və Hz.Zülqərneyn dövrlərindəki yerüstü hakimiyyətlə Mehdi dövründə olacaq hakimiyyətin bir-birinə bənzəyəcəyinə diqqət çəkilir. Elə bu səbəblə Hz.Süleyman və Hz.Zülqərneyn dövrünü açıqlayan ayələr bu baxımdan incələnəndə hər birinin axırzamana və "Qızıl əsr"ə aid mühüm mövzuları əhatə etməsi görünür (Hz.Zülqərneyn dövrü ilə axırzamanın əlaqəsini ""Kəhf" surəsində axırzamana işarələr" adlı kitabımızda oxuya bilərsiniz). Həmçinin axırzamanda elm və texnologiya sahəsindəki inkişaf, iqtisadi və ictimai tərəqqi Hz.Süleyman qissəsindəki bir çox açıqlama ilə çox böyük bənzərliyə malikdir. Ayələrdəki bu söylənənlər iman gətirənlərin dünyada baş verən hadisələri daha geniş bir perspektivdən qiymətləndirməsinə səbəb olan, üfüqləri açan çox hikmətli açıqlamalardır. Bu kitabın bir məqsədi də bütün insanları axırzamanın gəlişi haqda düşünməyə və bunun sevinc və həyəcanını bir-biri ilə bölüşməyə sövq etməkdir.

# *Həzrəti Süleyman*

***"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!" Süleyman Davuda vərəsə oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!""***
***("Nəml" surəsi, 15-16).***

Hz.Süleyman Allahın Öz dərgahından mülk və hikmətlə dəstəklədiyi ("Bəqərə" surəsi, 251), bir fəzl verdiyi ("Səba" surəsi, 10) və Zəburu vəhy etdiyi, üstün elm sahibi olan bəndəsi Hz.Davudun oğludur. Allah "Sad" surəsində **"Biz Davuda Süleymanı hədiyyə etdik..."** ("Sad" surəsi, 30) şəklində buyurur.

Allah eynilə Hz.Davud kimi Hz.Süleymanı da İsrailoğullarına peyğəmbər kimi göndərmişdi. Onu hidayətə çatdırmış, xeyirli qullarından biri saymış və digər peyğəmbərlər kimi aləmlərdən üstün tutmuşdu. Ayə Allahın iman gətirənlərə aşağıdakı öyüdü ilə davam edir:

**"Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: "Mən bunun müqabilində sizdən bir əvəz istəmirəm. Bu aləmlər üçün yalnız bir öyüd-nəsihətdir""** ("Ənam" surəsi, 90).

Hz.Süleyman da digər peyğəmbərlər kimi insanları Allaha iman gətirməyə, Ona şərik qoşanlardan uzaqlaşmağa, Allahın əmr və tövsiyələrinə tabe olmağa dəvət etmişdi.

# Hz.Süleymana verilən üstün elm və nemətlər

*"(Süleyman dua edib) dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk ver ki, məndən sonra heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan sahibisən!" ("Sad" surəsi, 35).*

Allah Hz.Süleymanın yuxarıdakı ayədə xəbər verilən duasının müqabilində onu Öz dərgahından çox böyük nemətlərlə və üstün elmlərlə dəstəkləmiş, ona heç kimin əlinin çatmayacağı bir mülk, böyük bir səltənət, oxşarı olmayan bir hakimiyyət vermişdi. Hz.Süleymanın həyatından bəzi hissələrin qeyd edildiyi ayələrdə bu zənginlikdən, güc və iqtidardan, sahib olduğu elmlərdən istifadə qaydaları ətraflı şəkildə göstərilir.

## *Hz. Süleymana hökmranlıq hüququ verilmişdi*

***"Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm və elm verdik..."***
***("Ənbiya" surəsi, 79).***

Peyğəmbərlərin həyatını öyrəndiyimiz zaman onların verdikləri qərarlarda, müxtəlif işlərində, danışıqlarında Allahın onlara bəxş etdiyi üstün bir elmin gətirdiyi ağıl və hikmət açıq şəkildə ortaya çıxır. Hz.Süleymanın özü də hökm və elm verilmiş bir peyğəmbərdir. O, yaşadığı müddətdə eynilə atası Hz.Davud kimi "haqq ilə hökm etmiş" ("Sad" surəsi, 26), qarşısına çıxan hər növ çətinliyi ədalətlə həll etmişdi.

***"Davudu və Süleymanı da yad et! O zaman ki, onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik"***
***("Ənbiya" surəsi, 78).***

Ədalət sisteminin uğurla davam etdirilməsi üçün hər şeydən əvvəl adil rəhbərlərə, ədalətlə hökm edən iman sahibi insanlara ehtiyac var. Allahın "Yunus" surəsində də bildirdiyi kimi, Hz.Süleymanın dövrü də bu ədalət anlayışının sözün əsl mənasında yaşandığı bir dövrdür: **"Hər ümmətin bir peyğəmbəri vardır. Onlara peyğəmbər gəldiyi zaman aralarında ədalətlə hökm olunar və onlara zülm edilməz!"** ("Yunus" surəsi, 47). Ayələrdən Hz.Süleymanın dövründə adil bir mühakimə sisteminin olduğu bilinir. Münaqişələrə nəzər salıb ədalətlə hökm verən adamlar Hz.Süleyman və Hz.Davuddur.

Hüdhüd adlı quşun lazım olan vaxtda itib yox olması və Hz.Süleymanın bu mövzuda söylədiyi söz bu baxımdan diqqətçəkicidir:



*"Sonra quşları yoxlayıb dedi: "Hüdhüdü niyə görmürəm? Yoxsa o burada yoxdur? And olsun ki, ona şiddətli bir əzab verər, ya da tutub boğazını üzərəm. Yaxud da o aşkar bir dəlil gətirsin!""*
*("Nəml" surəsi, 20-21).*

Hz.Süleymanın adil davranışının bir nümunəsi Hüdhüdün itməsindən sonra etdiyi bir hərəkətdir. Hz.Süleyman əvvəlcə Hüdhüdün özünü müdafiə etməsinə fürsət vermiş, onu diqqətlə dinləmiş, onu ani bir qərarla cəzalandırmamışdı. Onun açıq bir dəlil gətirməsini gözləmişdi.

## Hz. Süleymana quşların danışıq dili öyrədilmişdi

Allah Hz.Süleymana quşların danışıq dilini öyrətmiş və bu üstün elm sayəsində ordusunda quşlardan ibarət bir dəstə yaratmağa nail olmuşdu. Beləliklə, Hz.Süleyman quşlarla yaxınlıq etmiş, onlara istədiyi şəkildə hökm edə bilmişdi. Bu hal bütünlüklə Allahın Hz.Süleymana olan rəhmətinin bir nəticəsidir. Bunun fərqində olan Süleyman peyğəmbər xalqına verdiyi açıqlamada bu elmi ona Allahın öyrətdiyini xüsusi şəkildə bildirmişdi. Bu elmin özünə aid bir xüsusiyyət olmadığını və insanın yalnız Allahın öyrətməsi ilə belə bir elmə sahib ola biləcəyini vurğulamışdı. Beləliklə, Allah qarşısındakı təslimiyyət və möhtaclığını açıq şəkildə ifadə etmişdi:

*"Ey insanlar! Bizə quş dili öyrədildi və hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!"*
*("Nəml" surəsi, 16).*

Hz.Süleyman qissəsindəki bu məlumatdan bəzi mühüm nəticələr çıxır:

* Quşların digər insanların duya bilmədiyi xüsusi bir dalğa boyunda özlərinə xas bir danışıqları var. Hz.Süleymana bu xüsusi dalğadakı danışığı anlaya biləcək bir elm verilmişdi. Bu, texnoloji bir imkanla da ola bilər.

***Xüsusilə meşələr, otlaqlar və bataqlıqlar kimi bitkilərin görüşə əngəl törətdiyi yerlərdə əlaqə quşlar üçün çox mühümdür. Quşlar mahnı oxumaq, qışqırmaq, müxtəlif səslər çıxarmaqla əlaqə qururlar. Hər növün özünə xas mahnısı yaxud mahnıları var. Hətta bəzi quşların bir dyujindən çox fiti və mahnısı var. Bəzi quşlar da digər növlərin mahnılarını yaxud da insanları yamsılaya bilirlər.***





***Quşların səs telləri yoxdur. Səs çıxarmaq üçün bir quşun səs qutusu boyunca titrəyişlər göndərilir. Bu səs qutusuna nə qədər çox əzələ bağlıdırsa, bir o qədər çox səs çıxara bilir. Məsələn, bülbüllərin çox sayda əzələsi var və onlar bir çox fərqli səslər çıxara bilirlər.***



"Məgər göylərdə və
yerdə olanların,
qanadla
rını açıb uçan
quşların Allahı
təqdis edib şəninə
tariflər dediklərini
görmüsənmi? Allah
onlardan hər
birinin duasını,
şükr-sənasını bilir.
Allah onların nə
etdiklərini
biləndir!"
("Nur" surəsi, 41).



"Biz onu dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm və elm verdik. Biz dağları və quşları Davudla birlikdə təqdis edib tərifləsinlər deyə ona ram etdik. Bunları Biz etmişdik" ("Ənbiya" surəsi, 79).

# Pilotsuz təyyarə texnologiyası

**Pilotsuz təyyarə texnologiyası gündən-günə inkişaf edir. Ölkəmizdəki İHD (İnsansız Hava Daşımaları) adlı bu yeni texnologiya hər ölkənin müdafiə layihələrində ön sıralarda yer alır. Amerika Hava Qüvvələri bu baxımdan iki mühüm proqram irəli sürüb. UAV (Unmanned Aerial Vehicle - İnsansız Hava Daşımaları) və UCAV (Uninhabited Combat Air Vehicle - İnsansız Hərbi Hava Daşımaları) adlandırılan bu iki proqram yaxın gələcəkdə pilotsuz təyyarələrin çox önəm qazanacağını ortaya qoyur. Bu yeni texnologiyanı "yeni bir çağ" kimi təqdim edən Amerika Hava Qüvvələrinin səlahiyyətli şəxsləri sözügedən texnologiyanın pilotlu təyyarələrlə müqayisədə çox böyük üstünlüklərinin olduğunu söyləyirlər. Həm yerdən idarə edilən, həm də proqramlaşdırılaraq istifadə edilə bilən bu vasitələrin bəzi üstünlükləri bunlardır:**

*** İnsanın həyatı ilə risk edilmir. Hər hansı bir itki vermədən kəşfiyyat aparmaq və müharibə etmək mümkündür;**



* Pilotsuz təyyarələrin ölçüsü kiçik olduğu üçün maddi baxımdan da sərfəlidir;
* Ölçülərinə və malik olduqları texnologiyaya görə düşmən radarları tərəfindən müəyyən edilmə ehtimalları daha az olur. Məsələn, NASA-da həyata keçirilən X-36 proqramı uzunluğu 5-6 metr, çəkisi isə təxminən 600 kq olan təyyarələrin istehsalını nəzərdə tutur. Bu təyyarələr komanda mərkəzində simulyatorla işləyən pilot tərəfindən idarə olunur. Hücumlara qarşı tədbir də vasitədəki kameralardan ötürülən təsvirlərə görə yerdəki pilot tərəfindən idarə edilir;
* Ölçüləri səbəbi ilə və pilotsuz olduqları üçün yüksək manevr qabiliyyətinə malikdirlər;
* Sahib olduqları rəngli və infraruj kameraların köməyi ilə əlçatmaz bölgələrdən belə kəşfiyyat xəbərləri ala bilirlər. Bu qeydlər peyk vasitəsilə qısa müddət ərzində idarə mərkəzinə çatdırıla bilər;
* Araşdırmalara görə, pilotlu bir təyyarədə uçuş saatlarının 80 faizi pilotun təlimi, 20 faizi isə iş məqsədi olduğu halda insansız təyyarələrdən 100 faiz iş məqsədilə istifadə olunur. Bunun həm zaman, həm də maddi baxımdan böyük faydası var.

Bu üstünlüklər pilotsuz təyyarələrin seçilməsi üçün ağıla ilk gələn səbəblərdir. Yuxarıda adını çəkdiyimiz layihələr hamısı hələ tam həyata keçirilməyib. Ancaq bu layihələr şübhəsiz ki, yaxın gələcəkdə təyyarə texnologiyasında layiq olduğu yeri tutacaq.[3]



*Quşların öz aralarında xüsusi bir rabitə dili var və bunun üçün səslərindən ustalıqla istifadə edirlər. Quşlar müəyyən səs dalğalarından - UV-A dalğa boyu - istifadə edərək əlaqə qurur. Bizim eşitmədiyimiz səs dalğalarında danışdıqları üçün biz bunları qavraya bilmirik. Quşlar balalarını, ata-analarını, cütlərini bu səslərlə tanıyır, sürülərinin toplanmasını təmin edir, bir-birini təhlükədən xəbərdar edirlər. Onlar rabitə dalğalarını dəyişib çox sürətlə məlumat daşıya bilirlər.*



*Ultrasonik və transonik adlandırılan səslər normal insanın eşitməsi üçün lazım olan səs dalğalarıdır. Bir sıra quş, həşərat və ya gəmirici, yarasa, it, pişik kimi məməlilər bu yüksək dalğaları duyub onlarla rabitə qurur. İnsanlar isə bu səsləri eşidə və bu səbəbdən onlar arasındakı əlaqəni anlaya bilmir. Ancaq ayələrdən də gördüyümüz kimi, Allah Hz.Süleymana bu səsləri qəbul edəcək və anlaya biləcək bir elm və texnologiya vermiş ola bilər.*





# Kəşfiyyat və xəbərləşmə cihazlarından istifadə edilməsi

**Bu gün mikrokameraların köməyi ilə kəşfiyyat məqsədli təsvir yaratma çox asanlaşıb. Əvvəllər yalnız kəşfiyyat qurumları tərəfindən istifadə edilən və texnologiyası ictimaiyyətdən gizlədilən mikrokameraları bu gün hər istəyən satın ala bilər.**

**Qalstuk, qol saatı, stolüstü lampa və ya saat, qələm, eynək, qələmyonan, kitab, alışqan, papaq, kiçik radio, oyuncaq, səsləmə aləti, telefon, duman detektorları, bitkinin altı kimi yerlərə yerləşdirilə bilən mikrokameralar sayəsində heç kim bilmədən görüntü əldə edilir. Hər gün bir az da kiçilən bu kameraların ölçüləri 2 millimetrlə bir neçə santimetr arasındadır.7 Eyni mikrokameraları yuxarıda sadaladıqlarımızla yanaşı heyvanların üzərinə də yerləşdirmək mümkündür.**

**Bu mikrokameraların bir çox xüsusiyyətləri var. Məsələn, bir mikro yazı aləti ilə əldə edilən görüntülər normal bir yazı aləti ilə qeyd edilənlə eyni keyfiyyətdədir. Batareya ilə işləyən bu kameralarla ağ-qara yaxud da rəngli çəkiliş aparmaq mümkündür. Bəzi kameralar fasiləsiz çəkiliş apararkən digərləri də şəraitə uyğun olaraq avtomatik dönərək hərəkət edir. Batareya ilə işləyən bu mikrokameralar saatlarla çəkiliş apara bilir. İnfraqırmızı kameralar isə təqribən 150 metrlik bir sahəni zülmət qaranlıqda qeyd edə bilir.8**

Kəşfiyyat məqsədli gizli dinləmə cihazlarına ingiliscə "vuq" ("böcək") deyilir. Bu "böcək"lər bir sahəyə yerləşdiriləndə əlaqəni əngəlləyən və ya məlumatı bir sahədən digərinə ötürən cihazlardır. Bu cihazları dinləyən şəxs hədəfdən bir neçə yüz metr uzaqda ola bilər. Bu dinləmə cihazlarının istehsalı, satışı və tətbiqi ABŞ-da milyardlarla dollarlıq bir sənayeni təşkil edir.9 Böyük cinayətlərin araşdırılmasında, telefonların dinlənilməsində bu cihazlardan geniş istifadə edilir. "Böcək" adlı dinləmə cihazlarının bir neçə növü var. Ultrasonik olanları səsi normaldan yüksəyə qaldırır. Daha sonra bu siqnal normal səs dalğasına çevrilir.



***Hafiz Osman, Sülüs Nəsih Qitə, XVII əsr, "Səmanın Rəbbinə təvək-kül etdik, qəzanın səbəblərinə təslim olduq" yazılıb.***

* Süleyman peyğəmbər quşların bu fərqli dalğalardakı səsli rabitəsini anlaması sayəsində onlara müxtəlif əmrlər vermiş, quşlar da onun bu əmrlərini yerinə yetirmiş ola bilərlər (Ən doğrusunu Allah bilir).

* Hz.Süleyman quşlardan bəzən xəbər aparmaqda, bəzən elə məlumat toplamaqda istifadə etmiş və bu şəkildə çox mühüm nəticələr əldə etmişdi. Bu elm onun digər ölkələrlə əlaqəsini asanlaşdırmış, əlçatmaz bölgələrə rahatlıqla getməsinə imkan vermişdi (Ən doğrusunu Allah bilir).

* Bu ayə ilə ola bilsin ki, axırzamanda oxşarı istifadə ediləcək yüksək bir texnologiyanın varlığına diqqət çəkilir. Bu qissədə sözügedən quşlarla bizim tanıdığımız adi quşlara deyil, bu gün istifadə olunan pilotsuz təyyarələrə işarə edilməsi ehtimalı da var.* Bunlardan başqa, Hz.Süleyman digər ölkələr və düşmənləri haqqında kəşfiyyat məlumatı əldə etmək üçün quşlara ötürücü cihaz yerləşdirmiş, bu şəkildə həm təsvir, həm də səs yazısı əldə etmiş, beləliklə də bunlardan ölkəsinin idarəçiliyində müxtəlif şəkildə istifadə etmiş də ola bilər.

* Hz.Süleymanın cinlər və şeytanlar üzərində böyük bir hakimiyyətinin olduğu məlumdur. Allah "Səba" və "Ənbiya" surələrində bununla bağlı belə buyurur:

**"...Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi.... "** ("Səba" surəsi, 12). **"...Biz şeytanlardan qəvvaslıq edənləri və başqa işlər görənləri də onun ixtiyarına verdik..."** ("Ənbiya" surəsi, 82).

Bu baxımdan düşündükdə quşlardan da çox quş görkəmindəki cinlərdən meydana gələn bir ordu ola bilər.

* Başqa bir ehtimal da var ki, ayədə sözügedən quşlar cinlər tərəfindən idarə edilir. Və Süleyman peyğəmbər də cinlər vasitəsilə quşlara istədiyi bütün işləri gördürmüş ola bilər.

* Quran Allahın qiyamət gününə qədər bütün insanlar üçün keçərli saydığı Kitabdır. Buna görə Hz.Süleyman qissəsindəki ha-

disələrin bəziləri axırzamanda da yaşana bilər. Bu ayələr Allahın cinləri və şeytanları axırzamanda da insanların xidmətinə verəcəyinə işarə ola bilər. Yenə bu qissədə işarə edilərək diqqətin yönəldildiyi yüksək texnologiyadan axırzamandakı insanların da çox geniş şəkildə istifadə edəcəyinə diqqətimizi çəkmiş ola bilər (Ən doğrusunu Allah bilir).

## Hz.Süleymanın dişi qarışqanı anlaması

> ***"Nəhayət, onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi basıb əzməsinlər!"" ("Nəml" surəsi, 18).***

Yuxarıdakı ayə belə izah edilə bilər.

* Dişi qarışqa vadiyə gələnlərin Hz.Süleymanın ordusu olduğunu anlamaqdadır. Burada çox şüurlu bir tanıma var. Bu vadidə olan qarışqaların öz aralarında danışması, ətraflarında baş verən hadisələri tam olaraq bilməsi fərqli bir cəmiyyət olacaqlarına işarə ola bilər. Bu şüurlu davranış sözügedən canlıların cin olma ehtimalını ağıla gətirir (Ən doğrusunu Allah bilir).

* Qeyd etmək lazımdır ki, burada hər hansı qarışqadan bəhs edilmir. "Qarışqa vadisi" deyilən xüsusi bir yerə və qarışqalara diqqət çəkilir. Bu da sözügedən canlıların cin olma ehtimalını qüvvətləndirir:

*"(Süleyman qarışqanın) bu sözündən gülümsəyib dedi: "Ey Rəbbim! Mənə mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükr etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham ver! Və məni Öz mərhəmətinlə saleh bəndələrinin zümrəsinə daxil et!""*
*("Nəml" surəsi, 19).*

* Hz.Süleymanın qarışqaların öz aralarındakı danışığını eşitməsində də axırzamanda kompüter texnologiyasında əldə ediləcək irəliləyişlərə yönəlik bəzi diqqətçəkici işarələrin olması mümkündür.

* Müasir dövrdə "Silikon vadisi" termini texnologiya dünyasının mərkəzini ifadə edir. Hz.Süleyman qissəsində də bir qarışqa vadisindən bəhs edilməsi son dərəcə diqqətəlayiqdir. Allah bu ayə ilə bəlkə də axırzamanda yaşanacaq yüksək bir texnologiyaya diqqət çəkir.

* Onu da qeyd etmək lazımdır ki, hal-hazırda qarışqalardan və bəzi həşəratlardan yüksək texnologiya sahəsində geniş istifadə edilir. Bu canlıların nümunə olaraq götürülməsi yolu ilə istehsal edilən robot layihələri müdafiə sənayesindən texnologiya sahəsinə qədər və başqa bir çox yerlərdə xidmət göstərir. Ayədə bu inkişafa da işarə edilə bilər.

"Göylərdə və yerdə olan canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər! Onlar öz üstündə olan Rəbbindən qorxar və özlərinə buyurulanları edərlər!"

("Nəhl" surəsi, 49-50).





***1950-ci illərdə Amerika akademiklərinin elm və təcrübələrini bir araya gətirib dünya bazarına girmək istəyi ilə yaradılan və 4000 km-lik bir sahəni tutan Silikon vadisi Kaliforniyadakı Stenford Universitetinin rəhbərliyi ilə qurulub. Burada dünyanın dörd bir yanında elm, informasiya və yüksək texnologiya üzərində işləyən 8000 şirkət toplanıb. 300.000-ə yaxın yüksək ixtisaslı kadr, alim, mühəndis və tədqiqatçı yüksək texnoloji məhsulların inkişaf etdirilməsi üçün burada çalışır, texnologiya sahəsində baş verən inkişafın böyük bir hissəsi burada həyata keçirilir.[10]***

"Bizim
uğrumuzda
cəhd
edənləri Öz
yollarımıza
qovuşdurac
ağıq.
Şübhəsiz
ki, Allah
yaxşı
əməllər
edənlərlədi
r!"
("Ənkəbut
" surəsi,
69).

# Mini texnologiyalarda-kı son inkişaf: robot qarışqa ordusu

Qarışqaların nümunə götürülməsi yolu ilə inkişaf etdirilən layihələrin ən məşhuru müxtəlif ölkələrdə bir-birindən asılı olmadan aparılan "Robot qarışqa ordusu layihəsi"dir. Məsələn, Virciniya Politexnik İnstitutu və Virciniya Dövlət Universiteti tərəfindən aparılan bir araşdırma kiçik, ucuz və sadə robotların inkişaf etdirilməsi məqsədini güdür. Məqsəd hamısı fiziki baxımdan bir-birinin bənzəri olan bu robotlardan bir robot ordusu qurmaqdır. Layihə qurucuları bu robotların işləmə prinsiplərini bu şəkildə açıqlayır: "Qrup şəklində hərəkət etmələri, koordinasiya içində, bir dəstə halında fiziki işləri yerinə yetirmələri və ortaq qərar vermələri".

Bu robot ordularının bütün texniki və elektrik sistemləri bir qarışqa toplumunun davranışının nəzərdə tutulması yolu ilə planlaşdırılmışdır. Öz cinslərindən olan həşərat cütlərinə bənzədiklərinə görə onlara "qarışqa ordusu robotlar" deyilir.





"Qarışqa ordusu robot" sistemi ilk başlanğıcda bir "material daşıma sistemi" kimi layihələndirilib. Bu ssenariyə görə, bir çox kiçik robota cisimləri əlbir şəkildə qaldırıb onları nəql etmək işi tapşırılacaqdı. Daha sonra onlardan müxtəlif işlərdə də istifadə edilməsinə qərar verildi.

Mövzu ilə əlaqədar bir verilişdə bu robotlardan nə məqsədlə istifadə ediləcəyi bu şəkildə tərif edilmişdir:

"Nüvə və təhlükəli maddənin təmizlənməsi, mədənçilik (materialı çıxarma və xilasetmə), mina təmizləmə, xəbərləşmə və keşik çəkmə, planet səthlərinin öyrənilməsi və qazıntılar".[11]

Qarışqa robot texnologiyası sahəsində mütəxəssis olan İsrael A.Vaqner tərəfindən İsrail parlamentinə təqdim edilmiş bir raportda isə qarışqa robot layihələri aşağıdakı şəkildə göstərilir:

"Ancaq iman gətirənlər, saleh əməllər işləyənlər və Allahı çox zikr edənlər zülmə məruz qalandan sonra qələbə qazananlar başqa..." ("Şuəra" surəsi, 137).



"Qarışqa-robotlar ortaq bir hədəfə çatmaq üçün planlaşdırılmış fiziki varlıqlardır. Bunların çox məhdud enerji qaynağından yararlandığı və fəaliyyət sahələrində bir çox izlər qoyaraq əlaqə qurduğu görünür. İşlərin bu robotlar arasında bölgüsü ya mərkəzi nəzarətçi və digər nümayəndələrə təlimat göndərən bir şəxs tərəfindən həyata keçirilə, ya da şəxslərin əvvəlcədən itaət etməsi şərtilə verilən bir işin tamamlanması da təmin edilə bilir.

Üçüncü bir yol isə iş əsnasında bu işbirliyinin qabaqcadan qərar vermədən təbii şəkildə ortaya çıxmasıdır. Bunların istifadə məqsədi tədqiqat, xəritə çəkmə, bir evin təməlini təmizləmə, naməlum bir planeti kəşf etmə və ya bir mina sahəsini təmizləmə ola bilər".12

Bu nümunələrdən də göründüyü kimi, qarışqaların ictimai həyatı müasir dövrdə bir çox layihələrin təməlini təşkil etməkdə və qarışqaların köməyi ilə qurulan robot texnologiyaları insanlara böyük fayda verməkdədir. Elə bu səbəblə də Hz.Süleyman qissəsində qarışqalara və onların olduğu vadiyə diqqət çəkilməsi son dərəcə mühümdür. Allah bu ayə ilə diqqəti bəlkə də Hz.Süleyman dövründəki texnoloji inkişafa cəlb edir. Məsələn, ayələrdə işlədilən "qarışqalar" ifadəsi ilə robotlardan təşkil edilmiş bir orduya işarə edilə bilər. Hz.Süleyman onun əmrinə tabe olan cinlərin və şeytanların köməyi ilə çox yüksək texnologiyaya sahib robotlardan ibarət bir ordu qurub onları müxtəlif vəzifələrlə görəvləndirmiş ola bilər.

Ayələrdə xüsusilə axırzamanda robot texnologiyasında əldə ediləcək irəliləyişlərə, robotların insan həyatında mühüm bir rol oynayacağına, bir çox ağır işləri görüb onların həyatını rahat edəcəyinə işarə edilir. Şübhəsiz ki, ən doğru olanı Allah bilir.

# Küləyin Hz.Süleymanın əmrinə verilməsi

***"Əmrilə bərəkət verdiyimiz yerə doğru şiddətlə əsən küləyi də Süleymana biz ram etdik. Biz hər şeyi bilənik!" ("Ənbiya" surəsi, 81).***

* Allah küləyi Hz.Süleymanın əmrinə vermiş və ondan müxtəlif işlərində bir vasitə olaraq istifadə etməsinə imkan yaratmışdır. Bu ifadə ilə Hz.Süleyman dövründə və eyni şəkildə axırzamanda texnologiyada külək enerjisindən istifadəyə işarə edilə bilər.

* Hz.Süleymanın əmrinə "fırtına şəklindəki küləyin" verildiyini bildirməklə axırzamanda inkişaf edəcək yüksək təyyarə texnologiyasına diqqət çəkilmiş ola bilər.

***Bu gün yel dəyirmanlarından bir çox ölkələrin elektrikə olan tələbatının ödənilməsində istifadə olunur. Yel dəyirmanları XXI əsrin mühüm enerji qaynağı statusunu almış və yanacaqla işləyən generatorlara ucuz və faydalı bir alternativ olmuşdur.***




"Onu bütün dinlərdən üstün etmək
üçün Öz Peyğəmbərini hidayət və haqq
dinlə göndərən Odur. Allahın şahid
olması kifayət edər!"
("Fəth" surəsi, 28).

***"Süleymana da küləyi ram etdik. O səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi..."***
***("Səba" surəsi, 12).***

* Ayədə yer alan **"səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol"** ifadəsi ilə Hz.Süleymanın müxtəlif bölgələr arasında sürətli bir şəkildə hərəkət etdiyinə diqqət çəkilmiş ola bilər.

* Hz.Süleyman öz dövründə indiki təyyarə texnologiyasına bənzər bir texnologiyadan istifadə edib küləklə hərəkət edən vasitələr meydana gətirmiş və bunların vasitəsilə uzaq məsafələri qısa zamanda qət etmiş ola bilər. Şübhəsiz ki, ən doğrusunu Allah bilir.





***Təyyarələrin qanadları təzyiq fərqi təşkil edib nəqletmə işini həyata keçirəcək şəkildə planlaşdırılıb. Uçuş qanadların ətrafında havanın hərəkət etməsi nəticəsində mümkün olur. Təyyarənin ağırlığına bərabər bir daşıma qüvvəsi ilə təkərlər yerdən aralanır və təyyarə havaya qalxır.***

***Bu daşıma qüvvəsi bu şəkildə ortaya çıxır. Normal halda hava dalğalar şəklində yumşaq bir axına malikdir. Ancaq qanadın hərəkəti ilə birlikdə havanın axını da dəyişir. Hava bölünür və qanadın ətrafından keçir.***



***Qanadın üst tərəfi donqar bir profilə malikdir. Bəzi fiziki qanunlara görə, qanadın üstündən keçən hava sürətlənir və bu hava qanadın altındakı havadan daha az təzyiq əmələ gətirir. Başqa sözlə, altdakı hava qanadı daha çox yuxarı qaldırdığı halda üstdəki hava onu bir qədər az aşağı sıxır. Bu təzyiq nisbəti təyyarənin altdan yuxarıya tərəf itələnməsinə və yuxarı çəkilməsinə yol açır. Bu vəziyyətdə təyyarə cazibə qüvvəsini dəf edir və onun havada qalması üçün daşıma qüvvəsi yaranır. Və təyyarə havaya qalxır.***

---

***Təyyarə havaya qarşı hərəkət halında ikən yaranan qüvvəyə aerodinamik qüvvə deyilir. Təyyarənin çəkisi, yəni yerin cazibə qüvvəsi bir kütlə qüvvəsidir. Aerodinamik qüvvə isə təyyarənin ətrafındakı hava ilə təmasda olduğu hissələrdə yaranır. Bu qüvvənin səthə dik olan hissəsinə "təzyiq", səthə toxunan hissəsinə isə "sürtünmə qüvvəsi" deyilir. Ümumi aerodinamik qüvvənin təyyarənin hərəkət yönünə dik və yuxarı tərəf olan hissəsinə "daşıma", təyyarənin hərəkətinə paralel və geriyə tərəf olan hissəsinə isə "yan qüvvə" deyilir. Təyyarənin şaquli haldakı üfüqi uçuşuna daşıma qüvvəsi yerin cazibə qüvvəsinə zidd təsir edir. Bu iki qüvvə bərabər olanda təyyarə havada sabit şəkildə uça bilir.***



# *Elektrikdən istifadəyə dair işarələr*

***"...Onun üçün mis mədənini sel kimi əridib axıtdıq..." ("Səba" surəsi, 12).***

Allahın Hz.Süleymanın əmrinə verdiyi böyük nemətlərdən biri də "ərimiş mis mədənidir". Bu ayəni fərqli şəkillərdə izah etmək mümkündür.

* Hz.Süleyman sərəncamında olan şeytan və cinlərdən istifadə edərək ərimiş misdən həm dekorativ, həm də istifadəyə yararlı iri qablar, qazanlar və heykəllər düzəltdirmiş ola bilər. Həmçinin bu qab, qazan və heykəllər ayələrdə qeyd edilir ("Səba" surəsi, 13).

* Ərimiş misdən istifadə ilə Hz.Süleyman dövründə elektriklə işləyən yüksək bir texnologiyanın varlığına da işarə olunur. Bildiyimiz kimi, mis elektriki və istiliyi ən yaxşı ötürən metallardan biridir və bu səbəbdən elektrik sənayesinin təməlini təşkil edir. Dünyada istehsal edilən misin mühüm bir hissəsindən elektrik sənayesində istifadə edilir.

* Hz.Süleyman dövründə çox miqdarda istehsal edilən elektrik inşaat və rabitə kimi bir çox sahələrdə istifadə edilmiş ola bilər. Ayədəki "sel kimi axıtdıq" ifadəsi də buna işarə ola bilər (Ən doğrusunu Allah bilir).


"(Çətinliklərə) səbr
etdikləri və ayələrimizə
ürəkdən inandıqları üçün
Biz onlardan əmrimizlə
haqq yolu göstərən
rəhbərlər təyin etmişdik"
("Səcdə" surəsi, 24).

***"Səba" surəsinin 12-ci ayəsində gedən "aynəl ketri" ifadəsi ərimiş mis kimi qəbul edilsə, bununla bugünkü elektrik sənayesinə işarə edildiyi ehtimal olunur. İstiliyi və elektriki ən yaxşı ötürən metallardan biri olan mis yüksək texnologiyanın başlıca maddələrindən biridir.***



* Bəzi tədqiqatçılar ayədəki "aynəl qıtri" ifadəsini neft kimi izah edir. Müasir dövrdə neft yüksək texnologiyanın ən başlıca xammalıdır. Hz.Süleyman da neftdən öz dövrünün texnologiyasında çox geniş şəkildə istifadə etmiş ola bilər (Şübhəsiz ki, ən doğrusunu Allah bilir).

## Cinlərin və şeytanların Hz. Süleymanın əmrinə verilməsi

***"...Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi. Onlardan hər kəs əmrimizdən çıxırdısa, ona cəhənnəm odunun əzabından daddırardıq"***
***("Səba" surəsi, 12).***

Allahın Hz.Süleymana bəxş etdiyi digər bir nemət də bir sıra şeytan və cinləri ona xidmətçi verməsidir. Hz.Süleyman əmrinə verilən cin və şeytanlara ordusunda, sənət işlərində və inşaat fəaliyyətində müxtəlif işlər verərək onlardan faydalanmışdı.

*"Biz küləyi ona ram etdik. Külək onun əmri ilə istədiyi yerə rahatca gedirdi. Şeytanlardan olan hər bir bənnanı və qəvvası da ona tabe etdirdik"*
*("Sad" surəsi, 36-37).*

Şeytanların Hz.Süleymanın əmrinə verilməsi ona Allah tərəfindən çox böyük bir lütfdür. Çünki şeytan yer üzünün bir çox elminə və dünyada baş verən hadisələrin gizli və ya açıq bilgilərinə sahib bir varlıqdır. Belə bir elmə sahib olan varlığı öz əmrində saxlamaq Hz.Süleymanın həm digər ölkələrlə əlaqə saxlamasını, həm də öz ölkəsini idarə etmək işini asanlaşdırmış ola bilər.

*"Biz şeytanlardan qəvvaslıq edənləri və başqa işlər görənləri də onun ixtiyarına verdik. Biz onların üstündə göz olurduq"*
*("Ənbiya" surəsi, 82).*



**"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!" ("Nəml" surəsi, 15).**

*Bu gün dənizin altındakı yataqlar neft axtarışlarının mühüm bir hissəsini təşkil edir. Platformalar vasitəsilə açılan quyular üçün yüzlərlə metr dərinliyə enirlər.*

* Hz.Süleyman bu dalğıc şeytanları çox müxtəlif işlərlə vəzifələndirmiş ola bilər. Şeytanlar kəşfiyyat və ya hərbi xarakterli vəzifələr ala bildikləri kimi elmi vəzifələri də yerinə yetirmiş ola bilərlər. Məsələn, Hz.Süleyman onlardan dəniz altındakı zənginliklərin aşkarlanaraq bu xəzinələrin insanların xidmətinə verilməsi üçün lazımi araşdırmaların aparılması kimi işlərdə istifadə et-



miş ola bilər.

* Bu ayədən belə qərara gəlmək olar ki, sadəcə torpağın üstünün deyil, dənizin altının da işlənməsinin əhəmiyyəti anlaşılır. Ancaq dənizin altındakı qızıl, neft kimi qiymətli faydalı qazıntıların çıxarılıb işlənməsi, onların insanlara faydalı və yararlı olacaq hala gətirilməsi üçün yüksək bir texnologiya lazımdır. Keç-







*"Qeybin açarları Allahın yanındadır. Onları ancaq O bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!" ("Ənam" surəsi, 59).*

mişdə şeytanlar Hz.Süleymana bu texniki dəstəyi və insan gücünü təmin etmiş ola bilərlər.

* Axır zamanda isə dəniz altındakı zənginliklərin üzə çıxarılması Allahın insanların xidmətinə verdiyi müasir texniki alətlərin, vasitələrin və dənizaltı cihazların sayəsində daha da asanlaşmaqdadır. Ayədə bu istiqamətdə bir işarənin olması ehtimal edilir.

* Qeyd etmək lazımdır ki, ayədə əlavə olaraq dəniz altında olan inci, mərcan kimi bəzək əşyalarının və digər nemətlərin qiymətləndirilməsinə də diqqət çəkilmiş ola bilər (Şübhəsiz ki, ən doğrusunu Allah bilir).

* Əvvəlki səhifədəki ayənin sonunda Allah "Biz onların üstündə göz olurduq" ("Ənbiya" surəsi, 82) şəklində bildirir. Bu ayə ilə Hz.Süleymanın əmrində olub dənizin dərinliklərində vəzifəsini yerinə yetirən dalğıc şeytanların göylərin və yerin Rəbbi olan Allahın nəzarəti altında olduğu bir daha xatırladılır. Allah şeytanların Hz.Süleymana üsyan etməsinə heç bir şəkildə imkan verməyəcək bir gücü də Özündən bir rəhmət olaraq peyğəmbərinə bəxş etmişdir.




"Sənin ad-sanını
ucaltmadıqmı?!"
("İnşirah" surəsi, 4).
"Şübhəsiz ki, hər
çətinlikdən sonra bir
asanlıq gələr!"
("İnşirah" surəsi, 5).

*"Onun üçün nə istəsə - uca qəsrlər, heykəllər, böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar düzəldirdilər..."*
*("Səba" surəsi, 13).*

Sənət əsərlərinin Hz.Süleymanın təlimatı və rəhbərliyi ilə cin və şeytanlar tərəfindən yaradıldığı yuxarıdakı ayədən anlaşılır. Hz.Süleymanın şəxsən öz tərifləri ilə çox möhtəşəm sənət əsərləri yaratması onun çox güclü bir estetik və sənət anlayışına malik olduğuna diqqət çəkir.

## Bütün nemətlər Allahın bir lütfüdür

Hz.Süleyman Allahın ona verdiyi bütün gücdən və mülkdən Allahın dinini ən gözəl şəkildə təmsil və təbliğ etmək, Rəbbimizin bənzərsiz və görkəmli səltənətinin hər kəs tərəfindən anlaşılmasına səbəb olmaq və bu yolla din əxlaqını yaymaq üçün istifadə etmişdir. İnsanlar Allaha iman gətirmələri üçün gələn dəvətə onun bu zəka, elm və sənət gücü qarşısında asan şəkildə təslim olmuşdular. Hz.Süleyman Allaha olan bağlılığının əvəzini ən gözəl şəkildə almış və bütün dünyada tanınan çox böyük bir hakimiyyət əldə etmişdi. Min illərdən bəri Hz.Süleymanın gücü və iqtidarı bir çox insanın gözünü qamaşdırmış, müxtəlif romanlara, rəsm əsərlərinə, filmlərə mövzu olmuşdur.


"Biz sizi vuruşda
qorumaq üçün zireh
sənətini öyrətdik.
Artıq şükr
edərmişiniz?"
("Ənbiya" surəsi, 80).


"Geniş, uzun zirehlər düzəlt, toxuduğun zaman ölçüyə riayət et! Və yaxşı işlər görün...




Allah Hz. Süleymanın ordusunu cinlərlə və quşlarla təmin etmiş, ona yer üzündə çox güclü bir iqtidar vermişdi. Onun ordusunun qarşısına heç bir ölkə çıxa bilmir, çıxsalar belə məğlub olurdular. Allah "Ənbiya" surəsinin 80-ci ayəsində bildirdiyi kimi, Hz.Süleymana çətin vuruşlarda əsgərlərini qorumaq üçün zireh toxumaq sənətini öyrətmişdir. Bu zirehlər, dəmir papaqlar və müxtəlif vasitələr onun ordusunun daha da məğlubedilməz etmişdir.

Bu fəsil boyunca Hz.Süleymana verilən üstün elmlərdən və müxtəlif nemətlərdən bəhs etdik. Ancaq bu mövzuda xüsusilə vurğulanması lazım olan bir məsələ var. Ayələrdə bütün bu nemətləri verənin, elmləri anladanın və bütün hadisələri törədənin əslində aləmlərin Rəbbi olan Allah olduğu göstərilir. Hz.Süleymanın gördüyü bütün işlər Allahın istəyi və məsləhəti ilə gerçəkləşir. Məsələn, Allah ayəsində **"Biz məsələnin hökmünü Süleymana anlatdıq" şəklində buyurur** ("Ənbiya" surəsi, 79). Heç bir insanın Allah istəmədikcə heç bir hikmətin fərqində olmayacağı, hökm verə bilməyəcəyi bu ayədən başa düşülür. Bir insanın bir hadisəni öz qüdrəti ilə dərk etməsi, fikir yürüdüb hökm verməsi qətiyyən mümkün deyil. Çünki hökmü verən Allahdır. O, hökm və hikmət sahibi olandır. Qərarı verən şəxs isə ancaq bir icraçıdır. Allah dilədiyi üçün o qərarı verə bilir.

Eyni ayənin davamında dağların və quşların Hz.Süleymanın atası Hz.Davudla birlikdə boyun əydikləri müəyyən edildikdən sonra **"Bunları Biz etmişdik"** ("Ənbiya" surəsi, 79) şəklində bildirilir. Hz.Davuda geyim sənətini öyrədən, küləyə boyun əydirən, ərimiş misi Hz.Süleymanın əmrinə verən Allahdır. Allah "Ənbiya" surəsinin 81-ci ayəsində **"Biz hər şeyi biləni!"** şəklində buyurmaqdadır ("Ənbiya" surəsi, 81).

Allah diləmədikcə heç bir insanın bir elmə sahib olması mümkün deyil. İnsan illər boyu oxuduğu və ya öyrəndiyi biliklər nəticəsində özünü elmli bir insan hesab edə bilər. Ancaq elmi verənin Allah olduğunu əsla unutmamaq lazımdır. Çünki bir insanın hər hansı bir elmə sahib olması Allahın o insana bəlli bir həddə bir elm verməsinin nəticəsidir. Mələklərin **"Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən Sən. Hikmət sahibi Sənsən"** ("Bəqərə" surəsi, 32) şəklindəki sözləri bu həqiqəti açıq şəkildə ifadə edir.

# *Hz.Süleymanın möhtəşəm hakimiyyəti və güclü ordusu*

***"Süleymanın cinlərdən, insanlar-dan və quşlardan ibarət qoşunu toplandı. Onlar cərgə-cərgə düzülüb gedirdilər" ("Nəml" surəsi, 17).***

* Hz.Süleyman misli-bərabəri olmayan çox güclü bir orduya sahibdir. Bu ordu cinlərdən, quşlardan və insanlardan ibarətdir və çox güclü bir xəbərləşmə (kəşfiyyat) şəbəkəsi ilə dəstəklənir.

* Ayədə Hz.Süleyman təkcə bir ordusunun deyil, ordularının olmasından bəhs edilir. Ordu kəlməsinin cəm halda işlənməsi onun ordusunun gücünün və sayca üstünlüyünün də bir ifadəsidir.

* Hz.Süleymanın ordusunun ən diqqətçəkici tərəfindən biri də onun nizam-intizamıdır. Cinlər, quşlar və insanlar kimi üç müxtəlif qrup eyni ordu tərkibində böyük bir harmoniya ilə vəzifələndirilir, ordudakı intizamda heç bir maneəyə rast gəlinmir.

* Ordusunun cin və şeytanlar tərəfindən dəstəklənməsi Hz.Süleymanın bir çox aspektdən üstünlüyünü təmin edir. Bu varlıqlar insanların bacarmadığı bir çox şeyləri asanlıqla edirlər. "...O və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər..." ("Əraf" surəsi, 27) ayəsində də bildirildiyi kimi, onlar özlərini göstərmədən insanları görə bilirlər. Bu xüsusiyyət cinlərə xəbərləşmə və kəşfiyyat məsələsində çox böyük üstünlük verir.

***"Biz küləyi ona ram etdik. Külək onun əmri ilə istödiyi yerə rahatca gedirdi. Biz şeytanlardan olan hər bir bənnanı və qəvvası, eləcə də başqalarını zəncirlənmiş halda onun ixtiyarına verdik" ("Sad" surəsi, 36-38).***

* Ayədəki "zəncirlənmiş halda" ("Sad" surəsi, 36-38) ifadəsi Hz.Süleymanın onun xidmətinə verilmiş cin və şeytanlar üzərində çox böyük bir hakimiyyətinin olduğuna işarə edir.

* Bu məlumatlar Hz.Süleymanın hakimiyyətinin sadəcə dindar və təslim olmuş cinləri deyil, inkarçıları da əhatə etdiyini aşkara çıxarır. Hz.Süleymanın şeytanları, şeytanın təsiri altındakı insanları və dinsiz olanları zərərsiz hala gətirməsi də bu ayədən anlaşılır. Hətta onları İslama faydalı olacaq hala gətirmiş, onlara müxtəlif vəzifələr vermişdir.

* Allah bu ayədə İslam əxlaqının hökm sürdüyü bir şəraitdə şeytan təbiətli, pis niyyətli insanların cəmiyyətə zərər verməsinin qarşısının alınmasının vacibliyinə işarə edə bilər. Belə insanları Allah yolunda bir işlə təmin etmək isə həm bu kimi zərərlərin qarşısını alacaq, həm də İslam adına bir faydalı işin meydana çıxmasına səbəb olacaq.

* Bu ayə ilə insanlara zülm və pislik edən, yer üzündə fitnə-fəsad törədən şeytan xarakterli insanların çox ciddi bir nəzarət altında idarə olunmasının zəruriliyinə işarə oluna bilər. Bu şəxslərin xalqa qarışaraq insanlara zərər verməsinin qarşısı alınmalıdır.

* Allah bu ayədə axırzamanda günahkarların cəzalandırılması zamanı tətbiq ediləcək üsullara diqqət çəkmiş ola bilər. O dövrdə günahkarların cəmiyyətə zərər verməsi əngəllənəcək, ancaq bu şəxslər müxtəlif sahələrdə işlədilərək insanlara faydalı hala gətiriləcək ola bilərlər.

* Ayədə bildirilən "zəncir" ("Sad" surəsi, 36-38) ifadəsi ilə Allah axırzamanda istifadə edilən elektrikli zəncirə oxşar bir təhlükəsizlik sisteminə diqqət çəkmiş ola bilər. Sözügedən insanların qaçması, onların həm özlərinə, həm də ətrafındakılara zərər verməsi bu şəkildə əngəllənəcək.


"İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!"
("Ənam" surəsi, 82).



"Mən, həqiqətən,
batildən haqqa
tapınaraq üzümü
göyləri və yeri
yaradana çevirdim.
Mən şərik
qoşanlardan
deyiləm!"
("Ənam" surəsi, 79).

*"Sonra quşları yoxlayıb dedi: "Hüdhüdü niyə görmürəm? Yoxsa o bura da yoxdur? And olsun ki, ona şiddətli bir əzab verər, ya da tutub boğazını üzərəm. Yaxud da o aşkar bir dəlil gətirsin!""*
*("Nəml" surəsi, 20-21).*

Bu ayələrdən də məlumdur ki, Hz.Süleyman ordusunu bir qayda olaraq nizamlayı və yoxlayır, xoşagəlməzlik olanda bunu tez bir zamanda duyur və lazım olan tədbirləri görürdü. Nizam-intizamı pozacaq hərəkətlərin edilməsinə qətiyyən izn vermirdi. İcazəsiz və xəbərsiz şəkildə bir yerə getməyin çox mühüm bir xəta olması Hz.Süleymanın yuxarıdakı sözlərindən anlaşılır.

***"Durma, onların yanına qayıt! And olsun ki, gücləri çatmayacaq bir ordu ilə üstlərinə gedib onları öz yurdundan zəlil və xar vəziyyətdə çıxardarıq!"***
***("Nəml" surəsi, 37).***

Hz.Süleyman Səba məlikəsindən hədiyyələr gətirən ulaqlara yuxarıdakı şəkildə səslənir. Bu sözlərdən göründüyü kimi, o, heç bir şəkildə hədiyyə qəbul etməyəcəyini bildirmiş, beləliklə də Səba məlikəsinin ona təslim olması fikrində necə qəti olduğunu da göstərmişdir.

Beləliklə, bu ayədən Hz.Süleymanın ordusunun o dövrdə heç bir ölkənin ordusu ilə müqayisə edilməyəcək qədər güclü olduğu görünür. Həmçinin qarşıdakı səhifələrdə görəcəyimiz kimi, Səba başçıları bu xəbəri aldıqda təslim olmaqdan başqa bir çarələrinin olmadığını anlamışdılar. Bu da onların Hz.Süleymanın ordusunun məğlubedilməzliyini bilməsinin bir göstəricisidir.

## Elektrik zənciri

**Bu gün Amerika başda olmaqla bir çox ölkələrdə cinayətkarları cəzalandırmaq üçün elektrik zəncirindən istifadə edirlər. Bəziləri canilər ayaqlarına bağlanan bu zəncirlə ev dustağı edilirlər. Bu zəncir həbsxana əvəzinə evində və olduğu yerin ətrafındakı dar bir sahə içində həbsə alınan günahkar və müttəhimlərə taxılır. Elektrik zənciri taxılan adamın hərəkətlərinin 24 saat izlənməsinə şərait yaranır. Üzərində zəncir olan adam əhatə dairəsi 80 km-i keçməyən bir hərəkət səviyyəsinə malikdir, ancaq bu sahədən çıxmağa cəhd edərsə, təhlükəsizlik xidməti və polislər tərəfindən qarşısı alınır.[13] Beləcə, günahkar şəxs həm gündəlik həyatını müəyyən bir çərçivədə davam etdirir, həm də cinayət etməyəcəyini bilir.**







# Hz.Süleymanın yüksək əxlaqı



Kitabın bura qədər olan bölmələrində Allahın Hz.Süleymana verdiyi müxtəlif elmlərdən, möhtəşəm səltənətindən və güclü ordusundan bəhs etdik. Hz.Süleymanın Quranda göstərilən ən önəmli xüsusiyyətlərindən biri isə heç şübhəsiz ki, sahib olduğu yüksək əxlaqıdır. O, həyatı boyu insanları Allahın razı olacağı din əxlaqını yaşamağa dəvət etmiş, eyni zamanda özü də dərin imanı və gözəl əxlaqı ilə bütün insanlara nümunə olmuşdu.



# *Hər işində Allaha üz tuturdu*

***"...Nə gözəl bəndə! O daim Allaha sığınan bir kimsə idi" ("Sad" surəsi, 30).***

Hz.Süleymanın həyatı ilə bağlı olan Quran ayələrində ən çox diqqətçəkən mövzulardan biri onun gördüyü bütün işlərdə həmişə Allaha üz tutması, Ona dua etməsi və hər istədiyini Allaha açmasıdır.

Hz.Süleyman bütpərəstliyin geniş yayıldığı bir dövrdə yaşamış, ancaq heç vaxt heç bir şeyi Allaha şərik qoşmamışdı. Sadəcə Allahın rizasını gözləmiş və Allahın dininin hakim olması üçün heç bir insanın və varlığın əmrini gözləmədən sədaqətlə yaşamışdır. Bütlərə inanan Səba ölkəsini imana dəvət edərkən də onları Allaha təslim olmağa dəvət etmiş, Günəşə səcdə etməkdən imtina etmələrini istəmişdi.





*"And olsun ki, Biz Süleymanı imtahana çəkdik. Taxtının üstünə bir cəsəd atdıq. Sonra o qayıtdı: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk ver ki, məndən sonra heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan sahibisən!"*
*("Sad" surəsi, 34-35).*

Hz.Süleyman hər hansı bir çətinliklə, əzabla, ya da bir nemətlə qarşılaşdıqda dərhal Allaha üz tuturdu. Hər sözündə Allahı anır, hər qərarını Allahın adını anaraq verirdi. Allah Hz.Süleymanı müxtəlif yollarla sınağa çəkmiş, o da buna həmişə çox gözəl bir əxlaqla cavab vermişdi. Məsələn, yuxarıdakı ayədə də göstərildiyi kimi, Hz.Süleymanın sınandığı vaxt ilk düşündüyü şey Allaha dua etmək, Onun bağışlayan olmasına və rəhmətinə sığınmaq olmuşdu.



*"...Bu, Rəbbimin lütfündəndir. Məni imtahana çəkməyi üçündür ki, görək şükr edəcəyəm, yoxsa nankor olacağam! Kim şükr etsə, yalnız özü üçün şükr edər; kim nankor olsa, həqiqətən, Rəbbim möhtac deyildir, kərəm sahibidir!" ("Nəml" surəsi, 40).*

Hz.Süleyman sadəcə çətin vaxtlarında deyil, hər hansı bir zəfər və uğur əldə etdikdə də eyni əxlaq göstərmiş, daim təvazökar və Allaha möhtac bir bəndə olduğunu anlamışdır. Əldə etdiyi bütün uğurların Allah tərəfindən bir sınaq olduğunun fərqinə varmışdı. Yuxarıdakı ayədə də bildirildiyi kimi, uğurları qarşısında çox təvazökar bir davranış göstərmişdi. Bu sədaqətli qarşılıq onun hər növ uğurunun da hər növ çətinlik kimi Allah tərəfindən sınaq olduğunu bilməsinin bir nəticəsidir.

**"...Allah rəhməti ilə genişdir. O, hər şeyi biləndir!" Allah Öz nemətini istədiyi şəxsə aid edər. Allah böyük kərəm sahibidir!" ("Ali-İmran" surəsi, 73-74).**

"O vaxtı yadınıza gətirin ki, Allah peyğəmbərlərdən: "Sizə verdiyim kitab və bilikdən sonra, sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz", - deyə əhd almış və onlara: "Bunu təsdiq edib, ağır olan əhdimi qəbul etdinizmi? - demişdi. Onlar da: "Təsdiq etdik!" - deyə cavab vermişdilər. Allah: "Elə isə şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm", - deyə buyurmuşdu!"

("Ali-İmran" surəsi, 81).

## *Həmişə Allaha şükr edən bir bəndə idi*

***"Siz ey Davud ailəsi! Şükranlıqla itaət edin! Bəndələrimdən şükr edəni azdır!" ("Səba" surəsi, 13).***

Allah Hz.Davud kimi Hz.Süleymana da əvvəllər heç kimsəyə verilməmiş nemətlər bəxş etmiş, ona Allaha şükr etməsi üçün bir çox şeylər lütf etmişdi. Hz.Süleyman bu nemətlər üçün hər zaman şükr etmiş, təvazökar və sədaqətli davranmış, hər işində Allaha üz tutmuşdu. Çünki daha öncə də qeyd etdiyimiz kimi, o, bütün nemətlərin və üstün cəhətlərin Allah dərgahından gələn bir sınaq olduğunu, bu nemətlərə verəcəyi cavabla hesab günündə qarşılaşacağını bilən və bütün bunlara görə davranan bir bəndədir.

***"Ey Rəbbim! Mənə və ata-anama ehsan buyurduğun nemətə şükr etmək, Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham ver! Və məni Öz mərhəmətinlə saleh bəndələrinin zümrəsinə daxil et!" ("Nəml" surəsi, 19).***


"İman gətirib yaxşı
işlər görənlərin
mənzili isə Firdovs
cənnətləri olacaqdır!"
("Kəhf" surəsi, 107).

Hz.Süleymanın qarışqaların öz aralarındakı danışığını eşitdikdən sonra tez Allaha üz tutması və dua etməsi ayədə bildirilmişdir. O, özünə verilən nemətlər qarşısında həmişə bunların həqiqi sahibinin Rəbbimiz olduğunu bilmiş, bütün davranış və sözləri ilə hədəfinin Allahın rizasını qazanmaq olduğunu göstərmişdir.

Allah onun bu səmimi və sədaqətli əxlaqının qarşılığını çox gözəl şəkildə vermiş və onu **"Həqiqətən, o, dərgahımıza yaxın olacaq və onun qayıdıb gələcəyi yer də gözəl olacaqdır"** ("Sad" surəsi, 40) ayəsi ilə müjdələmişdi. Bir digər ayədə isə onu və atası Hz.Davudu **"mömin bəndələrinin çoxundan üstün tutduğunu"** ("Nəml" surəsi, 15) bildirmişdi.

Həmçinin Hz.Süleyman dişi qarışqaların qarışqa dəstəsinə olan qayğısını gördükdə dərhal ata-anasını xatırlamışdı. Bu, insana ana və ata vasitəsilə gələn nemətlərə (uşaqlığından ona baxılması, böyüməsi, tərbiyəsi kimi) qarşılıq olaraq bunların əsl sahibi olan Allaha şükr etməsinin vacibliyini göstərən mühüm bir dərsdir.

## *Hz.Süleymanın heyvanlara olan sevgisi*

***"Axşamüstü ona cins, çapar atlar göstərildiyi zaman o dedi: "Mən gözəlliyi (bu atları) Rəbbimin zikrindən dolayı sevirəm. Nəhayət, qeyb olub gizləndi" ("Sad" surəsi, 31-32).***

Ayələrdən də göründüyü kimi, Hz.Süleyman duruşlarındakı və qaçışlarındakı gözəllik və ustalıqları ilə seyrçilərə böyük zövq verən bu heyvanları sevmək üçün xüsusi bir vaxt ayırmaqdadır. Və bu əsnada Allahı anaraq Onun böyüklüyünə inanmaqdadır. Bu, nümunəvi bir möminin davranışıdır: imanlı bir şəxs gördüyü gözəlliklər və bu gözəlliklərin ruhuna təsiri qarşısında Allahı zikr edər. Bu, möminlərin Allaha olan sonsuz sevgilərinin nəticəsində yaranan bir təsirlənmədir.

Din əxlaqının gözəlliklərindən uzaq olan insanların çoxu özünə qapalı, ətrafındakı hadisələrə və varlıqlara qarşı diqqətsiz, xoşagəlməz xarakterli olurlar. Ancaq Hz.Süleymanın davranışından göründüyü kimi, müsəlman ətrafındakı gözəlliklərə qarşı son dərəcə diqqətli, gözəllik, estetika və sənətdən zövq alan incə düşüncəli bir insandır. O, Allahın verdiyi nemətlərin fərqindədir və bunlardan zövq alıb şükür etməyi bilir. Allah "**De: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz ruziləri kim haram buyurmuşdur?" De: "Bunlar dünyada iman gətirənlər üçündür, qiyamət günündə isə yalnız möminlərə məxsusdur..."** ("Əraf" surəsi, 32) ayəsi ilə dünyadakı nemətlərin əslində müsəlmanlar üçün yaradıldığını xəbər verir.




"Sizin minməyinizdən
ötrü, həm də zinət üçün
atı, qatırı və uzunqulağı
O yaratdı..."
("Nəhl" surəsi, 8).

*"Onları mənə qaytarın!" Sonra onların qıçlarını və boyunlarını sığallamaca başladı" ("Sad" surəsi, 33).*

Hz.Süleyman içində keçirdiyi sevgini həm sözlə ifadə etməkdə, həm də əməli şəkildə göstərir. Burada Hz.Süleymanın sevgisini ifadə etmə gücünü açıq şəkildə görürük. Ümumiyyətlə, insanlar içlərindəki sevgi-məhəbbət hisslərini hər zaman doğru və gözəl şəkildə ifadə edə bilməzlər. Hətta çox vaxt bundan çəkinirlər. İnsanın bir varlığa qarşı duyduğu məhəbbəti olduğu kimi göstərə bilməsi Allahın verdiyi xüsusi bir qabiliyyətdir. Allah ayələrində bu qabiliyyəti salih qullarından olan Hz.Yəhyaya verdiyini belə bildirir:



"(Yəhya dünyaya gəldikdən sonra ona dedik:) "Ey Yəhya! Kitabdan bərk yapış!. Biz uşaq ikən ona hikmət verdik. Biz həm də ona Öz dərgahımızdan bir mərhəmət və paklıq bəxş etdik. O, müttəqi idi" ("Məryəm" surəsi, 12-13).



* Quranda Hz.Süleymanın atlarla birlikdə başqa heyvanlara da eyni sevgini göstərməsinə dair nümunələr verilir. Bu heyvanlardan biri qarışqalardır. Hz.Süleymanın qoşunu ilə birgə gəldiyini görən bir dişi qarışqa qarışqa dəstəsinə yuvalarına girmələrini, əks təqdirdə Hz.Süleymanın və qoşununun "özləri də bilmədən" onlara zərər verə biləcəyini söyləmişdi. Dişi qarışqanın danışığında "özləri də bilmədən" ifadəsindən istifadə etməsi Süleyman peyğəmbərin hətta müharibə vəziyyətində belə qarışqalara zərər verməyəcək qədər yüksək mərhəmətinə diqqəti yönəldir.

* Hz.Süleymanın həyatına dair nümunələrin qeyd edildiyi bu ayədə müsəlmanlar üçün heyvan sevgisinin önəminə də işarə edilir. Çünki iman edən bir insan Allahın yaratdığı canlılardakı dərin hikmətləri, yaradılış gözəlliklərini daha yaxşı qavrayıb dərk edə bilir. Həmçinin heyvanlardakı ibrətlərin müfəssəl şəkildə izah edildiyi "Nəhl" surəsində **"Onlarda (heyvanlarda) sizin üçün bir gözəllik var"** ("Nəhl" surəsi, 6) buyrularaq bu həqiqətə diqqət çəkilir. Hz.Süleymanda gördüyümüz heyvana olan sevgisi də Allahın bu qüsursuz yaradıcılıq qüdrətinə duyulan heyranlığın ifadələrindən biridir.

* Quranda heyvanların insanlara faydalı olan tərəflərindən biri kimi təhlükəsizliyi qorumaq olduğu xəbəri verilir. Məsələn, itlərdən sahiblərinin təhlükəsizliyini təmin etmək məqsədilə istifadə edilməsinə dair işarələr var. "Kəhf" surəsinin 18-ci ayəsində Əshabi-Kəhfin itlərindən bəhs edilir. Daha bir neçə ayədə də heyvan sevgisi və heyvanlardakı yaradılış dəlillərinin incələnməsi təşviq edilir.

# *Hz.Süleymanın Allah rizası üçün mala sevgi duyması*

***"...Mən gözəlliyi (malı) Rəbbimin zikrindən dolayı sevirəm..." ("Sad" surəsi, 32).***

Ayədən də göründüyü kimi, Hz.Süleyman sahib olduğu qiymətli malları düşünüb Allahı vəsf yolu ilə ucaltmış, mal-dövlətə olan sevgisinin qaynağının Allahı zikr etmək olduğunu vurğulamışdı. Buradakı mənanı dərindən düşünmək lazımdır. Quranın digər ayələrində mal-dövlət sevgisinin insanları yolundan sapdıra biləcəyindən xəbər verilir. Məsələn, "Adiyat" surəsində belə buyurulur: **"İnsan öz Rəbbinə qarşı çox nankordur. Və o özü də buna şahiddir. Həqiqətən, insan var-dövlətə çox hərisdir!"** ("Adiyat" surəsi, 6-8). Mal-mülk sevgisi insanların çoxunun qəlbini kobudlaşdırır və onları dindən uzaqlaşdırır, çünki əllərindəki mal-dövləti özlərinin bir qazancı zənn edir, buna görə də təkəbbür və "müstağniyət" (Allaha möhtac olduğunu unutma) duyur və daha çox mal-dövlət əldə etmək hərisliyinə qapılırlar. Allaha qulluq etmək üçün yaşamaq əvəzinə mal-dövlət yığmaq üçün yaşayırlar.


"Rəhmanın Öz bəndələrinə
vəd etdiyi və onların
görmədiyi Ədn
cənnətlərinə. Onun vədi
mütləq yerinə yetəcəkdir"
("Məryəm" surəsi, 61).

Bu səbəbdən hər bir müsəlmanın mal-mülk hərisliyindən uzaq durması lazımdır.

Ancaq Hz.Süleyman qissəsi bizə müsəlmanın mal-mülkə qafil insanlardan daha fərqli baxacağını və bu şüuru əldə etdikdən sonra mal-mülkə sahib olmağın ona Allahı anması üçün bir vəsilə olacağını göstərir. Nəzərdə tutulan şüur bütün mal-mülkün Allaha aid olduğunu, Onun göndərdiyini və yenə Onun istəyi ilə gedəcəyini bilir. Bunu bilən müsəlman ona mal-mülk veriləndə bundan lovğalanmaz və ya təkəbbürlənməz. "Mallar əlimdən gedəcək" qorxusuna da düşməz. Allahın verdiyi bütün imkanlara şükr edər və bu imkanlardan Allah rizası üçün Onun yolunda istifadə edər. Allah insana böyük bir mülk, dövlət və iqtidar nəsib edəndə də bunların hamısını bir nemət və imtahan vəsiləsi kimi görər, Allaha olan sevgi, hörmət və qorxusu daha da artar.

Bu səbəbdəndir ki, Allaha könüldən bağlı olan salih möminlər onlara mal-mülklə iqtidar əmanət edilməsi üçün ən əziz insanlardır. Bunlardan birisi olan Hz.Süleyman kimsəyə nəsib olmayan bir iqtidarı əlində tutmasına baxmayaraq içində hər zaman sonsuz Allah sevgisi olmuş və bütün imkanları ilə Onun dininə xidmət etmişdi.

Bu ayədən mal-dövlət sevgisinin o, əgər Allah rizası üçün olarsa, məqbul olduğu anlaşılır. Əldə olunan zənginliklər Allahın rizasını qazanacaq işlərdə, Allahın sonsuz qüdrətini zikr etməkdə istifadə edilərsə, Allahın bunlardan razı qalması umulur.

*"Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk ver ki, məndən sonra heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan sahibisən!"*
*("Sad" surəsi, 35).*

*Hz.Süleyman mal-dövləti Allah rizası üçün sevir və onun yolunda xərcləməsi üçün Allahdan özünə böyük bir mülk nəsib etməsini istəyir. Bu ayələrlə müsəlmanların da Allah yolunda xərcləmək üçün həyatda bənzəri olmayan bir zənginlik və mülk istəyəcəklərinə işarə edilir.

* Ayələrdən də göründüyü kimi, müsəlmanlar zənginliyə, möhtəşəm mülklərə, heyranlıq oyadan sənət əsərlərinə sahib ola bilərlər. Məlumdur ki, müsəlman dövlətlər tarix boyu gözqamaşdırıcı sənət əsərləri ortaya qoymuş, zənginlikləri və gücləri ilə bütün dünyaya səs salmışlar. Əsrlər boyu İslamın bayraqdarı olan Osmanlı İmperatorluğu buna ən açıq nümunədir. Bu böyük imperatorluqdan miras qalan əsərlər hələ də üç qitənin dörd bir yanını bəzəməkdədir.




***Mahmud Cəlaləddin. Cəli sülüs xətti, "Allahım, məni ən gözəl şəkildə ruziləndir, əxlaq və insaniyyət tərəfindən bəyənilən, günahkar olmayan yaxşı əməllər nəsib et" yazılır.***

* İman edənlərin sahib olduğu bu zənginliyin hikmətlərindən biri də insanların ürəklərinin İslama bağlanmasında əsərlərin böyük bir rol oynamasıdır. Onların sahib olduğu gözəl mülklər din əxlaqından uzaq olan və maddi dəyərlərə çox önəm verən insanlara ilk anda psixoloji təsir etmiş və onlarda dinə maraq yaratmışdı. Qarşıdakı fəsillərdə də görəcəyimiz kimi, bu, Hz.Süleymanın da Səba məlikəsinin İslamı qəbul etməsi üçün yararlandığı üsullardan biridir.

## *Hz.Süleymana verilən xüsusi bir elmə işarə*

***"Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi Öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!" Süleyman Davuda vərəsə oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!"" ("Nəml" surəsi, 15-16).***

Bu ayələrdə Hz.Davuda və Hz.Süleymana verilən xüsusi bir elmdən xəbər verilir. Ayənin davamı olaraq bu elmin "açıq-aşkar bir üstünlük" olduğunun bildirilməsi isə heç kimin bilmədiyi üstün bir elmə vaqif olduqlarına bir işarə ola bilər.

***"And olsun ki, Biz Süleymanı imtahana çəkdik. Taxtının üstünə bir cəsəd atdıq. Sonra o əvvəlki vəziyyəitinə qayıtdı" ("Sad" surəsi, 34).***


"Sonra da Allahın neməti və lütfü
sayəsində özlərinə heç bir əziyyət
toxunmadan geri döndülər və
Allahın razılığını qazanmış oldular.
Həqiqətən, Allah böyük
mərhəmət sahibidir"
("Ali-İmran" surəsi, 174).



"Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərin fövqündə etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!" ("Tövbə" surəsi, 33).

* Hz.Süleymanın taxtının üstünə qoyulan bir cəsədlə imtahan edilməsi yuxarıda sözügedən elmlə bağlı bir möcüzə ola bilər. Allah Hz.Süleymanı metafizik bir şəkildə, bütün canlıların yaşadığı maddə ölçüsündən çıxarıb ruh aləminə salmış ola bilər. Bu aləmdə maddə ortadan qalxmış, Hz.Süleyman taxtın da, taxtın üstündəki cəsədin də maddi varlıqlar olmayıb bir xəyaldan ibarət olduğunu anlamış ola bilər. Ruh aləmindən çıxıb yenidən maddə şəklinə keçdikdə isə bədəni ilə qovuşmuş əvvəlki halına dönmüş ola bilər.

* Hz.Süleyman bu səfəri əsnasında bədəninin xaricinə çıxmış və dolayısı ilə öz bədənini bir cəsəd olaraq görmüş, bunun nəticəsində də dünya həyatının dəyərsizliyini və insanın nə qədər aciz olduğunu fərq etmiş ola bilər. Dünyanın bir neçə onillik içində sonunun gələcəyini, insanın həyatda dəyər verdiyi pul, mal-mülk, zənginlik və bütün gözəlliklərin bir xəyaldan ibarət olduğunu dərk etmiş ola bilər.

* Dünya həyatının dəyərsizliyini anlayan Hz.Süleyman mülkü Allah yolunda və İslamın mənfəəti uğrunda xərcləməyin önəmini qavramış ola bilər. Həmçinin bu səfərdən dərhal sonra Hz.Süleyman Allaha özünə böyük bir mülk istəməsi üçün dua edir.



# *Harut və Marut*

***"Onlar Süleymanın səltənətinə dair şeytanların oxuduqlarına uydular. Süleyman kafir olmadı, lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədək kafir oldular..." ("Bəqərə" surəsi, 102).***

Ayədəki ifadədən Hz.Süleyman dövründə bəzi insanların Allahın haram buyurduğu əməllərdən olan sehrə rəğbət bəslədiyi anlaşılır. Onlar sehri şeytanlardan öyrənmişlər. Babildəki Harut və Marut adlı mələklərə öyrədilənlərdən də - yenə şeytanlardan öyrənərək - pis məqsədləri üçün istifadə etmişlər.



***Piter Brügel, Babil qülləsi, XVI əsr***

* Ayədən də anlaşıldığı kimi, Hz.Süleymana qarşı çıxan şeytan öz təsiri altına saldığı insanlar vasitəsilə xalqı Hz.Süleymanın sahib olduğu böyük mülk və zənginliklə bağlı qızışdırıb qıcıqlandırmış ola bilər. Bunun nəticəsində də insanlar Hz.Süleymana və sahib olduğu güclü dövlətə qarşı birləşmiş və müxtəlif təşkilatlar qurmuş ola bilərlər. Şeytanın sövq etməsi ilə qurulan bu təşkilatlar Hz.Süleyman dövlətini müxtəlif şəkillərdə yıxmağa çalışmış,

bunun üçün də hər növ üsullardan yararlanmış ola bilərlər (Ən doğrusunu Allah bilir). Tarixi qeydlər həm də Hz.Süleymanın idarə etdiyi Müsəlman İsrail Krallığının onun vəfatından sonra daxili çaxnaşmalar səbəbilə ikiyə bölündüyünü bildirir.

***"...Halbuki o ikisi: "Biz imtahanıq, sən gəl kafir olma!" -dеməmiş hеç kəsə öyrətmirdilər. Yеnə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan hеç kəsə zərər vеrə bilməzlər. Onlar ancaq özlərinə faydası olmayan, zərər vеrən şеyləri öyrənirdilər. Həqiqətən, onlar bеlə şеyləri satın alanların axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şеyə satdıqlarını biləydilər!"***

***("Bəqərə" surəsi, 102).***

Şeytanlar insanları yoldan çıxarmaq üçün onlara Harut və Marutdan öyrəndikləri şeyləri öyrətmişdilər. Halbuki Harut və Marut sahib olduqları biliyi öyrətmək istəyənlərə əvvəlcə özlərinin Allahdan bir imtahan olduqlarını söyləyir və inkar yoluna düşməmələri üçün onları xəbərdar edirdi. Yalnız ondan sonra bu bilgi-

ni öyrədirdilər. Bu səbəblə də insanların sehrin bir fitnə olduğunu bilməsi və bundan mümkün olduğu qədər qaçması vacibdir.

* Sehr üsullarına müraciət edən hər kəs bunu bilməlidir ki, Allahın icazəsi olmadan insanların öyrəndiyi və tətbiq etdiyi tilsimlərin bir nəticə verməsi qətiyyən mümkün deyil. Çünki tilsimin bir təsirini bir hikmət olaraq Yaradan da Allahdır. Onun izni olmadan heç bir insanın zənginlik, güc və ya başqa bir imkanı sehr, cadu, tilsim üsulu ilə əldə etməsi mümkün deyil.

* Allah tilsimin təsirinə və bu kimi üsullarla mənfəət əldə edə biləcəklərinə inanan insanlara bu şeytani üsulları bir bəla kimi göndərə bilir. Onlar haqqın yolunda olmadıqları üçün Allah onlara buna görə bir əvəz verir, sehr bu insanlar üçün həyatda bir əzab halına gəlir. Bu, Allahın hidayət yolundan çıxan insanlara dünya həyatında verdiyi bir cəzadır.

* Ayələrdən də anlaşıldığı kimi, iman gətirən bir insan sehrlə və şeytanların söylədikləri ilə heç vaxt maraqlanmaz. İnsanla-



***Babilin asma bağlarından Zikkurat mənzərəsi.***

rın arasını vurmaq üçün belə şeytani qızışdırıcılıqla məşğul olmaq, haqq yoldan uzaqlaşıb bütün inanclarla vaxt keçirmək şeytanın oyununa gəlməkdir. Çünki şeytanın məqsədi insanları doğru yoldan çəkindirməkdir. Belə işlərlə məşğul olanlar isə şeytana uymuş insanlardır.

Belə batil inanclara Quranda heç bir şəkildə yer yoxdur. Allah "Fələq" surəsində belə buyurur:

"De: Pənah aparıram sübhün Rəbbinə! Yaratdıqlarının şərindən; Zülmətə bürünməkdə olan gecənin şərindən; Düyünlərə üfürən qadınların şərindən..." ("Fələq" surəsi, 1-4).

Harut və Marutdan bəhs edilən ayələrdə də eyni mövzu anladılır. Nə sehrin, nə də "Fələq" surəsindəki ayədə bildirildiyi kimi, "düyünlərə üfürən qadınların" heç bir gücü və təsiri yoxdur.

*Xuan de Valdes Leal, "Bir göz qırpımında", Caridad xəstəxanası, 1670-1672, Sevilya.*



Kainatdakı yeganə güc və hökm sahibi aləmlərin Rəbbi olan Allahdır. Mömin insan sadəcə olaraq Allaha güvənib söykənər, yalnız Ondan mədəd və yardım istəyər, hər növ ehtiyac və üzüntüsünü Allaha açar, Allahı dost və vəkil bilər.

* Bu ayələrdə axır zamanla bağlı işarələr də ola bilər. Allah sehrdən bəhs edərək axırzamanda sehrin çoxalacağına, fala baxıb gələcəyi oxumanın geniş yayılacağına işarə edə bilər. Allahın haram buyurduğu bu fitnələr axırzamanda adətən bir dolanışıq mənbəyinə çevriləcək, cadugərlər və falçılar insanları istismar edəcəklər. Axırzamanın bu böyük fitnəsi Peyğəmbərimizin (s.ə.v.) hədislərində də xəbər verilmişdir. Bunlardan biri bu şəkildədir:

"Axırzamanda ümmətim haqqında ən çox narahat olduğum ulduzlara inanmaqları, qədəri yalanlamalarıdır..." (Ramuz əl-Əhadis, 11540).




*Xuan de Valdes Leal, "Möhtəşəm dünyanın sonu", Caridad xəstəxanası, 1670-1672, Sevilya.*

# Hz.Süleyman
# və
# Səba məlikəsi

Hz.Süleymanla bağlı Quran ayələrinin böyük bir qismi Hz.Süleymanla Səba məlikəsi arasında baş verən hadisələrlə bağlıdır. Bu ayələrdə sözügedən iki ölkənin siyasi və iqtisadi əlaqələri haqqında mühüm məlumatlar verilmişdir. Bununla yanaşı Hz.Süleymanın digər dövlətlərlə münasibəti, idarəçilik gücü və Allahın dinini anladarkən yararlandığı üsullardan da nümunələr qeyd edilmişdir.

***"Bir azdan (Hüdhüd) gəlib dedi: "Sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm" ("Nəml" surəsi, 22).***



***Piero della Françesko, "Səba məlikəsinin Hz.Süleyman tərəfindən qəbulu", XV əsr.***

İki ölkə arasındakı əlaqələr Hz.Süleymanın ordusundakı Hüdhüdün Səba ölkəsi və bu ölkənin məlikəsi haqqında məlumat verməsi ilə başlayır. Hz.Süleyman ordusunu yoxladığı zaman Hüdhüdü görmür. Hüdhüd geri qayıdanda Hz.Süleymana Səba ölkəsi haqqında çox mühüm məlumatlar verir.



*Frans II Fransken, Hz.Süleyman və Kraliça Səba mövzusunda rəsm, 1606-1617.*
*Gözəl Sənətlər Muzeyi, Quimper.*



"(Bəlqis) dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. Mən artıq Süleymanla birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum!"" ("Nəml" surəsi, 44).

***"Mən onlara padşahlıq edən bir qadın gördüm. Ona hər şey verilmişdir. Onun çox böyük bir taxtı vardır" ("Nəml" surəsi, 23).***

Ayədə ilk olaraq bu məlumatın vurğulanması o dövrdə bir qadın rəhbərin varlığının çox vərdiş edilmiş bir hal olmadığını göstərə bilər. Hüdhüd Səba məlikəsinin zənginliyindən və ona müxtəlif növ nemətlərin bağışlandığından bəhs etməkdədir. Bu zənginlikdən danışarkən də xüsusilə Səba məlikəsinin taxt-tacının böyüklüyünü vurğulayır. Taxtın böyüklüyü Səba məlikəsinin iqtidarını və dövlətinin gücünü göstərmiş ola bilər (Ən doğrusunu Allah bilir).

***"Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan əməllərini onlara gözəl göstərmiş, onları yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər" ("Nəml" surəsi, 24).***

Hüdhüd Səba ölkəsi xalqının şeytana uyub Günəşə tapındığını, Allaha şərik qoşduğunu və hidayət yoluna gəlmədiyini bildirmişdi. Şeytan Səba xalqını Günəşə səcdə etməyə həvəsləndirmiş, yəni bunu doğru və məntiqli bir inanc kimi tanıtmış, onlar da bunu atalarından miras olaraq özlərinə yol seçmişdi. Şeytanın ən mühüm hədəfi insanları doğru yoldan sapdırmaq və onları Allaha səcdə etməkdən çəkindirməkdir. Bu ayə insanların Allahın dinindən uzaq olmasının səbəbinin onların çox vaxt batil bir inanc, fəlsəfə və fikir sistemi tərəfindən aldadılması olduğuna da işarə ola bilər.

Ancaq aşağıdakı ayələrdə də bildirildiyi kimi, şeytanın səmimi bir qəlblə Allaha iman edən sədaqətli bəndələri üzərində heç bir təsiri yoxdur:

**"Dedi: "Ey Rəbbim! Məni azdırmağına əvəz olaraq and içirəm ki, mən də onlara pis əməllərini yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam! Yalnız Sənin sadiq bəndələrindən başqa!" ("Hicr" surəsi, 39-40).**

***"Göylərdə və yerdə pünhan olanı aşkara çıxardan, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə (şeytan) belə etmişdir. O böyük ərşin Rəbbi olan Allahdan başqa heç bir tanrı yoxdur!" ("Nəml" surəsi, 25-26).***

Bu ayələrdən Hüdhüdün bəzi xüsusiyyətləri də anlaşılır.

* Hüdhüd iman sahibi bir cin ola bilər. O, Allaha iman edən və danışıqlarında da bunu tez-tez vurğulayan bir müsəlman cin şəklindədir.

* Hüdhüd topladığı məlumatı yaymadan onu gerçəkdən də hökm və hikmət sahibi olan Hz.Süleymana gətirməli olduğunu bilir, bu davranışından onun itaətkar olduğu görünür.

* Gördüklərini qavraya, sadəcə nəql etməklə kifayətlənməyib bundan məntiq çıxara bilir. Üstəlik çox güclü bir ifadə qabiliyyətinə malikdir. Gördüklərini diqqətçəkici bir şəkildə anladır, sadəcə vacib mövzuların üzərində durub gərəksiz təfərrüatlara toxunmur, qısa və konkret danışır.

* Ayədə Hüdhüdün bir quş olduğu, ancaq məlumat toplayıb danışdığı xəbər verilir. Hz.Süleymanın ordusunu görən dişi qarışqanın da danışdığı bildirilir. Bu gün inkişaf etmiş kompüter texnologiyaları ilə filmlərdə quşların, qarışqaların və bütün heyvanların danışdırılması çox geniş yayılmış bir hadisədir. Bu da sözügedən qissənin işari mənalarından biri ola bilər.

***"(Süleyman) dedi: "Baxaq görək doğru deyirsən, yoxsa yalançısan!" ("Nəml" surəsi, 27).***

*

Hüdhüdün itdiyini görən Hz.Süleyman əgər aşkar bir dəlil gətirməzsə, onu cəzalandıracağını ifadə etmiş, amma Hüdhüd ona Səba ölkəsindən xəbər gətirəndə sözünü axıra qədər dinləmiş, ani bir qarşılıq verməmişdi. Bu davranışı Hz.Süleymanın çox ağıllı, kamil və ədalətli bir rəhbər olduğunu göstərir.

* Hz.Süleyman Hüdhüdün Səba ölkəsi haqqında verdiyi xəbərləri öyrəndikdən sonra da dərhal qərar verməmişdi. Əvvəlcə bu bilgini təsdiq etmək üçün bir araşdırma aparmağa qərar vermişdi. Bu, Hz.Süleymanın tədbiri və ədalətli bir rəhbər olmasının sübutlarından biridir.

*"Mənim bu məktubumu aparıb onlara at, sonra yaxın bir yerə çəkilib dur, bax gör nə cavab verəcəkdir!" ("Nəml" surəsi, 28).*

* Hz.Süleymanın yararlandığı bu üsul, yəni qarşıdakı adamın hər hansı vəziyyətə reaksiyasını izləyərək bir nəticə çıxarmaq çox ağıllı bir metoddur. Bu üsulla xəbər gətirən adamların şəxsi izahlarındakı mümkün xətalar da əngəllənmiş olur.

* Üstəlik, izlənildiyindən xəbərsiz olan Səba məlikəsi ətrafındakılarla məşvərət apararkən ən təbii və səmimi müqavimətini ortaya qoyacaq, həqiqi düşüncələrini ifadə edəcəkdir. Bu üsul məlikənin Hz.Süleyman haqqındakı gerçək qənaətinin öyrənə biləcəyi ən qısa və ən rahat yollardan biridir.

**"Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Təkcə Allahın vəkil olması kifayət edər" ("Nisa" surəsi, 132).**


"Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin!
"Budur doğru yol!""
("Ali-İmran" surəsi, 51).
"Ey iman gətirənlər! Allahı çox zikr edin! Onu səhər axşam təqdis edib şəninə təriflər deyin!"
("Əhzab" surəsi, 41-42).

***"(Səba hökmdarı Bəlqis Süleymanın məktubunu alıb oxuyandan sonra) dedi: "Ey əyanlar! Mənə çox hörmətli bir məktub göndərildi"***
***("Nəml" surəsi, 29).***

Səba məlikəsi Hz.Süleymandan gələn məktubun son dərəcə mühüm olduğunu dərhal anlamışdır. Bunun bir neçə müxtəlif səbəbi ola bilər.

* Birincisi, Hüdhüdün bu məktubu gətirmə forması ola bilər. Hz.Süleymanın bu məktubu bir quşla göndərməsi və bu quşun malik olduğu xüsusiyyətlər vəziyyətin fövqəladiliyini ortaya qoymuş ola bilər.

* Hz.Süleymanın zənginliyini, yüksək sənət anlayışını və güclü səltənətini ifadə edən bir kağız, möhür, ya da yazı şəklində ola bilər. Bu məktub da Səba məlikəsinə təsir etmiş ola bilər.

* Səba məlikəsi məktubu əvvəl özü oxumuş, içindəkilərdən təsirlənmiş, sonra isə məşvərət üçün ətrafdakı adamların yanına gəlmiş ola bilər. Məktubun içindəkiləri bildiyi üçün "olduqca əhəmiyyətli"şəkilli bir kəlmədən istifadə etmiş ola bilər (Ən doğrusunu Allah bilir).

* Ayədə "mühüm bir məktub" şəklində keçən ifadənin ərəbcə qarşılığı "kitabun keriymun"dur. Bu ifadədə "kitabun" sözünün məktubla yanaşı yazı, kitab kimi tərcümələri də var. "Keriymun" sözünün mənası isə "əsl, seçkin, hörmətli, şərəfli, dəyərli, qiymətli"dir. Bu halda Hz.Süleyman Səbaya yalnız məktub deyil, dini təbliğ edən bir kitabı və ya yazını ön sözlə göndərmiş ola bilər. Bu da "Rəhman və Rəhim olan Allahın adı ilə" başlaya bilər.

***"O Məktub Süleymandandır və o "Rəhman aə rəhim olan Allahın adı ilə" başlanır" ("Nəml" surəsi, 30).***

* Səba məlikəsinin məktubun (və ya kitabın) Hz.Süleymandan gəldiyini dedikdən sonra başqa heç bir izahat və açıqlama verməməsi onun və ətrafındakıların Hz.Süleymanı yaxından tanıdıqlarını göstərir. Görünür, Hz.Süleymanın ölkəsi zənginliyi və qüdrəti ilə hər tərəfə səs salmış çox güclü bir ölkədir.

***"(Məzmunu belədir:) "Mənə qarşı təkəbbür göstərməyin və yanıma müsəlman olaraq gəlin!" ("Nəml" surəsi, 31).***

* Hz.Süleymanın üslubu son dərəcə açıq və təsirləndiricidir. Məktubun çox güclü və hökm sahibi olan bir insandan gəldiyi onun qısa, qərarlı və qəti üslubundan da sezilir. Səba məlikəsi və ətrafındakı idarəçilər də məktubdan olduqca təsirlənmişdilər.



* Hz.Süleyman bu məktubla onlara Allahın dinin təbliğ etməkdə, öyüd verməkdə və onları müsəlman olub Allaha iman etməyə dəvət etməkdədir. Onlardan əvvəlcə özünə tabe olmalarını deyil, Allaha iman etmələrini və müsəlman olmalarını istəyir. Bu, Hz.Süleymanın bir ölkəni fəth etməkdən çox orada yaşayan insanların iman etməsinə önəm verdiyini göstərir. Çünki onun göndərilmə məqsədi insanları hidayət yoluna dəvət etmək, xəbərdar edib qorxutmaqdır.

* Hz.Süleymanın Səba ölkəsi ilə əlaqəsindən bəhs edən ayələrdən onun qonşu ölkələrlə olan problemləri savaşdan da çox diplomatik yollarla həll etdiyi anlaşılır. Zəfərlərini hərbi güc sərf etmədən, qarşılıqlı anlaşma və sülh yolu ilə, masa arxasında əldə edir. Elçilər və məktublar göndərərək dinc yollar axtarır.

* Ayrıca bunu da qeyd etməliyik ki, sözlə aparılan təbliğatın unudulmasının ətrafdakı diqqəti yayındıran təsirlər üzündən istənilən təsiri yaratmaması ehtimalı var. İnsan danışdığı zaman ağlından keçənləri gözəl ifadə edə bilməməsi və ya dinləyənin diqqətinin dağılması da mümkündür. Halbuki yazılı surətdə tətbiq edilən təbliğdə həm yazanın, həm də oxuyanın diqqətini toplaması daha asandır. Hz.Süleymanın istifadə etdiyi təbliğ metodu da buna gözəl bir nümunədir. Bu səbəblə iman edənlər Allahın dinini və imani gerçəkləri anlatma məsələsində yazılı təbliğin mühüm rol oynadığını yaddan çıxarmamalıdır.

***"(Bəlqis) dedi: "Ey əyanlar! Bu iş barəsində mənə rəyinizi bildirin. Mən sizinlə məsləhətləşməmiş heç bir iş görən (hökm verən) deyiləm!" ("Nəml" surəsi, 32).***

* Səba məlikəsinin aldığı bu önəmli məktub haqqında dərhal yanındakı idarəçilərlə məsləhətləşməsi onun yaşadığı sistemin diktatorluq deyil, demokratik ruhlu bir sistem olduğunu göstərir. Məlikə təcrübəli adamların fikirlərini öyrənib onların bu təcrübəsindən faydalanır.

"Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Hökm sənindir. Nə əmr edəcəyini özün bax!" ("Nəml" surəsi, 33).

*"Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Hökm sənindir. Nə əmr edəcəyini özün bax!"*
*("Nəml" surəsi, 33).*

* Bu ayədə Səba məlikəsinin Hz.Süleymandan gələn məktubun cavabında nə edəcəyini əsgərlərdən ibarət bir məclisdə müzakirə etdiyi anlaşılır. Əsgərlərin verdiyi bu cavabdan isə sözügedən məclisin Səba məlikəsinin tam hüquqi və əmri altında hərəkət etdiyi bilinir.

***"(Bəlqis) dedi: "Hökmdarlar bir ölkəyə girdikləri zaman onu xarabazara çevirər, xalqının böyüklərini də zəlil edərlər. Onlar məhz belə hərəkət edərlər"***
***("Nəml" surəsi, 34).***

Burada Səba məlikəsinin Hz.Süleymanın ordusunun gücünü yaxşı bilməsi bir daha sezilir. Süleyman peyğəmbərin çağırışı qarşısında təslim olmaqdan başqa bir çarəsi olmadığını anlayır və bunu ifadə edir. Amma yenə də təslim olmamaq üçün bir çıxış yolu axtarır və vaxt qazanmaq üçün Hz.Süleymana bir hədiyyə göndərir.

***"Mən onlara bir hədiyyə göndərəcəyəm; görüm elçilər nə ilə qayıdacaqlar!" ("Nəml" surəsi, 35).***

* Səba məlikəsinin hədiyyə yollamaqda hədəfi Hz.Süleymanın əsl məqsədinin nə olduğunu və necə reaksiya verəcəyini öyrənməkdir. Səba məlikəsi də Hz.Süleymanın məktub yolladığı zaman yararlandığı üsulu sınayır, bir qərara gəlmək üçün əvvəlcə qarşısındakının reaksiyasını öyrənir.

* Bu ayə ilə hədiyyənin insanların fikrini bilmək və ruh halını təhlil etmək baxımından önəmli olduğuna diqqət çəkilmişdir. Bir insan ona qərarından daşınması üçün göndərilən dəyərli bir hədiyyəni qəbul etmədikdə bu, onun səmimiyyətinin və qərarlılığının bir sübutu olaraq görünə bilər.

***"(Elçibaşı Bəlqisin göndərdiyi hədiyyə ilə) Süleymanın yanına gəldikdə o dedi: "Siz mənə mal-dövlətləmi yardım edirsiniz? Allahın mənə verdiyi sizə verdiyindən daha yaxşıdır. Amma siz öz hədiyyələrinizlə sevinirsiniz"***
***("Nəml" surəsi, 36).***

* Hz.Süleyman ona göndərilən bu hədiyyənin qərarında bir dəyişiklik etməyəcəyinə, Allahın ona verdiklərinin onların hədiyyələrindən daha çox xeyirli olduğunu açıq şəkildə ifadə edir. Bu da onun yalnız Allah yoluna xidmət edən gözəl əxlaqından bir nümunədir.

* Hz.Süleyman Səba məlikəsinin göndərdiyi elçiləri onların məqsədini anladığını söyləyərək və onların istəklərini qəbul etməyəcəyini qəti şəkildə ifadə edərək geri qaytarır. Beləliklə, onların sevinib öyünməsinin və malları ilə qürurlanmasının qarşısı alınır. Bu hal malları ilə heç bir şəkildə üstünlük əldə edə bilməyəcəyini anlayan Səba qövmü üçün psixoloji baxımdan böyük bir məğlubiyyət deməkdir.



**"De: "Ey insanlar! Artıq Rəbbinizdən sizə haqq gəlmişdir. Doğru yolu tutan özünə savab, doğru yoldan azan isə özünə günah qazanar. Mən sizə zamin deyiləm!"**

**("Yunus" surəsi, 108).**

***"Durma, onların yanına qayıt! And olsun ki, gücləri çatmayacaq bir ordu ilə üstlərinə gedib onları öz yurdundan zəlil və xar vəziyyətdə çıxardarıq!" ("Nəml" surəsi, 37).***

* Hz.Süleymanın ordularının fövqəladə bir gücə sahib olmasına diqqət çəkilir. Çünki ən güclü orduya belə qarşı çıxmaq, müqavimət göstərmək mümkün ola bilər. Fəqət, ayədə qeyd edildiyi kimi, Hz.Süleymanın ordusu metafizik güclərə malik, məğlub olması qeyri-mümkün və bununla da bütün dünyada tanınmış bir ordudur.

* Burada Hz.Süleyman əvvəlcə göndərilən elçinin özünə arxayınlığını, təkəbbürlü davranışını yox etmişdir. İkinci mərhələdə isə göndərdiyi mesajla Səba məlikəsinə və ölkənin tanınmışlarına özü və ordusu qarşısında zəif olduqlarını xatırlatmışdı. Bu üsulla Hz.Süleyman dinc yolla ona tabe olmalarını niyyət etmiş ola bilər.

***"(Süleyman) dedi: "Ey əyanlar! Onlar müsəlman olaraq yanıma gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər?"" ("Nəml" Surəsi, 38).***

* Hz.Süleyman Səba ölkəsinin təslim olacağına əminliklə danışır. Bu ifadə onun qeybə aid bir biliyə sahib ola biləcəyinə işarə edə bilər. Allah Hz.Süleymana qeybə dair bir bilgi vermiş və Səba ölkəsinin təslim olacağını bildirmiş ola bilər.



* Bildiyimiz kimi, gerb, bayraq kimi ünsürlər hər ölkə üçün çox qiymətlidir və ümumiyyətlə, o ölkənin müstəqilliyinin simvoludur. Səba ölkəsinin qüruru isə əvvəldə Hüdhüdün də ifadə etdiyi kimi, Səba məlikəsinə aid olan böyük bir taxt-tacdır. Hz.Süleyman ətrafındakı aparıcı adamlardan bu taxtı ona gətirmələrini

istəməkdədir. Həm də bu işin Səba məlikəsinin və adamlarının öz saraylarına girməzdən əvvəl həll olunmasına istəməkdədir. Taxtın onlar hələ çatmamış gəlməsi Səba dövləti üçün böyük bir ruh düşkünlüyü yaradacaq və onların daha tez təslim olmasına səbəb olacaqdı.

* Bu ayədən də göründüyü kimi, Hz.Süleyman çox cəld bir manevr qabiliyyətinə malik, dərhal bir qərara gəlib bunu tez həyata keçirən bir rəhbərdir. Bu davranışı ilə xüsusilə savaş vəziyyətində qalib gəlmək üçün cəld və ani hərəkətlər etməyin önəmini vurğulamaqdadır.

## Hz.Süleyman dövründəki texnologiya



**Axır zamanda elm və texnologiya dünyası çox böyük bir sürətlə inkişaf etməyə, bu inkişafla ayaqlaşmaq isə qeyri-mümkün olmağa başlamışdır. Hər yeni texnoloji vasitə böyük bir sürətlə daha qənaətcil, istifadəyə daha yararlı, daha səmərəli hala gəlir. 50 il bundan əvvəlki telefon, televiziya və radio cihazları ilə müasirləri arasında çox böyük fərqlər var. İnternet ilk dəfə yaradılanda çox məhdud bir sahədə istifadə vasitəsi ikən sonralar bütün dünyanı bürüyən bir məlumat şəbəkəsi olmuşdur. Ancaq bu o demək deyil ki, keçmişdə texnologiyalar yox idi. Məsələn, bu gün çox inkişaf etmiş xüsusiyyətlərə malik radiolar var. Ancaq keçmişdə də daha praktik üsullarla istehsal olunan radiolar vardı. Yuxarıda rəsmi verilmiş qalen kristalından istifadə olunmaqla istehsal edilən radiolar mövcud idi.14 Dolayısı ilə Hz.Süleyman dövründə də daha münasib bir texnologiya ilə eyni işləri görən cihazlar əldə edilmiş ola bilər. Bəlkə də bu gün bilinməyən bir texnologiya ilə taxtın görüntüsü gətirilmiş, üçölçülü olaraq yenidən düzəldilmiş ola bilər. Bunları eynilə əvvəl də toxunduğumuz təyyarələr, mikroyazı alətləri və internet texnologiyası haqqında da söyləyə bilərik.**

*"Cinlərdən olan bir ifrit dedi: "Sən yerindən qalxmamış mən onu sənə gətirə-rəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!""*
*("Nəml" surəsi, 39).*



*Bu gün hər hansı bir əşyanın görüntüsünü internet vasitəsilə bir yerdən başqa bir yerə göndərmək sadəcə saniyələr çəkir.*

Taxtın gətirilməsi ilə bağlı ilk təklif ifritdən gəlir. Cinlərdən ifritin bu təklifindən göründüyü kimi, cinlərin bir əşyanı başqa yerə daşımaq kimi qabiliyyətə malik olması ehtimal edilir.

***"Kitabdan bir qədər xəbəri olan birisi dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" (Süleyman) onu (taxtı) yanında hazır durmuş görüncə dedi: "Bu, Rəbbimin lütfündəndir. Məni imtahana çəkməyi üçündür ki, görək şükr edəcəyəm, yoxsa nankor olacağam! Kim şükr etsə, yalnız özü üçün şükr edər; kim nankor olsa, (bilsin ki) həqiqətən, Rəbbim möhtac deyildir, kərəm sahibidir!""***

***("Nəml" surəsi, 40).***

Taxtın qısa zaman ərzində gətirilməsi ilə bağlı ikinci təklif isə "kitabdan bir qədər xəbəri olan biri" kimi tanınan bir şəxsdən gəlir. Ayədə sözügedən şəxs Hz.Süleymana Səba məlikəsinin tax-

tını "bir göz qırpımında", yəni çox qısa müddətdə gətirə biləcəyini söyləyir. Burada müxtəlif fərziyyələr ortaya çıxır:

* Bəhs edilən şəxs hərbi kəşfiyyat sistemində olan və uzaqgörən birisi ola bilər. Bu taxtı da qabaqcadan tədbir görüb gətirt-



miş ola bilər. Bu yolla ayədə dövlət kəşfiyyat sistemindəki əsgərlərin istənilən savaş və ya təhlükəli vəziyyətlərdə qabaqcadan hazırlıqlı olmalarına işarə edilmiş ola bilər.

* Səba məlikəsinin taxtının bir göz qırpımında gətirilməsinin, taxtın dəyişikliyə məruz qoyulmasının və quşlarla məlumat mübadiləsinin aparılmasının açıqlandığı ayələrdə axırzamanda istifadə ediləcək olan və əşya daşınılmasına imkan yaradan yüksək bir texnologiyaya işarə oluna bilər.

* Gündəlik həyatımızda yazı, rəsm, film kimi hər növ məlumatın internet texnologiyası vasitəsilə bir neçə dəqiqə, hətta saniyə içərisində çox uzun məsafələr qət etməsi mümkündür. Burada Səba məlikəsinin taxtının tez bir zamanda uzaq bir məkana göndərilməsini göstərməklə belə bir prosesin (məsələn, bir taxta aid üçölçülü təsvirin və ya rəsmin göndərilməsinin) axırzamanda internet vasitəsilə bir göz qırpımında mümkün olacağına diqqət çəkilmiş ola bilər.

* Hz.Süleyman bu səylərində cinlərin bilgisindən və sahib olduqları yüksək xüsusiyyətlərdən faydalanmış ola bilər. Onların vasitəsilə bu gün tanınmayan, ancaq gündəlik həyatımızdakı texnologiyaya yaxın, fərqli cihazlar qurmuş və ayələrdə göstərilən uğurları əldə etmiş ola bilər.

* Ayədə taxtın gətirilməsindən sonra Hz.Süleymanın Allaha üz çevirib əfv diləməsi, dua və şükr etməsi qeyd olunur. Hz.Süleyman hər uğurunun, hər çətinliyin, ya da başına gələn hər əhəmiyyətli hadisədən sonra səmimiyyətlə Allaha üz tutan sədaqətli bir peyğəmbərdir. Onun bu xüsusiyyəti bütün möminlər üçün çox gözəl bir nümunədir.

***"(Süleyman) dedi: "(Bəlqisin) taxtını tanınmaz hala salın, görək onu tanıyacaq, ya yox?!"" ("Nəml" surəsi, 41).***

* Səba ölkəsinin simvolu olan taxtın Hz.Süleymanın sarayına gətirilməsi məlikə üçün çox böyük bir psixoloji məğlubiyyətdir. Üstəlik Hz.Süleyman Səba ölkəsindən gələn taxtın tanınmaz hala salınmasını əmr etməkdədir.

* Hz.Süleymanın əmri ilə taxt daha da gözəlləşdirilib zənginləşdirilə bilər. Bu üsulla Hz.Süleymanın öz zənginliyinin daha yüksək olduğunu və hətta Səba məlikəsinin mal və mülkündən üstün bir hakimiyyətinin olduğunu ifadə etmək ehtimalı var.

* Ayədə müsəlmanların hər şeydə olduğu kimi sənətdə də daha mükəmməli axtardıqlarına işarə edilir. Səba məlikəsinin taxtı nə qədər gözəl və görkəmli olsa da bu taxtın Hz.Süleymanın üstün sənət qabiliyyəti qarşısında aciz qaldığına diqqət çəkilmiş ola bilər.

* Burada qarşımıza Hz.Süleymanın yüksək sənət qabiliyyətinin bir nümunəsi də çıxır. Süleyman peyğəmbər sənət və texnologiyanı çox gözəl şəkildə çulğaşdırmış və bunların sayəsində insanları öz ağlına və sənət gücünə heyran qoymuş ola bilər.


"Ya Peyğəmbər! Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik! Biz səni Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik! Möminlərə Allah tərəfindən böyük bir mükafat bəxş ediləcəyi ilə müjdə ver!"
("Əhzab" surəsi, 45-47).

* Taxt üçün istifadə edilən "dəyişiklik etmək" ifadəsi də diqqətçəkicidir. Belə bir dəyişikliyi kompüter proqramları ilə etmək bu gün çox asandır. Yəni bir taxtın şəklinin internet vasitəsilə başqa bir yerə göndərilməsi, sonra isə bu şəklin üzərində müxtəlif kompüter proqramları ilə dəyişikliklər edilməsi mümkündür. Bu ayədə də axırzamanda geniş istifadə ediləcək oxşar bir texnologiyaya işarə oluna bilər.

***"(Bəlqis) gəldikdə ona: "Taxtın bu cürdürmü?" - deyildi. O da: "Sanki odur!" - deyə cavab verdi. "Bizə ondan daha öncə elm verilmiş və biz müsəlman olmuşduq!" Allahdan başqasına tapınması o qadına Allaha ibadət etməyə mane olmuşdu! Çünki o, kafir bir tayfadan idi"***
***("Nəml" surəsi, 42-43).***

* Hz.Süleymanın bu sualı verməsinin bir səbəbi Səba məlikəsinin diqqətini yoxlamaq ola bilər.

* Ayədən də göründüyü kimi, məlikə zəkalı və ehtiyatlı bir insan olduğunu hiss etdirmiş, Hz.Süleymanın ona verdiyi suala təmkinli bir cavab vermişdir. Birbaşa "Bəli, mənim taxtımdır" və ya "Xeyr, mənim taxtım deyil" kimi qəti cavab verməmiş, orta bir

cavab seçmişdir.

* Səba məlikəsi Günəşə tapınıb sitayiş edən bir qövmün arasında yaşayırdı. Ancaq Hz.Süleymanın səmimi və təsirləndirici bir dillə yazdığı məktubu oxuması və sonradan Hz.Süleymanı ziyarət edərək onun yüksək hakimiyyətinə şahid olması məlikənin iman gətirib müsəlman olmasına səbəb olmuşdur.

***"Ona belə deyildi: "Saraya daxil ol!" Sarayı gördükdə onu dərin bir -gölməçə hesab etdi və ətəyini qaldırdı. O: "Bu büllurdan tikilmiş bir saraydır!" - dedi. (Bəlqis) dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. Mən artıq Süleymanla birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum!"" ("Nəml" surəsi, 44).***

Ayədə Səba məlikəsinin Hz.Süleymanın sarayına girdikdə oranın döşəməsinin dərin su ilə dolu olduğunu düşünmüşdür. Bu vəziyyətlə bağlı müxtəlif izahlar vermək mümkündür:

* Bu sarayın yeri üçün ayədə keçən "şəffaf şüşə" ifadəsi ilə o dövrdə istifadə edilmiş fərqli bir texnologiyaya işarə oluna bilər. Səba məlikəsi ayağını qoyacağı yerin quru olduğunu hiss edə bilməmişdi, bu da Hz.Süleymanın sarayının o dövrlərdəki saraylardan fərqli olması ehtimalını ağıla gətirir.

* Şəffaf şüşə kimi ifadə edilən döşəmə böyük bir televiziya ek-



"Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər - Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur! Onların sözləri səni kədərləndirməsin. Yenilməz izzət bütövlükdə yalnız Allaha məxsusdur. O, eşidəndir, biləndir!" ("Yunus" surəsi, 62-65).

ranı ola bilər. Sarayın giriş döşəməsinə nəhəng bir ekran yerləşdirilmiş ola bilər. Bu ekrana su görüntüsü verilmiş, müxtəlif işıq oyunları ilə bunu qurmuş ola bilərlər (Əvvəlki səhifələrdəki şəkillərdən də göründüyü kimi, bu gün də belə texnikalardan, daxili dekorasiyalardan tez-tez istifadə olunmaqdadır). Beləliklə, Səba məlikəsi ekranın üstündə gəzdikdə su üstündə gəzməsi hissinə qapıla bilər.

* Ayədə daha fərqli bir texnologiyaya da işarə edilə bilər. Bu günlərimizdə simulyatorlu eynəklər vasitəsilə insanın özünü olduğu yerdən daha fərqli bir məkanda hiss etməsi mümkündür. Ayədəki ifadədə axırzamanda yaranacaq olan bu texnologiyaya bir işarə ola bilər.

* Hz.Süleymanın da Səba məlikəsi gəldiyi zaman belə bir vəziyyətin yaranacağını bildiyi anlaşılır. Çünki o, sahib olduğu texnologiyanın çox üstün və qeyri-adi olmasının fərqindədir.

* Allah bu ayələri ilə axırzamanda inkişaf etmiş texnika və hazırlanacaq dekorasiya materiallarında suyun çox işlənəcəyinə diqqət çəkmiş ola bilər. Suyun estetik və təmiz görünüşündə işlədilən bu materiallar Hz.Süleyman dövrünə bənzər gözəlliklər meydana gətirə bilər.

* Bu qissədə qarşımıza çıxan Hz.Süleymanın yüksək sənət anlayışı müsəlmanlar üçün çox gözəl bir nümunədir. Bu anlayış onun Allaha olan güclü sevgisinin və Allahın yaratmış olduğu gözəlliklərə qarşı heyranlığının bir ifadə şəklidir.

* İman gətirən sənətkarlar tarix boyunca çox gözəl əsərlər yaratmışlar. Allahın köməyi ilə axırzamanda da müsəlmanların sənət gücündə böyük bir irəliləyiş olacaq. Allahın yaratdığı gözəlliklərdən ilham alan və Ona qarşı sonsuz sevgi duyan sənətkarlar bənzəri olmayan sənət əsərləri yaradacaq, rəsm, musiqi və memarlıq sahəsindəki bu gözəl irəliləyiş bütün dünyanı bürüyəcək. Allahın yardımı ilə bu inkişafın önündə gedən İslam dünyası olacaq.









*Bu gün kompüter dövründə hazırlanan üçölçülü holoqrafik təsvirlərdən hər sahədə istifadə edilir. Sənayedə, tədqiqat sahələrində, təhsildə, tibbdə, film və reklam işlərində çox istifadə edilən simulyasiya texnologiyası orijinalı ilə heç bir fərqi olmayan bir dünya yaratmağa imkan verir. Beləcə, tarixi bir yerin, muzeyin, hətta hər hansı bir planetin üzərində belə gəzmək mümkündür. Məsələn, yuxarıda sağdakı şəkildə radar görüntülərindən faydalanaraq hazırlanan üçölçülü Venus planetinin təsviri görünür. Yuxarıdakı sol şəkildə isə bir parkın üçölçülü hologram görüntüsü yaradılmışdır.*

*Aşağıda soldakı şəkillərdə üçölçülü bir atomobil qəzası testi görünür. Vasitələrin xüsusiyyətləri və sinağın nəticələri ilə bağlı məlumatlar kompüterə daxildir. Beləcə mühəndislər vasitənin sürəti, vurmanın bucağı kimi dəyişikliklərlə oynayaraq mümkün vurma vəziyyətlərini test edirlər. Aşağıdakı sağdakı şəkillərdə isə bir şəhərin iki ayrı görüntüsü verilmişdir. Bu üçölçülü təsvir sayəsində şəhərsalma mütəxəssislərinin işi olduqca yüngülləşdi. Beləliklə, düşündükləri dəyişiklikləri qabaqcadan görmə imkanına malik oldular. Məsələn, onlar bir ağac əkməyi düşünürlərsə, bir neçə ildən sonra ağaclar böyüdükdə yolun vəziyyətini qabaqcadan görə bilərlər.*

*O biri səhifədəki üstdəki şəkil bir muzeyə aiddir. İmperator Avqustun sarayının divarına çəkilmiş bir Roma teatr səhnəsi üçölçülü olaraq yenidən düzəldilmişdir.*

*Eyni səhifədə altdakı şəkildə isə "Ford Motor Kompani"nin qarşıdakı 5 ildə maşın dizaynı işlərində istifadəsi düşünülən hologram cihazına aid bir təsvir. Bu hologram cihazı sayəsində Ford layihələri və mühəndisləri maşınları əvvəllər heç istifadə edilməmiş bir üsulla dizayn edəcəklər. Bu cihaz sayəsində onlar ekran əvəzinə üçölçülü şəraitdə işləyə biləcək, qurulan maşın modelinin yanında gəzə və maşını hər baxımdan müzakirə edə biləcəklər.*

# Hz.Süleymanın vəfatı

***"Sonra (Süleymanın) ölümünü hökm etdiyimmz zaman onun öldüyünü onlara ancaq əsasını yeyən bir ağac qurdu xəbər verdi. O yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar"***
***("Səba" surəsi, 14).***

Bir çox peyğəmbərin ölümü haqqında Quranda çox az məlumat verildiyi halda Hz.Süleymanın vəfatı haqqında çox önəmli olan bəzi açıqlamalar var. Ayələrdən bəlli olduğu kimi, Hz.Süleyman öldüyü vaxt ətrafında cinlər varmış. Çox güman ki, bu cinlər Hz.Süleyman tərəfindən onlara verilən vəzi-

fələri başa çatdırmaq üçün çalışırdılar. Ancaq cinlər onun ölümünü hiss etmədikləri üçün işləməyə davam etdilər. Bu ayədə cinlərin qeybi bilmədiyinə diqqət çəkilir. Əgər qeybi bilsəydilər, şübhəsiz ki, Hz.Süleymanın ölümünü də qabaqcadan bilərdilər. Çünki ayədə "alçaldıcı bir əzab" kəlməsi ilə vurğulandığına görə cinlər çox ağır və yorucu bir iş görməkdədirlər.



Bu işi görmələrinin ən başlıca səbəbi isə Hz.Süleymandan qorxmaları idi. Əgər qeybi bilib Hz.Süleymanın öldüyünü duysalar, işlərini yarımçıq qoya bilərdilər. Ancaq onlar Hz.Süleyman yerə yıxılana qədər onun ölümünü bilmədilər.

Bu ayə ilə bağlı bunu da bildirmək lazımdır: ayədəki "ağac qurdu" ifadəsinin ərəbcə qarşılığı "dəbbətul-ərz"dir. Dabbə sözünün mənası "heyvan, canlı"dır. Bu kəlmə "dəbbə" kökündən törəmiş bir isimdir. "Dəbbə" yavaş yerimə, dəbələnmə deməkdir. Heyvanlar və həşəratlar haqqında işlədilir. "Ərz" sözü isə "yer" mənasındadır. Ümumiyyətlə, bu ayədə adı keçən "dəbbətul-ərzi" sözü ağac qurdu mənası ilə yanaşı hər hansı bir heyvan olaraq da nəzərdən keçirilə bilər.

# Hz.Süleymanın əmrindəki cinlər və heyvanlar

*"Bir azdan (Hüdhüd) gəlib dedi: "Sənin bilmədiyin bir şeyi öyrəndim. Sənə Səbadan doğru bir xəbər gətirmişəm. Mən onlara padşahlıq edən bir qadın gördüm. Ona hər şey verilmişdir. Onun çox böyük bir taxtı vardır. Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan (çirkin) əməllərini onlara gözəl göstərmiş, onları yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər"*
*("Nəml" surəsi, 22-24).*

Əvvəlki fəsillərdə Hz.Süleymanın ordusundakı quşların və qarışqa vadisində qarşılaşdığı qarışqa dəstəsinin cin ola biləcəklərinə qısaca toxunmuş, bu canlıların çox şüurlu davranışına diqqət çəkmişdik. Xüsusilə qarışqa vadisindəki qarışqa dəstəsinin heç bir heyvanda görünməyən bir şüur işlədərək Hz.Süleymanın ordusunu tanıyıb özlərini necə qorumaq lazım gəldiyi şüurunda olduğunu göstərmişdik.

Bu bölümdə də Hz.Süleyman qissəsində adı çəkilən digər canlıların oxşar xüsusiyyətlərinə toxunacağıq.

* Ayələrdən də göründüyü kimi, Hüdhüd çox şüurla hərəkət edən bir varlıqdır. Səba ölkəsinə getmiş, orada ətraflı bir məlumat toplamış və geri qayıtdıqda öyrəndiyi hər şeyi tutarlı izahlarla Hz.Süleymana çatdırmışdır:

***"(Süleyman hüdhüdə) dedi: "Baxaq görək doğru deyirsən, yoxsa yalançısan! Mənim bu məktubumu aparıb onlara at, sonra yaxın bir yerə çəkilib dur, bax gör nə cavab verəcəkdir!""***
***("Nəml" surəsi, 27-28).***

* Hüdhüdün açıqlamasından sonra Hz.Süleyman ona yeni bir iş tapşırmışdı. Bunların öhdəsindən hər quş gələ bilməzdi. Bura-

da qarşımıza Hüdhüdün adi bir quş deyil, bir cin olma ehtimalı çıxır.

* İkinci ehtimal isə Hüdhüdün bir quş olması, ancaq cinlər tərəfindən idarə edilməsidir.

***"Sonra quşları yoxlayıb dedi: "Hüdhüdü niyə görmürəm? Yoxsa o bura da yoxdur?"***
***("Nəml" surəsi, 20).***





"Yerdə gəzən elə bir heyvan, qanadları ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəkdir"

("Ənam" surəsi, 38).

* Ayədə Hüdhüd üçün "qaçdı", "getdi" kimi ifadələr əvəzinə "qeyb olanlardan" olduğu söylənilir. Burada qeyb olma kəlməsi ilə diqqət çəkilən məsələ cinlərin insanların özlərini görə biləcəkləri çərçivədən çıxıb özlərinə dönməsi və bir anlıq "görünməz" hala düşməsi ola bilər.

***"Axşamüstü ona cins, çapar atlar göstərildiyi zaman o dedi: "Mən gözəlliyi (bu atları) Rəbbimin zikrindən dolayı sevirəm. Nəhayət, qeyb olub toz pərdəsinin arxasına gizləndi. "Onları (atları) mənə qaytarın!" Sonra onların qıçlarını və boyunlarını sığallamaca başladı"***
***("Sad" surəsi, 31-33).***

* Ayələrdə sözügedən atların da Hüdhüd kimi "toz pərdəsinin arxasına gizlənərək" gözdən itməsi diqqəti cəlb edir. Buradakı atların da cinlərdən olub insanların görməyəcəyi cin aləminə ani keçmələrinə işarə edilə bilər.

* Və ya bunlar həqiqətən at olub cinlər tərəfindən idarə oluna bilərlər. Ayədəki "...Onları mənə geri gətirin..." ifadəsi bu atların başqaları tərəfindən Hz.Süleymana gətirildiyini açıqlayır ki, bunlar da cinlər ola bilər.

* Hz.Süleymanın taxtının üstünə qoyulan cəsədin də bir cin olma ehtimalı var. Cəsəd taxtın üstünə qoyulmuş, sonra da bir anda cinlər aləminə geri aparılmış ola bilər. Ayədəki "...Sonra əvvəlki vəziyyətinə qayıtdı" ifadəsi də buna işarə ola bilər.



***"And olsun ki, Biz Süleymanı imtahana çəkdik. Taxtının üstünə bir cəsəd atdıq. Sonra o əvvəlki vəziyyətinə qayıtdı" ("Sad" surəsi, 34).***

* Taxtın üstünə qoyulanın bir insan cəsədi olub cinlər tərəfindən bir anda geri aparılması da mümkündür. Həmçinin Süleyman qissəsində cinlərdən bir ifritin Səba məlikəsinin taxtını qısa müddət ərzində bir yerdən başqa yerə apara biləcəyi də ifadə edilir.

***"Sonra (Süleymanın) ölümünü hökm etdiyimmz zaman onun öldüyünü onlara ancaq əsasını yeyən bir ağac qurdu xəbər verdi. O yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıçı əzab içində qalmazdılar" ("Səba" surəsi, 14).***

Yenə yuxarıdakı ayədə "ağac qurdu" olaraq keçən, ərəbcə qarşılığı isə "dəbbətul-ərzi" olan canlının da bir cin olma ehtimalı vardır (Ən doğrusunu Allah bilir).

# Hz.Süleymanla Hz.Zülqərneyn arasındakı oxşarlıqlar

Dünyada böyük bir hakimiyyət qurduğu Quranda bildirilən digər bir müsəlman lider də Hz.Zülqərneyndir. Hz.Süleymanın həyatı ilə Hz.Zülqərneynin həyatı arasında bir çox oxşarlıqlar var.

## *Yer üzündə iqtidar sahibi olmaları*

Allah Hz.Zülqərneynə də eynilə Hz.Süleymanda olduğu kimi "onu da yer üzərində möhkəmləndirib qüvvətləndirdiyini və hər şey verdiyini" ("Kəhf" surəsi, 84) bildirmişdir.

Ayədəki "möhkəmləndirmək" ifadəsi ilə həm iqtisadi, həm hərbi, həm də siyasi baxımdan güclü bir iqtidarın vacibliyinə diqqət çəkmiş ola bilər. Hz.Süleymanın bu gücü nəticəsində şərqdən qərbə böyük bir coğrafiyaya sahib olmuş, nizam vermiş bir liderdir (Hz.Zülqərneyn haqqında ətraflı məlumat üçün bax: "Kəhf" surəsindən axırzamana işarələr", Harun Yəhya, 2001, Kültür nəşriyyatı).

## *Ağıllı və imanlı liderlər olmaları*

Quranda Hz.Zülqərneynə "hər şeydən bir yol (səbəb)" ("Kəhf" surəsi, 54) verildiyi bildirilir. Bu ifadə ilə Hz.Zülqərneynin fərasətli, bəsirətli, ağıllı, hər şeyə çarə tapan bir lider olduğuna işarə edilir. Quranda Hz.Süleyman da cinlərin, şeytanların istiqamət verməsindən tutmuş dövlət idarəçiliyinə qədər hər mövzuda üstünlükləri göstərilən bir peyğəmbərdir.

Kitab boyu anlatdığımız kimi Hz.Zülqərneyn də Hz.Süleyman kimi çox güclü və bütün dünyaya səs salmış bir dövlətin başındadır. Quranda digər tayfaların ondan kömək və dolaşıq işlərinə çarə istədikləri xəbər verilir. İdarəçiliyi altında olmayan cəmiyyətlər belə onu **"yer üzündə qarışıqlığın və fitnənin qarşısını alan bir insan"** kimi görməkdə, böhran içində yaşayan xalqlar ona müraciət etməkdədirlər. "Kəhf" surəsindəki "iki səddin önündə, heç bir sözü anlamayan" şəklində tanıdılan bir qövmün ondan yardım istədiyi belə bildirilir:

**"Onlar dedilər: "Ey Zülqərneyn! Yəcuc - Məcuc bu ərazidə fitnə-fəsad törədirlər. Bizimlə onlar arasında bir sədd çəkmək üçün sənə müəyyən məbləğ versək olarmı?"" ("Kəhf" surəsi, 94).**



## *Üstün hərbi gücləri*

Kitabın əvvəlki fəsillərində ətraflı şəkildə bildirdiyimiz kimi, Hz.Süleymanın çox güclü ordusu vardı. "Nəml" surəsində bu şəkildə bildirilir:

**"Durma, onların yanına qayıt! And olsun ki, gücləri çatmayacaq bir ordu ilə üstlərinə gedib onları öz yurdundan zəlil və xar vəziyyətdə çıxardarıq!"**


"Biz Davuda
Süleymanı bəxş
etdik. Nə gözəl
bəndə! O daim
Allaha sığınan bir
kimsə idi"
("Sad" surəsi, 30).



***Kazasker Mustafa İzzət əfəndinin cəli sülüs zərəndud lövhəsi, "Ali-İmran" surəsi, 8-ci ayə: "Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə salma! Bizə Öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən, bəxş edənsən!"***

**("Nəml" surəsi, 37).**

Hz.Zülqərneynin də Hz.Süleyman kimi çox böyük bir hərbi gücə malik olduğunu yenə "Kəhf" surəsindəki bəzi ayələrdən anlayırıq:

**"...Biz ona belə buyurduq: "Ya Zülqərneyn! Sən onlara əzab da verə bilərsən, onlarla yaxşı rəftar da edə bilərsən!" O belə cavab verdi: "Zülm edənə əzab verəcəyik, Sonra o, Rəbbinin hüzuruna qaytarılacaq. Rəbbi də ona görünməmiş bir azab verəcəkdir!" ("Kəhf" surəsi, 86-87).**

Hz.Zülqərneyn yer üzündə qarışıqlıq salan inkarçı toplumları əzaba düçar edir, onların insanlara zülm etməsinə izn vermir. Bunu da böyük hərbi gücü sayəsində həyata keçirir.əBu ayələrdən belə anlaşılır ki, dünyaya hakim olacaq bir dövlətin çox böyük hərbi gücü olmalıdır.

# Ədalətlə hökm etmələri



***Şeyx Əli Bədəvinin cəli sülüs lövhəsi, "Zumər" surəsi, 53-cü ayə: "Ey Mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!".***

Hz.Süleymanın adil idarəçiliyini əvvəlki səhifələrdə açıq izah etdik. Hz.Zülqərneynin də çox ədalətli, haqqa niyyətli olduğunu Qurandakı qissədən görürük. Hz.Zülqərneynin ondan ədalətsizliyə qarşı yardım istəyən bir xalqa o anda yardım etməsi bunun dəlillərindəndir. Hər iki qissədə adil bir rəhbərə diqqət çəkilməsi də bunu göstərir. Dünyanın dörd bir yanında təhlükəsizliyi, asayişi, ədaləti qoruya bilmək üçün əsgər və polis gücü ilə yanaşı çox güclü bir hüquq sistemi də böyük əhəmiyyət kəsb edir.


"Sizə verilən hər hansı bir şey fani dünya malıdır. Allah yanında olan isə daha yaxşı və daha baqidir. O kəslər üçün ki, iman gətirib öz Rəbbinə təvəkkül edərlər"
("Şura" surəsi, 36).


"(Allah) sizi onların
yerlərinə, yurdlarına
və mallarına, üstəlik
də ayağınız dəyməyən
bir yerə varis etdi.
Allah hər şeyə
qadirdir!"
("Əhzab" surəsi, 27).

## *Hədiyyə qəbul etməmələri*

Hz.Süleymanın Səba məlikəsinin göndərdiyi hədiyyəni qəbul etmədiyini və hədiyyələri gətirən elçilərlə çox hikmətli bir cavab verdiyini qeyd etmişdik. Hz.Süleymanın cavabı bu şəkildədir:

**"(Elçibaşı Bəlqisin göndərdiyi hədiyyə ilə) Süleymanın yanına gəldikdə o dedi: "Siz mənə mal-dövlətləmi yardım edirsiniz? Allahın mənə verdiyi sizə verdiyindən daha yaxşıdır. Amma siz öz hədiyyələrinizlə sevinirsiniz" ("Nəml" surəsi, 36).**

Hz.Zülqərneyn də göstərdiyi kömək qarşısında ona vergi vermək istəyən bu şəxsə eyni cavabı vermişdi:

**"O dedi: "Rəbbimin mənə verdiyi daha yaxşıdır..." ("Kəhf" surəsi, 95).**

Hədiyyəni qəbul etməyib bu təklifi irəli sürən şəxslərə bütün mülkün yeganə sahibinin Allah olduğunu xatırlatmaları onların səmimi bir müsəlman olmasının daha bir sübutudur. Bu nümunələr hər müsəlman lider üçün bir nəsihətdir.

## *Daim Allaha üz tutmaları*

Hz.Süleymanın gözəl əxlaq nümunələrinin qeyd edildiyi hissədə onun hər an Allaha üz tutub sədaqətli bir qul olduğunu ayələrdə açıqlamışdıq. Süleyman peyğəmbər hər hansı bir uğur əldə edib zəfər qazananda yaxud da Allahdan ona bir nemət veriləndə dərhal Allaha üz tutub Onu anır və bütün gücün Allaha aid olduğunu zikr edir. Hz.Zülqərneyn də eynilə onun kimi gözəl əxlaq sahibidir. Sözügedən qövmü qorumaq üçün çəkdiyi səddin təsirli olması üçün Allahı belə zikr edir:

**"Artıq nə aşa bildilər, nə də onu dəlib keçə bildilər. O (Zülqərneyn) dedi: "Bu Rəbbimdən bəxş edilən bir mərhəmətdir. Rəbbimin təyin etdiyi vaxt gəldikdə isə onu yerlə yek-**

**san edəcəkdir. Rəbbimin vədi haqdır!"" ("Kəhf" surəsi, 97-98).**

## *Cinlərə hökm etmələri*

Məlumdur ki, Peyğəmbərimiz (s.ə.v.) keçmişdə yer üzündə böyük hakimiyyət qurmuş iki liderin Hz.Süleyman və Hz.Zülqərneyn olduqlarını bildirmişdir. Bu halda Hz.Süleyman dövründə olduğu kimi Hz.Zülqərneyn dövründə də cinlər üzərində bir hakimiyyət qurulmasından danışmaq olar. İnsanların özlərinə qarşı Hz.Zülqərneydən kömək istədikləri Yəcuc və Məcuc adlı qövmün də bir cin dəstəsi olma ehtimalı ola bilər. Bu iki qissədə və xüsusilə də Hz.Süleymanla bağlı danışılanlardan cinlər mövzusundan çox geniş bəhs edilməsi çox güman ki, axırzamana da işarələr verir. Allah axırzamanda cinləri və şeytanları insanların xidmətinə verəcək ola bilər (Ən doğrusunu Allah bilir).

## *Qətran və ya ərimiş mis mədənindən istifadə etmələri*

Hz.Zülqərneyn Yəcuc və Məcucu ayədə "aynəl qıtri" kimi keçən bir maddədən istifadə edərək sədd tikməklə təsirsiz hala gətirmişdi:

**"Mənə dəmir parçaları gətirin!" O iki dağın arasını bərabərləşdirən kimi; "(Körükləri) üfürün!" - dedi. (Zülqərneyn dəmiri) od halına salınca: "Mənə ərimiş mis gətirin, onun üstünə tökün!" - dedi" ("Kəhf" surəsi, 96).**

"Aynəl kitri" kəlməsinin mənası "ərimiş mis mədəni" ilə yanaşı "qətran" mənasına da gəlir. Quranda Hz.Zülqərneynin istifadə etdiyi "aynəl kitri"nin Hz.Süleymanın da əmrinə verildiyi belə bildirilir:

**"Süleymana da küləyi ram etdik. O səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi. Onun üçün mis mədənini sel kimi əridib axıtdıq. Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi. Onlardan hər kəs əmrimizdən çıxırdısa, ona cəhənnəm odunun əzabından daddırardıq" ("Səba" surəsi, 12).**

Həm Hz.Zülqərneynin, həm də Hz.Süleymanı "aynəl qıtri"dən istifadə etməsi diqqətçəkici bir oxşarlıqdır. Hz.Süleyman bu maddənin köməyi ilə öz dövründəki cinlər və şeytanlar üzərində hakimiyyət qurmuş ola bilər. "Aynəl qıtri" kimi qeyd edilən bu maddənin qətran olmaq ehtimalı var. Qətran

**"Köynəkləri qətrandan olacaq..."** ("İbrahim" surəsi, 50) ayə ilə bildirildiyi kimi, cəhənnəmdə də olan bir maddədir.



*Ayədə "aynəl qıtri" ifadəsi ilə əridilmiş mis və ya qətranın Hz.Süleymanın və Hz.Zülqərneynin əmrinə verildiyi bildirilir. Şəkillərdə mis və qətrandan istifadə ilə bağlı nümunələr görünür.*



Ayədə Hz.Süleymanın əmrinə verilən bu maddədən bəhs edildikdən sonra cinlərin də ona xidmət etdiyindən söz açılması diqqətçəkicidir. Hz.Süleyman da, Hz.Zülqərneyn də cinləri nəzarət altında saxlamaq üçün bu maddədən istifadə etmiş ola bilərlər. Bu maddənin cinlərə təsir edən bir tərəfi ola bilər (Ən doğrusunu Allah bilir).

## Axırzamana aid müjdələr

Hz.Süleyman və Hz.Zülqərneynin yaşadıqları dövrlərdə olan bu dünya hakimiyyəti bütün müsəlmanlar üçün böyük bir müjdədir. Çünki bu qissələrdə axırzamana aid mühüm işarələr var.

Allahın sərhədlərini ciddi bir şəkildə qoruyan, İslam əxlaqını dünyada hakim əxlaqa çevirmək üçün səy göstərən və heç bir çətinlik qarşısında qorxmayan müsəlmanlar bütün dövrlərdə qalib gələcəklər. Allahın köməyi və dəstəyi mütləq onların yanında olacaq.

Hz.Süleyman və Hz.Zülqərneyn yuxarıda saydığımız xüsusiyyətlərinin dünyadakı əvəzini güclü bir hakimiyyətlə (və əlbəttə ki, Allahın bir çox mənəvi lütfü ilə) almışlar. Axırzamanda eyni hakimiyyət Allahın köməyi ilə mütləq gerçəkləşəcək. Bu, Allahın iman gətirənlərə bir vədidir. Bu hakimiyyəti gerçəkləşdirəcək olanlar isə Peyğəmbərimizin (s.ə.v.) müxtəlif hədislərində də qeyd edildiyi kimi, sözügedən yüksək xüsusiyyətləri əsrlərdir özündə cəmləşdirən şərəfli türk milləti olacaq.

Üç qitəyə nizam vermiş Osmanlı İmperatorluğunun varisi olan türk milləti İslam əxlaqını bütün dünya üzərində hakim əxlaqa çevirəcək və dünya xalqlarının həsrətini çəkdiyi rahatlıq, sülh və sevgi dolu bir dünyanı mütləq quracaq. Ədalətli, mərhəmətli, sədaqətli və inanc sahibi olan böyük türk milləti bu işin öhdəsindən layiqincə gələcək.


"Şonra sizin üçün onunla xurma
və üzüm bağları yaratdıq. Sizin
üçün orada bir çox meyvələr
vardır ki, onlardan yeyirsiniz"
("Muminun" surəsi, 19).

# Quranda tərif edilən iki müxtəlif idarəçilik

Quranda idarəçilikdən xəbər verən iki mühüm nümunə var. Bunlardan biri Səba məlikəsinin ölkəsindəki idarəçilik, digəri isə Fironun despotik və mürtəce idarəçiliyidir.

Hz.Süleymanın Günəşə sitayiş edən Səba ölkəsini imana çağıran bir məktub göndərməsindən sonra baş vermiş hadisələr bizə bu dövlətin quruluşu haqqında bəzi məlumatları verir.

Səba məlikəsinin yanında tayfanın tanınmışlarından ibarət bir qrup var. Səba məlikəsi Hz.Süleymandan gələn məktubu oxuduqdan sonra onlarla məsləhətləşir. Yəni bu dövlətdə tək bir hökmdarın qərar qəbul etmək hüququndan söz getmir, dövlətin idarə edilməsində hökmdarla birlikdə söz sahibi olan bir qrup da var. Səba məlikəsi yanındakıların fikrini qiymətləndirir, onlar da məlikənin nüfuzuna və özünə hörmət edir. Bu üsulla Səba dövlətində demokratiyaya bənzər bir idarəçilik sistemi tətbiq edilir.

Fironun idarəçilik üsulu isə ilk baxışda Səba dövlətinə bənzəyir. Onun yanında olanların da idarəçiliyə böyük təsirləri görü-

nür. Ancaq bu insanlar Fironu səhv istiqamətə yönəltməkdə, ona fitnə və zülmə səbəb olacaq əmrlər verməkdədir. "Əraf" surəsində Firona bu şəkildə xitab etdikləri bildirilir:

**"Onlar dedilər: "Onu qardaşı ilə birlikdə saxla və şəhərlərə (sehrbazları) yığan adamlar göndər" ("Əraf" surəsi, 111).**

Firon dövründəki idarəçilik tərzini oliqarxiya kimi təqdim etmək mümkündür. Oliqarxiya "azlığın hakimiyyəti" deməkdir. Bir sistemdə siyasi güc sadəcə bir qrupun əlindədirsə, o sistem oliqarxiyadır. Oliqarxiyanın gücü isə əksərən hərbi və maddi gücün miqdarı ilə düz mütənasibdir. Oliqarxiyada idarəçi kadrlar bir neçə şəxsdən ibarət və ya daha geniş ola bilər. Ancaq bütün hallarda bu, xalqa nisbətdə kiçik bir azlıqdır. Bu şəxslər xalqı öz mənfəətlərinə görə, istədikləri kimi idarə edirlər. Ayələrdən görün-



düyü kimi, Firon rejimi də bir oliqarxiyadır.

**"Fironun və onun əyan-əşrafının yanına. Onlar təkəbbürlərinə sığışdırmayıb özlərini yuxarı tutan camaat olaraq qaldılar"** ("Muminun" surəsi, 46) ayəsində də bildirildiyi kimi, Firon və ətrafı öz istədiklərini məcburən etdirən bir cəmiyyətdir. Fironun yanındakı məsləhətçilər, cadugərlər və əsgərlərdən ibarət oliqarxik sinif xalqın Firon sisteminə bağlı qalması üçün onu məfkurə baxımından öz hökmranlığı altına almış, kütlələrə Fironun üstün bir varlıq olması yalanını təlqin etmişdir. Firon və ətrafı xalqa zülm etməkdə idi. Bundan xəbər verən ayə belədir:

**"Fironun və əyanlarının bəlası qorxusundan Musaya öz qövmündən yalnız kiçik bir dəstə iman gətirdi. Çünki Firon o yerdə hakim idi. O, həddi aşmışdı" ("Yunus" surəsi, 83).**

Firon sisteminin zalımlığını göstərən açıq bir sübut da ölkədəki insanları irq və inanclarına görə "firqələrə" (zümrələrə) ayırması və bir qisminə qəsdən zülm etməsidir. Xüsusilə İsrailoğullarını hədəfə alan bu zülmdən bir ayədə belə söz edilir:

**"Həqiqətən, Firon yer üzündə baş qaldırıb onun əhalisini zümrələrə bölmüşdü. Onların arasında olan bir tayfanı gücsüz görüb onların oğlan uşaqlarını öldürür, qızlarını isə sağ buraxırdı. O, həqiqətən, fitnə-fəsad törədənlərdən idi!" ("Qəsəs" surəsi, 4).**

"Əraf" surəsinin 127-ci ayəsində isə Fironun "onlardan üstün olduğu" bildirilir. Bu öldürücü üstünlük Fironun güclü ordusundan irəli gəlir. Bu sistemin nə qədər inkişaf etmiş və gücünün nə qədər böyük olduğunu Fironun əsgərlərinə verdiyi əmrlərdən anlaya bilərik:

**"Firon şəhərlərə (əsgər) yığanlar göndərdi" ("Şuəra" surəsi, 53).**

**"Onlar dedilər: "Onu qardaşı ilə birlikdə saxla və şəhərlərə yığan adamlar göndər" ("Əraf" surəsi, 111).**



*Şimali Afrika, XII əsr, London, Spink Kolleci*
*"Nəml" surəsi, 36-39-cu ayələr arası.*
*"Nəml" surəsində Səba məlikəsi ilə Hz.Süleyman arasındakı görüşdən xəbər verilir. Bu görüşdə Səba məlikəsi Hz.Süleymanın zənginliyinə və gücünə şahid olmuşdur.*

Yuxarıdakı ayələrin də işarə etdiyi kimi, Firon çox mürtəce və əzazil bir dövlət mexanizminə və xüsusilə də xəfiyyə sisteminə sahibdir. Belə ki, müəyyən bir iyerarxiya daxilində ölkənin ən ucqar yerlərinə belə nəzarət edilirdi. Bu nəzarət Fironun rəhbərliyinin çox ciddi və mürtəce metodlarını da göstərirdi.

Səba məlikəsinin Hz.Süleymanla görüşdükdən sonra Allaha iman gətirdiyini və Hz.Süleymana tabe olduğunu bildirməsi isə Səba ölkəsində belə bir təzyiqin olmadığına işarə ola bilər. Səba məlikəsinin bu sözləri Quranda belə bildirilir:

**"Ey Rəbbim! Mən özümə zülm etmişdim. Mən artıq Süleymanla birlikdə aləmlərin Rəbbi olan Allaha təslim oldum!" ("Nəml" surəsi, 44).**

Səba dövlətinin idarəçilik forması ayələrdən də bilindiyi kimi, dövrün şərtlərinə görə "demokratik" ruha sahib bir sistemdir. Firon sisteminin əksinə olaraq insan üzərində bir təzyiq mövcud deyildir. Dövlətin idarəsində ən mühüm qərarların belə müşavirə yolu ilə verildiyini, dövlət məmurları arasında harmoniya və əməkdaşlığın yarandığını, qarşılıqlı səmimiyyətin, vicdan azadlığının yaşandığı, haqların qorunduğu bir modeldir. Allah bizlərə Firon və Səba qissələrindəki fərqli sistemləri açıqlayaraq həm din əxlaqına şiddətlə qarşı olan bir sistemi, həm din əxlaqına yaxın bir cəmiyyətin təməl əsaslarını öyrədir.

# Səba xalqının məruz qaldığı aqibət

Müxtəlif ayələrdə Səba dövlətinin çox güclü ordularından bəhs edilir. Səba ordusunun başçılarının Quranda qeyd edilən bir ifadəsi bu ordunun son qərarı Səba məlikəsinin sərəncamına verdiyini göstərir. Ordu başçıları Səbanın qadın hökmdarına belə deyirlər:

**"Onlar dedilər: "Biz böyük bir qüvvət və qüdrət sahibiyik. Hökm sənindir. Nə əmr edəcəyini özün bax!"" ("Nəml" surəsi, 33).**

Ancaq Səba dövlətinin bu gücü onlara heç bir fayda verməmiş, peyğəmbərlərinin sözünü dinləməyən və Allahın nemətlərinə şükr etməyən Səba xalqı nəsillər sonra dəhşətli bir sel fəlakəti ilə cəzalandırılmışdı. Səba xalqının yaşadığı yerlər Quranda belə təsvir edilir:

**"Səba (tayfasının) yurdunda bir nişanə var idi. (Orada) sağdan və soldan iki bağça var idi. (Səba əhlinə belə buyurulmuşdu:) "Rəbbinizin ruzisindən yeyin və Ona şükr edin. (Yurdunuz) gözəl bir diyar, (Rəbbiniz də) bağışlayan bir Rəbbdir!"" ("Səba" surəsi, 15).**


"O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar-bağçalar yaradar və çaylar axıdar!"
("Nuh" surəsi, 12).
"Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar"
("Ali-İmran" surəsi, 171).

Yuxarıdakı ayələrdə də vurğulandığı kimi, Səba xalqı estetik cəhətdən gözəl, bərəkətli bağ-bağçaları olan bir torpaqda yaşayırdı. Ticarət yollarının üstündə yerləşən və bu səbəbdən də ümumi səviyyəsi yüksək olan Səba ölkəsi dövrünün seçilənlərindən biri idi. Yaşayış və şəraitin belə gözəl olduğu ölkədə Səba xalqına ayədə də bildirildiyi kimi, yalnız **"Rəbbinin ruzisindən ye-**








*(Solda) Yulğun ağacı duzlu yarpaqlara malik və çox su tələb edən bir ağac növüdür. Ağac bütün rütubət və su qaynağını özünə çəkərək yanğın və sel təsirini daha da artırır. Böyük bir yulğun ağacı gündə 1000 litrə yaxın su çəkərək olduğu yerin bütün ekoloji tarazlığını poza bilər.*

*(Aşağıda) Möhkəm və xoş iyli sidr ağaclarından binaların xaricində, mebel və oyma işlərində istifadə edilir.*



**mək və Ona şükr etmək"** ("Səba" surəsi, 15) qalırdı. Lakin belə etmədilər və naşükür oldular. Ayələrdə Səba xalqının davranışı belə verilir:

**"Lakin onlar üz döndərdilər, Biz də üstlərinə Ərim (bəndinin) selini göndərdik. Onların iki bağçasını acı meyvəli, yulğun ağacları və bir az da sidr ağacı olan iki bağçaya çevirdik. Onları nankorluqlarına görə belə cəzalandırdıq. Biz heç nankordan başqasına cəzamı verərik?" ("Səba" surəsi, 16-17).**

Səba xalqı uğurlarını və zənginliklərini öz səylərinin nəticəsi bildi. Üz döndərməsinin əvəzini isə ayədə göstərildiyi kimi, bir sellə aldı və həlak oldu. Bu, Allahın inkar edən bütün qövmlərə verdiyi ilahi bir əvəzdir. Allahın nemətlərinə şükr etməyən, elçilərin göstərdiyi hidayət yoluna uymayan və göndərilən Kitabları inkar edən hər xalq etdiklərinin əvəzini həm dünyada, həm də axirətdə mütləq alacaq. Bu, adətullahın (Allahın qanununun) bir nəticəsidir. Allah "Hud" surəsində belə buyurur:

**"Bu, (məhv olmuş) məmləkətlərin xəbərlərindəndir ki, sənə söylədik. Onların bəzisindən əsər-əlamət qalmış, bəzisi ilə yerlə yeksan olmuşdur. Biz onlara zülm etmədik. Onlar özləri özlərinə zülm etdilər. Allahdan qeyri ibadət etdikləri tanrılar Rəbbinin əmri gəldikdə onlara heç bir fayda vermədi, əksinə, yalnız ziyanlarını artırdı" ("Hud" surəsi, 100-101).**



# *Arim seli ilə həlak olan Səba qövmü*

Tarixi mənbələrə görə, Səba xalqı Cənubi Ərəbistanda yaşamış dörd böyük sivilizasiyadan biridir. Səba xalqı tarixdə mədəni tayfa kimi tanınır. Onların ən önəmli əsərlərindən olan Mərib Səddi malik olduqları texniki səviyyənin göstəricisidir. Səbalılar dövlət qurmalarının daha ilk mərhələsindən burada bir sədd qurmuş, suvarma işinə başlamış və bu səddin sayəsində inkişaf etmişdilər.

Məribdəki bu səddin yüksəkliyi 16 metr, eni 60 metr, uzunluğu isə 620 metr idi. Hesablamalara görə, sədd vasitəsilə suvarıla bilən bütün sahə 9600 hektar idi ki, bunun da 5300 hektarı cənub, qalanı isə şimal düzənliyinə aid idi. Bu iki düzənlik Səba kitabələrində bəzən "Mərib və iki düzənlik" deyə qeyd olunurdu. Qurandakı "sağdan və soldan iki bağça" ifadəsi çox ehtimal ki, bu iki vadidəki bağ-



***Quranda bəhs edilən Arim selindən sonra Mərib Səddinin dağılması Səba ölkəsinin suyun altında qalmasına səbəb oldu və bütün şəhər dağıldı.***

bağçalara işarə edir. Bölgə bu səddin və suvarma qurğularının sayəsində Yəmənin ən yaxşı suvarılan və ən məhsuldar zonası kimi şöhrət qazanmışdı.

Bu sədd bizim eranın V-VI əsrlərində geniş şəkildə təmir edilmişdi. Ancaq bu təmir işləri səddin 542-ci ildə yıxılmasının qarşısını ala bilmədi. Bu tarixdə yıxılan sədd Quranda bəhs edilən "Arim seli"nə səbəb oldu. Səba xalqının illərdir becərdiyi bağ-

ları, bağçaları və təsərrüfat sahələri tamamilə məhv oldu. Səddin yıxılmasından sonra Səba xalqının sürətlə geriləməsi müşahidə edilir. Səddin yıxılması ilə Səba dövlətinin də sonu gəldi.

Quran ayələrini bu tarixi həqiqətlər işığında incələdiyimiz zaman ortada böyük bir harmoniya olduğunu görürük. Arxeoloji tapıntılar və tarixi həqiqətlər Quranda yazılanlara işarə edir. Quranda Səba xalqına göndərilən əzabdan "Səylül Arim", yəni "Arim seli" şəklində bəhs edilir. Qurandakı bu ifadə eyni zamanda bir selin meydana gəlmə səbəbini göstərir. Çünki "Arim" sözünün bir mənası da bənd və ya sədd deməkdir. Dolayısı ilə "Səylül Arim" ifadəsi də səddin yıxılması nəticəsində baş verən bir selə işarə edir.

***"Müqəddəs Kitab doğrunu söylədi" ("Und Die Bibel Nat Doch Recht")*** kitabının müəllifi, alman arxeoloqu Verner Keller də Qurana uyğun olaraq Arim selinin baş verdiyini qəbul edir və belə yazır:

"Belə bir səddin varlığı və dağılaraq şəhəri tamamilə uçurması Qurandakı bağça sahibləri ilə bağlı verilən nümunənin həqiqətən də baş verdiyini sübut edir".2

Səba xalqının yaşadığı və artıq tamamilə bir xaraba halına çevrilmiş Marib şübhəsiz ki, Səba xalqı kimi eyni səhvi etmiş bütün insanlar üçün bir ibrətdir. Onlar Allaha nankorluq edib əvəzində də bu fəlakəti görmüş, sahib olduqları bütün zənginlikləri bir anda itirmişlər (Ətraflı məlumat üçün bax: "Qövmlərin həlakı", 6-cı nəşr, Harun Yəhya, 2001, Vural Yayınçılık).



*"Yeri yarıb bulaqlar qaynatdıq. Nəhayət, sular əzəldən müəyyən edilmiş bir iş üçün bir-birinə qovuşdu" ("Qəmər" surəsi, 12).*

*Yozef Anton Kox, "Şmadribax şəlalələri", 1821-1822*

# Əhdi-Ətiqdə Hz.Süleyman

Kitabın bura qədərki hissəsində Hz.Süleymanın bir çox xüsusiyyətləri ilə yanaşı onun yüksək sənət anlayışından və zənginliyindən də söhbət açdıq. Onun bütün görənlərin heyran olduğu sarayından, xidmətində olan cin və şeytanlardan istifadə edərək gördüyü sənət işlərindən bəhs etdik. Bəzilərinin bina ustaları və dalğıclar olduğu əmrindəki şeytanların Quranda da bildirildiyi kimi, "qalalar, heykəllər, hovuz böyüklüyündə qablar və yerindən sökülməyən qazanlar" düzəltməsindən danışdıq.



Əvvəl də qeyd etdiyimiz kimi, Allah Hz.Süleymanı eynilə atası Hz.Davud kimi İsrailoğullarına peyğəmbər olaraq göndərmişdi. Hz.Süleyman onları Allahın ayələrindən xəbərdar etmiş, gözəl əxlaqlı olmağa dəvət etmişdi. Bu səbəbdən də İsrailoğullarının kitabı olan Əhdi-Ətiqdə Hz.Süleyman haqqında bir çox məlumatlar var.



Əvvəlcə Əhdi-Ətiqin quruluşunu açıqlamaq lazımdır. Əhdi-Ətiq Hz.Musaya verilən Tövratın, Hz.Davuda verilən Zəburun (Məzmurların) və müxtəlif yəhudi peyğəmbərlər tərəfindən yazıldığı və ya onların həyatından danışıldığı qəbul edilən kitabların toplusudur. Yəhudilər Əhdi-Ətiqə inanır. Xristianlar isə həm bu kitaba, həm də əlavə olaraq "Əhdi-Cədid" adlandırdıqları və Hz.İsa haqqında olan "İncil" adlı dörd kitabın və başqa bəzi məktubların olduğu ikinci bir kitablar toplusuna inanır.

Ancaq Qurana görə, Tövrat, Zəbur və İncil Allahın vəhyindən sonra insanlar tərəfindən təhrif edilmişdir. Bundan sonra mövcud olan Əhdi-Ətiqə və Əhdi-Cədidə bir ilahi kəlam kimi deyil, içində haqqın olduğu ehtimal edilən, ancaq bununla yanaşı müxtəlif əfsanə və xurafatların da olduğu qaynaq kimi baxmaq lazımdır.

Dolayısı ilə Əhdi-Ətiqdən daha çox tarixi bir qaynaq kimi yararlanmaq doğru olardı. Bu tarixi qaynağın nə dərəcədə doğru ol-

duğunu isə onun Qurana uyğun olub-olmaması ilə müəyyən edə bilərik.

Hz.Süleymanın həyatından bilgilər olan Əhdi-Ətiq kitabında isə bir çox tarixi məlumat toplamaq mümkündür. Xüsusilə də bunların arasında Hz.Süleymanın dünyadakı güclü hakimiyyətindən, yüksək hikmətə malik bir qul olduğundan, Allaha olan güclü imanından qeydlər Quranla çox uyğun gəlir. Əhdi-Ətiqdə Hz.Süleyman krallığının Nil və Fərat çayları arasında qalan sahəni əhatə etdiyi yazılır ki, o dövrdə dünyanın mədəni və iqtisadi mərkəzi olan Mesopotamiyada bu qədər geniş sahəyə hakim olmaq, üstəlik Səba nümunəsində olduğu kimi ətraf ölkələri idarə edəcək bir güc göstərmək əlbəttə ki, çox böyük bir siyasi iqtidarın əlamətidir.

Bununla yanaşı, Əhdi-Ətiqdə Hz.Süleymanın zənginliyinə dair verilən məlumatlar çox diqqətçəkicidir. Onun sarayının tikilişi, kömək aldığı insanlar, sarayının tikilişində istifadə etdiyi materiallar haqqındakı məlumatlar və sarayın böyüklüyünə aid bilgilər aşağıdakı şəkildədir.

## *Hz.Süleyman Allahın diləyi ilə böyük bir ev tikmişdi*

"Allahım Rəbbin adına böyük bir ev tikəcəyəm... Və tikməkdə olduğum ev böyükdür..." (2. Tarixlər, Bab 22-5).

"Və budur, mənə bol ləvazimat hazırlasınlar deyə qullarım sənin qullarınla bərabər olacaqlar; çünki tikəcəyim ev böyük və gözqamaşdırıcı bir şey olacaqdır" (2. Tarixlər, Bab 29).

"Və tuncdan bir məzbah tikdi; uzunluğu iyirmi arşın, (4 arşın 1,78 metrə bərabərdir) və eni iyirmi arşın və hündürlüyü on arşın" (2. Tarixlər, Bab 41).

"Və Süleymanın Rəbb üçün tikdiyi evin uzunluğu altmış arşın, eni iyirmi və hündürlüyü otuz arşındır. Və evin məbədi önündə-



***İsraildə tapılmış Hz.Süleyman məbədinin maketi***

ki eyvanın uzunluğu evin eninə görə iyirmi arşındı; və onun eni evin qabağında on arşındı. Və ev üçün qəfəslə bağlanmış pəncərələr düzəltdi. Və evin divarı ətrafına bitişik, həm məbədin, həm də içəridəki otağın ətrafındakı evin divarlarına bitişik mərtəbələr tikdi; və ətrafından otaqlar tikdi. Aşağı mərtəbə beş arşın enində və orta mərtəbə altı arşın enində və üçüncüsü isə yeddi arşın enində idi; girişlər evin divarını tutmasın deyə evin divarı ətrafında bayır tərəfdən dayaqlar qoydu" (1. Krallar, Bab 62-6).

## *Evin tikilməsində bacarıqlı işçilərlə çalışmışdır*

"Və indi atam Davudun hazırlamış olduğu Yahudada və Yeru-



*Kənarda Qüdsü təmsil edən məbədlərdən biri olan və Qübbətüs-Səhra adlandırılan Hz.Ömər məscidi görünür.*

səlimdə yanımda olan bacarıqlı adamlarla bərabər mənə bir adam göndər, qızıl və gümüş və tunc və dəmir və qırmızı və lacivərd işlərində hünərli olsun və bütün növ oyma işlərini bilsin. Və mənə Livandan ərz ağacı və sərv və sandal ağacı göndər; çünki bilirəm ki, sənin qulların Livandan taxta-şalban kəsməyi bilirlər" (2. Tarixlər, Bab 27-8).

## Oyma işlərində müxtəlif ağaclardan istifadə etmişlər

"Və ev tikilməkdə ikən daş ocağında hazırlanmış daşdan tikildi; və tikilən evin içindən nə çəkic, nə balta, nə də dəmir bir alət səsi eşidilmədi. Orta kənar otaqların qapısı evin sağ tərəfində idi; və dolanbac nərdivanla orta mərtəbəyə və orta mərtəbədən üçüncü mərtəbəyə çıxardılar. Evi belə tikdi və onu bitirdi; və evi ərz ağaclarından girişlər və qalın taxtalarla örtdü. Və bütün evə bitişik mərtəbələri hər birinin hündürlüyünü beş arşın olaraq tikdi və



***Livan sidr ağacı tablosu***

onları ərz ağacından taxtalarla evə bağladı" (1. Krallar, Bab 67-10).

"Və içəridəki otaqda hər bir on arşın hündürlüyündə zeytun ağacından iki kərubi (Yəhudi inancına görə, Kərubilər Sfinksə oxşayan, aslan bədənli, insan başlı, qanadlı mələkdir) düzəltdi. Və kərubinin bir qanadı beş arşındı və kərubinin o biri qanadı beş arşındı; bir qanadının ucundan o birinin ucuna on arşındı. Bir qanadının ucundan o birinin ucuna on arşındı. Və o biri kərubi on arşındı; hər iki kərubi bir ölçüdə və bir biçimdə idi. Bir kərubinin hündürlüyü on arşındı, o biri kərubininki də belə idi. Və kərubiləri içəridəki evin içinə qoydu; və kərubilərin qanadları gərilmişdi, belə ki, birinin qanadı bir divara, digər kərubinin qanadı o biri divara dəyirdi; və qanadları evin ortasında bir-birinə dəyirdi. Və kərubilərə qızıldan üz çəkdi" (1. Krallar, Bab 623-28).

"Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə: "Allahın köməyi nə vaxt gələ cək?" - demişdilər. Bilin ki, Allahın köməyi yaxındır!"
("Bəqərə" surəsi, 214).

"Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini müsibətə və bəlaya saldıq ki, bəlkə, yalvarıb-yaxarsınlar!"
("Əraf" surəsi, 94).

"Səndən əvvəl də ümmətləri müsibət və fəlakətə düçar etdik ki, yalvarsınlar"
("Ənam" surəsi, 42).

"Və içəridə və bayırda boydan-boya evin bütün divarlarına qabartma şəkillər, kərubilər və xurma ağacları və açılmış çiçəklər oydu. Və içəridə və bayırda evin döşəməsini qızılla örtdü. Və içəridəki otağın girəcəyinə zeytun ağacından qapı qanadları tikdi; üst eşiklə qapı çərçivələri divarın beşdə biri idi. Beləcə zeytun ağacından iki qapı qanadı düzəltdi; və üzərilərinə qabartma kərubilər və xurma ağacları və açılmış çiçəklər oydu və onları qızılla üzlədi; və qızılı kərubilərlə xurma ağaclarının üstünə döşədi. Məbədin girəcək yerinə də zeytun ağacından divarın dörddə biri olmaqla qapı çərçivələri və sərv ağacından iki qapı qanadı tikdi; və bir qanad iki parçadan olub qatlanırdı və digər qanad iki parçadan ibarət olub qatlanırdı. Və üzərlərinə kərubilər və xurma ağacları və açılmış çiçəklər oydu. Və oyma işi üçün hazırlanmış qızılla onları bəzədi. Və içəridəki həyəti üç sıra yonulmuş daşla və bir sıra ərz ağacı kirişi ilə düzəltdi" (1. Krallar, Bab 629-36).

"Və Süleyman on üç ildir öz evini tikirdi və bütün evi bitirdi. Və Livan meşəsi evini tikdi; uzunluğu yüz arşın və eni əlli arşın və hündürlüyü otuz arşın olaraq sütunlar üzərində ərz ağacı kirişlər olmaq üzrə ərz ağacından dörd sıra dirəklər üzərində idi. Və dirəklərin üstündə olan qırx beş kirişin üzəri ərz ağacı ilə örtülü idi; bir sırada on beş. Və girişlər üç sıra idi, və pəncərə pəncərəyə qarşı idi, üç qat. Və bütün qapılar və çərçivələr kirişlərlə dördbucaqlı düzəldilmişdi; və pəncərə pəncərəyə qarşı idi, üç qat. Və sütunlar eyvanını tikdi; uzunluğu əlli arşın və eni otuz arşındı; və qarşılarında bir eyvan; və qarşılarında dirəklər və eşik vardı. Və taxt eyvanını, orada hökm verəcəyi hökm eyvanını tikdi; və döşəmədən tavana qədər ərz ağacı ilə örtülü idi. Və özünün oturacağı ev, eyvanın iç tərəfindəki həyətdə, eyni quruluşda idi..." (1. Krallar, Bab 7 1-8)

"Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq Öz nurunu tamamlamaq istər" ("Tövbə" surəsi, 32).

## *Yanında on minlərlə adam işləmişdi*

"...Və Süleyman atası Davudun İsrail diyarında olan bütün qəribləri saydıqdan sonra onları saydı; və yüz əlli üç min altı yüz nəfər oldular. Və onlardan yük daşıyan yetmiş min və dağlarda daş kəsən səksən min və qövmü işlətmək üçün iş başına üç min altı yüz nəfər qoydu" (2. Tarixlər, Bab 217-18).



"Biz isə istəyirdik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək" ("Qəsəs" surəsi, 5).

"Və kral Süleyman bütün İsraildən məcburi işçiləri topladı; və məcburi işçilər otuz min adamdı. Ayda on min adam olmaq şərtilə bunları sıra ilə Livana göndərdi; bir ay Livanda və iki ay evdə qalardılar; və məcburi işçilərin başında Adoniram vardı. Və Süleymanın yük daşıyan yetmiş min və dağlarda daş kəsən səksən min adamı, bunlardan başqa Süleymanın işləyənlərin üzərində hökm edən, işin başında duran üç min üç yüz baş adamı vardı. Və kral əmr etdi və onlar evin təməlini yonulmuş daşla qoymaq üçün böyük və dəyərli daşlar kəsdilər" (1. Krallar, Bab 513-17).

## *Hz.Süleymanın tikdiyi evin təməli*

"...Və Allah evinin tikilməsi üçün Süleymanın qoyduğu təməllər bunlardır. Uzunluğu qədim ölçüyə görə, altmış arşın və eni iyirmi arşın. Və evin qarşısında olan eyvanın uzunluğu evin eninə görə iyir-


"(O gün) bir çox üzlər isə
sevinəcək; Zəhmətindən razı
qalacaq; Yüksək Cənnətdə olacaq"
("Ğaşiyə" surəsi, 8-10).

mi arşın və hündürlüyü yüz iyirmi..." (2. Tarixlər, Bab 32-4).

Evin həm çölü, həm də içi xalis qızıl, tunc və qiymətli daşlarla bəzədilmişdir

"...Və onu içəridən xalis qızılla bürüdü. Və böyük evə sərv ağaclarından tavan düzəltdirib onu xalis qızılla bürüdü; və onun üstünə qabartma xurma ağacları və zəncirlər işlədi. Və gözəl olsun deyə evi qiymətli daşlarla bəzədi; və qızıl Parvaim qızılı idi. Və evi, kirişlərini, eşiklərini və divarlarını və qapılarını qızılla bürüdü və divarlara kərubilər oydu.

Və bənzərsiz evini tikdi; onun uzunluğu evin eninə görə iyirmi arşındı və eni iyirmi arşın; və onu altı yüz talant qədər saf qızılla bəzədi. Və mismarların ağırlığı əlli şekel qızıl idi. Və yuxarıdakı otaqlar qızılla bəzədilmişdi" (2. Tarixlər, Bab 34-9).

"Və Süleyman evi içəridən xalis qızılla bəzədi; və içəridəki otağın qarşısına qızıl zəncirlər çəkdi; və onu qızılla bəzədi. Və bütün evi tamamilə qızılla bəzədi; içəridəki otağı da qızılla bəzədi" (1. Krallar, Bab 621-22).

"Və bütün qüvvəmlə Allahımın evi üçün, qızıl şeylər üçün qızıl və gümüş şeylər üçün gümüş və tunc şeylər üçün tunc, dəmir şeylər üçün dəmir və ağac şeylər üçün ağac; əqiq daşları və oyulmuş daşlar və zinət daşları və müxtəlif rəngli daşlar və hər növ qiymətli daşlar və bir çox mərmər daşları hazırladım. Və bundan başqa müqəddəs ev üçün hazırlamış olduğum hər şeydən artıq olaraq, madam ki, qızıl və gümüş xəzinəm vardır, Allahımın evinə olan sevgim uğrunda onu Ofir qızılından üç min talant qızılı və evlərin divarlarını bəzəmək üçün yeddi min saf gümüşü; qızıl şeylər üçün qızılı, və gümüş şeylər üçün gümüşü, sənətkarlar əli ilə görüləcək bütün işlər üçün verirəm..." (1. Tarixlər, Bab 292-5).

"Və Süleyman Allahın evindəki bütün qapıları və qızıl məz-

bahı və üzərində dinclik çörəyi olan süfrələri; və adətə görə içəridəki otağın qapısında yanmaq üçün xalis qızıldan qəndillərlə bərabər şamdanlar; və qızıldan (bu da xalis qızıldan) cicəkləri və qəndilləri və maşaları; və xalis qızıldan qayçıları və ləyənləri və qaşıqları və qabları düzəltdi. Və evin girəcəyinə gəlincə onun müqəddəs evə açılan içəri qapı qanadları və evin, məbədin qapı qanadları qızıldan idi" (2. Tarixlər, Bab 419-22).

"...Və atası Davudun ayırdığı şeyləri, gümüşü və qızılı və bütün dəstləri Süleyman içəri gətirdi və onları Allah evinin xəzinəsinə qoydu" (2. Tarixlər, Bab 51).

"Bunlar hamısı, içəridən və bayırdan, təməldən dama qədər, mişarla kəsilmiş, yonulmuş, ölçüyə görə daşdan, qiymətli daşdandır; eşikdən böyük həyətə qədər də belə idi. Və təməl qiymətli daşlardan, böyük daşlardan, on arşınlıq və səkkiz arşınlıq daşlardan idi. Və üstündə ölçüyə görə dəyərli daşlar, yonulmuş daş və ərz ağacı vardı. Rəbb evinin içəridəki həyətində və evin eyvanında olduğu kimi böyük həyətin də ətrafında üç sıra yonulmuş daş və bir sıra ərz ağacı kirişləri vardı" (1. Krallar, Bab 79-12).

"Və tuncdan on ayaqlıq düzəltdi; bir ayaqlığın uzunluğu dörd arşın, eni dörd arşın və hündürlüyü üç arşındı. Və ayaqlıqların işi bu şəkildədi; yan lövhələri vardı; və pərvazlar arasında olan yan lövhələr vardı; və pərvazlar arasında olan yan lövhələrdə aslanlar, öküzlər və kərubilər vardı; və yuxarıdakı pərvazlar da belə idi; və aslanların və öküzlərin altında sallanmış çələnglər işlənmişdi. Və hər ayaqlığın dörd tunc təkəri və tunc oxları vardı; və onun dörd ayağının sütunları vardı; hər birinin yanında çələnglər olaraq sütunlar qazanın altında qoyulmuşdu. Və onun ağzı başlığın içində və yuxarıda bir arşındı; və ayaqlıq işinə görə ağzı dəyirmi (yuvarlaq), bir yarım arşında; və ağzında da oymalar vardı və onların yan lövhələri yuvarlaq deyil, dörd guşəli idi. Və dörd təkər yan lövhələrin altında idi; və təkərlərin oxları ayaqlıqda idi;

və bir təkərliyin hündürüyü bir yarım arşındı. Və təkərlərin işi arabanınkı kimi deyil; oxları və barmaqları və başlıqlarının hamısı tökmə idi. Və hər ayaqlığın dörd küncündə dörd sütun vardı və bunlar özündəndi. Və ayaqlığın başında yarım arşın hündürlüyündə yuvarlaq bir şəkil vardı; və ayaqlığın başındakı qollar və yan lövhələr özündəndi. Və hər birinin eninə görə qollarının düz yerlərinə və yan lövhələrinə, kərubilər, aslanlar və xurma ağacları və çələnglər oydu. Beləcə on ayaqlığı düzəltdi; hamısının forması, ölçüsü və şəkli birdi" (1. Krallar, 7. Bab27-37).

## *Heykəltəraşlar evi bəzədilər*

"Və bu müqəddəs evdə heykəltəraş iki kərubi tikdi; və onları qızılla bəzədilər. Və kərubilərin qanadları iyirmi arşın uzunluğunda idi; kərubinin bir qanadı beş arşın idi, evin divarına dəyirdi; və o biri qanadı da beş arşındı, o biri kərubinin qanadına dəyirdi. Digər kərubinin qanadı da beş arşın idi, evin divarına dəyirdi; və o biri qanadı da beş arşındı, o biri kərubinin qanadına dəyirdi. Bu kərubilərin qanadları iyirmi arşın yayılırdı; və kərubilər ayaq üstə dururdular və üzləri evə tərəf çevrilmişdi. Və pərdəni laciverddən və ərquvanidən və qırmızıdan və incə kətandan düzəltdi və üzərinə kərubilər işlədi" (2. Tarixlər, Bab 310-14).

## *Çox böyük və möhtəşəm qazanlar, şamdanlar düzəltdilər*

"Və on qazan düzəltdi və onlarda yuyunmaq üçün beşini sağa və beşini sola qoydu; bəzi şeyləri onların içində yuyardılar; ancaq dəniz kahinlərin yuyunması üçündür" (2. Tarixlər, Bab 46).

"Və on qızıl şamdanı qanunlarına görə düzəltdi; və beşi sağ-




da və beşi solda olaraq onları məbədə qoydu. Və on masa düzəltdi; və beşi sağda və beşi solda olaraq onları məbədə qoydu. Və qızıldan yüz ləyən düzəltdi. Və kahinlərin həyətini və böyük həyəti və həyətin qapılarını düzəltdi və onların qapılarını tuncla bəzədi. Və dənizi evin sağına, şərq tərəfinə, cənuba tərəf qoydu" (2. Tarixlər, Bab 47-10).

"Və tuncdan on qazan düzəltdi; bir qazan qırx bat (37 litrə bərabərdir) tuturdu; hər qazan dörd arşındı və on ayaqlığın üzərində bir qazan vardı. Və beşi evin sağ tərəfində və beşi evin sol tərəfində olaraq ayaqlıqlar qoyuldu və dənizi evin sağına, şərqə tərəf, cənuba doğru qoydu" (1. Krallar, Bab 738-39).

# *Hətta savaş qalxanları da qızıldan düzəldilmişdi*

"...Və bütün ərəb eli kralları və məmləkətin valiləri Süleymana qızıl və gümüş gətirdilər. Və kral Süleyman döymə qızıldan iki yüz böyük qalxan düzəltdi; bir böyük qalxana altı yüz şekel döymə qızıl getdi. Və döymə qızıldan üç yüz kiçik qalxan düzəltdi; bir qalxana üç yüz şekel qızıl getdi; və kral bunları Livan meşəsi evinə qoydu" (2. Tarixlər, Bab 914-16).

"Və kral Süleyman döymə qızıldan iki yüz böyük qalxan düzəltdi; bir böyük qalxana altı yüz şekel qızıl getdi. Və döymə qızıldan üç yüz qalxan düzəltdi; bir qalxana üç mina (1 mina təxminən 983 qrama bərabərdir) qızıl getdi; və kral bunları Livan meşəsi evinə qoydu" (1. Krallar, Bab 1016-17).



# *Hz.Süleymanın taxtı*




"...Və kral fil dişindən böyük bir taxt düzəltdi və onu xalis qızılla bəzədi. Və taxtın altı pilləsi və bir qızıl ayaq stulu vardı və bunlar taxta bağlı idilər və oturacaq yerin hər iki tərəfində qollar vardı, və qolların yanında iki aslan dururdu. Və altı pillənin üstündə, iki tərəfində, on iki aslan dururdu, heç bir ölkədə belə bir şey edilməmişdi" (1. Krallar, Bab 917-19).

"Və kral fil dişindən böyük bir taxt düzəltdi və onu təmiz qızılla bəzədi. Taxtın altı pilləsi vardı və arxa tərəfdən taxtın başı yuvarlaq idi və oturulacaq yerdə iki tərəfdən qollar vardı və qolların yanında iki aslan dururdu. Və altı pillə üzərində iki tərəfdə on iki aslan dururdu; heç bir ölkədə belə bir şey edilməmişdi" (1. Krallar, Bab 1018-20).

"Kral Süleyman Livan ağaclarından özünə bir təxti-rəvan düzəltdi. Dirəklərini gümüşdən etdi, tavanını qızıldan, oturacaq yerini ərquvanidən..." (Nəşidələr Nəşidəsi. Bab 39-10).



## *Hz.Süleymanın süfrəsi*

"Və kral Süleymanın içki qabları həmişə qızıldan və Livan meşəsi evinin bütün qabları xalis qızıldandı; Süleymanın günlərində gümüş bir şey sayılmazdı" (2. Tarixlər, Bab 920).

"Və Süleymanın evinin bir günlük azuqəsi otuz ölçək (1 ölçək 13 litrdi) narın un və altmış ölçək un, on bəslənmiş öküz və otlaqlardan iyirmi öküz və mallar və ceyranlar və sığırlar və







bəslənmiş toyuqlardan başqa yüz qoyundu" (1. Krallar, Bab 422-23)."Və o kəhyalar kral Süleyman üçün və kral Süleymanın süfrəsinə gələnlərin hamısı üçün hər biri öz ayında azuqə tədarük edərdi; bir şeyi əskik etməzdilər" (1. Krallar, Bab 427).

"Və Süleymanın bütün hikmətini və qurduğu evi və süfrəsinin yeməyini və qullarının oturuşunu və xidmətçilərinin duruşunu və onların ehtiyatlılığını və Rəbbin evinə çıxan pilləkəni Səba kraliçası gördüyü vaxt onda artıq can qalmadı"(1. Krallar, Bab 104-5).

## *Hz.Süleymanın atları*

"Və atlarla döyüş arabaları üçün Süleymanın dörd min axuru vardı. Və on iki min atlısı vardı, onları araba şəhərlərinə və kralın yanına, Yerusəlimə qoydu. Və çaydan Filistilər diyarına və Misir sərhəddinə qədər, bütün krallara hökm etdi. Və kral gümüşü Yerusəlimdə daş qiymətinə endirdi və ərz ağaclarını Səfəladakı cəmiz ağacları kimi etdi. Və Misirdən və bütün məmləkətlərdən Süleyman üçün atlar gətirdilər" (2. Tarixlər, Bab 925-28).



"...Və Süleymanın döyüş arabaları üçün qırx min axur bölüyündə atları vardı. Və on iki min atlısı vardı" (1. Krallar, Bab 426).

"Və Süleyman döyüş arabaları ilə atlılar topladı; və onun özünün min dörd yüz arabası və on iki min atlısı vardı; onları araba şəhərlərinə, və Yerusəlimə kralın yanına qoydu. Və kral gümüşlə qızılı Yerusəlimdə daş qiymətinə endirdi. Və ərz ağaclarını əsasən Səfəladakı cəmiz ağacları kimi etdi. Və Süleymanın atları Misirdən gətirilirdi; kralın tacir heyəti onları sürü ilə bir qiymətə alardılar. Və bir döyüş arabasını altı yüz və bir atı yüz əlli şəkəl gümüşə Misirdən çıxarıb gətirərdilər; və bütün Xett kralları üçün və Suriya kralları üçün də beləcə onların əli ilə gətirilirdi" (2. Tarixlər, Bab 114-17).



**"(Allah) sizi onların yerlərinə, yurdlarına və mallarına, üstəlik də ayağınız dəyməyən bir yerə varis etdi. Allah hər şeyə qadirdir!" ("Əhzab" surəsi, 27).**

## -*Əhdi-Ətiqin "Süleymanın Məsəlləri" hissəsindən Açıqlamalar

Əhdi-Ətiqdə mövcud olan "Süleymanın Məsəlləri" hissəsinin Hz.Davudun Hz.Süleymana verdiyi nəsihətləri ehtiva etdiyi iddia edilir. Əlbəttə Əhdi-Ətiq təhrif edilmiş bir kitabdır. Və bu kitabdakı açıqlamaları Allahdan gələn vəhy olaraq qəbul etmək mümkün deyil. Hər nə qədər içində təhrif edilməmiş hissələr olma ehtimalı olsa da, biz bu açıqlamaları ancaq gözəl sözlər olaraq dəyərləndirə bilərik. Bu məntiqlə oxuyanda bəhs edilən hissədə Qurana uyğun gələn çox sayda gözəl söz və nəsihətin olduğunu görmək olar. Gözəl sözün harada olmasından asılı olmayaraq qəbul etmək uyğun olduğu üçün bu hissədə Əhdi-Ətiqdəki Quran ayələri ilə məna yönündən uyğun olan bəzi hissələrə yer verilir.

## Təbliğə qulaq asmayanlar

"Mən çağırdım siz çəkindiniz. Əlimi uzatdım baxan olmadı. Nəsihətlərimi əhəmiyyət vermədiniz. Mən də buna görə başınıza gələcək müsibətə güləcəyəm. Sizə qorxu gələndə, fırtına kimi gələndə, başınıza gələcək fəlakət qasırğa kimi gələndə istehza edəcəyəm. O vaxt Məni çağıracaqlar, lakin cavab verməyəcəyəm. Tez Məni axtaracaqlar, ancaq tapa bilməyəcəklər. Çünki onlar elmdən nifrət etdilər və Rəbbin qorxusunu seçmədilər. Mənim nəsihətimi istəmədilər. Buna görə də öz yollarının səmərəsindən yeyəcəklər. Və öz sistemlərinə doyacaqlar. Bu adamların dönüklükləri onları öldürəcəkdir. Və ağılsızların qayğısızlığı onları yox edəcəkdir. Fəqət Mənə qullaq asanlar əmin-amanlıqda olacaqlar. Və pisliklərdən qorxuları olmadığı halda rahatlıq tapacaqlar" ("Hz.Süleymanın məsəlləri", Bab 1, 24-33).

# Gözəl əxlaqla balı




***Beşiktaş Rüşdiyyə Məktəbinin tələbələrindən Arif Sülüs və nəsh xətli hədis-i şərif. "Dua da ibadət kimidir" mənasında. H.1297 (m.1880) tarixli.***

"Yaxşılığa haqqı çatan adamlara əlindən gədlən yaxşılığı əsirgəmə. Yanında varsa, qonşuna "Get, sonra gəl" və "sabah verərəm" demə. Qonşun yanında əmin-amanlıqda qalarkən onun üçün şər düşünmə! Sənə qarşı şər etməyibsə, bir adamla boş-boşuna mübahisə etmə! Zalim adama qibtə etmə və onun yollarından heç birini seçmə. Ancaq Rəbbinin dostluğu doğrularladır. Rəbbinin lənəti pislərin evindədir. Ancaq salehlərin yaşadı yeri mübarək edər. Həqiqi Rəbb gülünc vəziyyətdə olanlara istehza edər. Ancaq təvəzökarlara mərhəmət edər. Hikmətli olanlar izzəti miras alacaqlar. Ağılsızlar utancı alacaqlar" ("Hz.Süleymanın məsəlləri", Bab 3, 27-35).

"Doğruluqla addımlayan doğru yolda addımlayar. Ancaq yollarını azdıran məlum olar" ("Hz.Süleymanın məsəlləri", Bab 10, 9).

"Yaxşı adam Rəbbindən mərhəmət görər. Niyyətləri pis olanları isə Rəbb məhkum edər" ("Hz.Süleymanın məsəlləri", Bab 12, 2).

"Salehlərin düşüncələri haqqdır. Ancaq pislərin nəsihətləri hiylədir" ("Hz.Süleymanın məsəlləri", Bab 12, 5).

"Pislər yıxılır və yox olurlar. Ancaq salehlərin evi qalır" ("Hz.Süleymanın məsəlləri", Bab 12, 7).

"Salehə heç zərər dəyməz. Pislər isə şərlə dolar" ("Hz.Süleymanın məsəlləri", Bab 12, 21).

"Ürəyindəki qayğı insanı çökdürür, ancaq yaxşı söz ürəyi sevindirir" ("Hz.Süleymanın məsəlləri", Bab 12, 25).

"Kibirdən ancağ dava meydana gələr, lakin yaxşı nəsihətə qulaq asanın yanında hikmət olar" ("Hz.Süleymanın məsəlləri", Bab 13, 10).

"Sözü yaxşı görməyən özüzərinə həlak gətirər, lakin əmrdən qorxan mükafat alar" ("Hz.Süleymanın məsəlləri", Bab 13, 13).

"Yumşaq cavab hirsi yatızdırar, lakin sərt söz hirsi artırar" ("Hz.Süleymanın məsəlləri", Bab 15, 1).




***Mehmet Əli Əfəndi, Ağ yerdə qara mürəkkəblə yazılıb. Hicri 1371 tarixli. "İbadət edən alimlər Allahdan qorxarlar". Qızıl cədvəli.***

"Sözə qulaq asan yaxşılıq tapar, Rəbbinə güvənən xoşbəxt olar" ("Hz.Süleymanın məsəlləri", Bab 16, 20).

"Yaxşı ad zənginlikdən və mərhəmət görmək gümüş və qızıldan üstün tutulmalıdır. Varlı ilə kasıb qarşılaşırlar. Onların hamısını yaradan Rəbbdir" ("Hz.Süleymanın məsəlləri", Bab 22, 1-2).

"Təvəzökar olmağın və Rəbb qorxusunun sonu sərvət, izzət və həyatdır. Azğın adamın yolunda tikanlar və maneələr var. Canını qoruyan onlardan uzaq qalır" ("Hz.Süleymanın məsəlləri", Bab 22, 4-5).

"Qazancını çoxaltmaq üçün kasıbı əzən, varlıya verən ancaq yoxsulluğa düşər. Qulağını yaxşı və hikmətli adamların sözlərinə qulaq as. Ürəyini mənim elmimə uyğunlaşdır. Çünki onları öz içində gizlətsən daha yaxşıdır..." ("Hz.Süleymanın məsəlləri", Bab 22,

16-18).

"Oğlum, əgər sənin ürəyin hikmətlidirsə, Mənim ürəyim də sevinər. Dodaqların düzgün şeylər danışdığı zaman Mənim könlüm də sevinclə dolar. Ürəyin günahkarlara qibtə etməsin. Ancaq bütün gün Rəbb qorxusunda ol. Çünki həqiqətən bir son var. Ümidin puç olmayacaqdır. Oğlum qulaq as və hikmətli ol və yolda ürəyini düzəlt" ("Hz.Süleymanın məsəlləri", Bab 23, 15-19).

"Öz atana qulaq as. Qocaldığı zaman ananı alçaltma" ("Hz.Süleymanın məsəlləri", Bab 23, 22).

"Həqiqəti satın al və onu satma. Hikməti, tərbiyəni və dərrakəni də" ("Hz.Süleymanın məsəlləri", Bab 23, 23).

"Pislik edənlərə görə hirslənmə. Pis adamlara da qibtə etmə" ("Hz.Süleymanın məsəlləri", Bab 24, 19).

"Mən gördüm, dərin düşündüm. Baxdım, ibrət aldım" ("Hz.Süleymanın məsəlləri", Bab 24, 32).

"Nəfsinə hakim olmayan insan dağılmış və divarsız şəhər kimidir" ("Hz.Süleymanın məsəlləri", Bab 25, 28).

"Səhərisi günlə lovğalanma. Çünki səhərisi gün nə olacağını bilmirsən" ("Hz.Süleymanın məsəlləri", Bab 27, 1).

"Yoxsulları əzən kasıb adam süpürən və çörək buraxmayan yağı kimidir" ("Hz.Süleymanın məsəlləri", Bab 28, 3).

"Qəbahətlərini ört-basdır edən nailiyyət qazana bilməz. Ancaq

onları etiraf edib tərk edən mərhəmət görər. Həmişə qorxan adam nə gözəl bəndədir! Ürəyini qatılaşdıran isə müsibətə düçar olar" ("Hz.Süleymanın məsəlləri", Bab 28, 13-14).

"Öz ürəyinə etimad edən ağılsızdır. Ancaq kim hikmətlə addımlayarsa, o xilas olar. Kim kasıba verərsə, onun nöqsanı olmaz. Ancaq kim ondan üz çevirərsə, o çox lənət olar" ("Hz.Süleymanın məsəlləri", Bab 28, 26-27).

"Qanlı adamlar kamil adamdlan nifrət edərlər. Düzgün adamlar isə onun canını qoruyarlar. Ağılsız bütün hirsini ortaya çıxarar. Hikmətli adam isə onu saxlayar və sakitləşdirər" ("Hz.Süleymanın məsəlləri", Bab 29, 10-11).

"İnsanın bəsirəti hirsinin qarşısını alar. Və günahı bağışlamaq onun gözəlliyidir" ("Hz.Süleymanın məsəlləri", Bab 19, 11).

"Nəsihətə qulaq as və tərbiyə al ki, öz axırın da hikmətli olsun" ("Hz.Süleymanın məsəlləri", Bab 19, 20).

"Hiyləli tərəzi Rəbbə məkruhdur. Ancaq düzgün tərəzi məqbuludur. Lovğalıq gələndə utanc da gələr. Ancaq hikmət təvəzökarladır. Doğruların kamalı onlara yol göstərər. Lakin xainlərin azğınlıqları onları həlak edər. Qəzab günündə malın bir faydası olmaz. Ancaq saleh əməllər ölümdən xilas edər. Ancaq pis adam öz pisliyi ilə alçalar. Doğruların saleh əməlləri onları xilas edər. Ancaq xainlər öz fəsadları ilə tutularlar. Pis adam öldüyü vaxt gözləməyi hədər gedər. Və ümidi də puç olar. Saleh isə sıxıntıdan xilas olar..." ("Hz.Süleymanın məsəlləri", Bab 11, 1-8).




## *İnkar edənlərin yoluna tabe olmamaq*

"Çünki sənin ürəyinə hikmət daxil olacaq. Canına elm xoş gələcək. Ağıl sənə nəzarətçi olacaq. Dərrakə səni qoruyacaq. Ta ki səni şərli adamın yolundan, əyri sözlü adamdan qorusun. Onlar qaranlığın yollarında addımlamaq üçün doğruluq yollarını buraxır-



***Tomas Koul, "Memarın röyası", 1840, Sənət Muzeyi, Ohio.***

lar. Şər etməklə sevinirlər. Şərin çoxalması ilə sevinirlər. Onları yolları əyridir..." ("Hz.Süleymanın məsəlləri", Bab 2, 10-15).

"Pislərin yolu ilə getmə, şərli adamları yolu ilə addımlama. Sən ondan çəkin, yanından keçmə. Onun yanından başqa tərəfə dön

keç. Çünki onlar pislik etməsələr yata bilməzlər. Heç kimi yolundan azdıra bilməsələr yuxuları qaçar" ("Hz.Süleymanın məsəlləri", Bab 4, 14-16).

## Dürüst olanların yolu

"Yaxşı adamların yolunda yeri və salehləçrin yolunu tut. Çünki məmləkətdə doğru adamlar oturacaqlar. Və kamillər orada qalacaqlar. Ancaq pis adamlar məmləkətdən çıxarılacaqlar. Xainlər oradan qovulacaqlar" ("Hz.Süleymanın məsəlləri", Bab 2, 20-22).

"Salehlərin yolu isə ortaya çıxan işıq kimidir. Gün olana kimi get-gedə parıldayarlar. Pislərin yolu zülmət qaranlıq kimidir. Niyə yıxıldıqlarını bilməzlər" ("Hz.Süleymanın məsəlləri", Bab 4, 18-19).

## Ancaq Allaha güvənmək

"Bütün ürəyinlə Rəbbə güvən. Öz dərrakənə güvənmə. Bütün yollarında Onu tanı. O da sənin yollarını düzəldər. Öz gözündə hikmətli olma. Rəbbdən qorx və şərdən ayrıl. Sənin bədəninə şəfa və sümüklərinə ilik olacaqdır. Malınla və bütün məhsulunla Rəbbi ucalt. Beləliklə anbarların bol-bol dolar..." ("Hz.Süleymanın məsəlləri", Bab 3, 5-10).

## Hikmətin əhəmiyyəti

"Hikmət çağırmırmı və dərrakə səsinini eşitdirmirmi? Yol kənarındakı yüksək yerlərin başında yolların birləşdiyi yerdə o dayanır. Qapıların yanında, şəhərin qapısında, qapılara daxil olunacaq yerdə yüksək səslə çağırır: Ey insanlar! Sizi çağırıram və sözüm adəmoğullarınadır. Ey adamlar ayırd etməyi öyrənin. Ey

ağılsızlar başa düşün. Qulaq asın çünki əla şeylər söyləyəcəyəm. Dodaqlarımın açılması doğru şeylər üçün olacaq. Çünki ağzım həqiqəti bəyan edəcək. Pislik dodaqlarıma məkruhdur. Ağzımın bütün sözləri saleh əməllərdir. Onlarda tərs, yaxud əyri şey yoxdur. Başa düşənə onların hamısı açıqdır. Elmi taapanlar üçün doğrudur. Gümüşü deyil, tərbiyəni, xalis qızıldan çox elmi alın. Çünki hikmət yaqutdan yaxşıdır. Xoş olan bütün şeylər ona bərabər ola bilməz. Mən hikməti, bəsirəti özümə məskən etdim. Və tədbir bilgisini tapıram. Rəbb qorxusu şərdən nifrət etməkdir. Kibirdən, qürurdan, şər yoldan və əyri sözdən nifrət edirəm. Nəsihət və səhih bilgi mənimdir. Mən dərrakəyəm, qüdrət mənimdir. Mənim vasitəmlə krallar hakimiyyət qurarlar və idarəçilər ədalətli əmr edərlər. Rəislərlə bəyzadələr, dünyanın bütün hakimləri vasitəmlə hökm edərlər. Məni sevənləri Mən də sevərəm. Tez axtaranlar Məni taparlar. Sərvət və izzət, dözümlü mal və salehlər yanımdadır. Meyvəm qızıldan, xalis qızıldan daha yaxşıdır. Məhsulum seçmə gümüşdən yaxşıdır. Saleh yolunda, ədalət yolları ortasında addımlayaram. Ta ki məni sevənləri mala vərəsə edim. Və onların xəzinələrini dodurum..." ("Hz.Süleymanın məsəlləri", Bab 8, 1-21).

"Rəbb qorxusu hikmətin başlanğıcıdır. Və Qüddüsü tanımaq anlayışdır. Çünki günlərin mənim vasitəmlə çoxalacaq. Və ömrünün illəri çoxalacaq. Əgər hikmətlisənsə, özün üçün hikmətlisən. Əgər istehza etsən, onu ancaq sənin öz üzərinə götürmüş olarsan" ("Hz.Süleymanın məsəlləri", Bab 9, 10-12).əə

# Hz.Süleyman, Hz.Zülqərneyn və Mehdi oxşarlıqları

Kitabın əvvəlki hissəsində Hz.Süleyman qissəsindən axır zamana aid müxtəlif işarələrə toxunduq və axır zamanda, "Qızıl əsr"də İslam əxlaqının dünyada hakim olmasının Hadi simasını daşıyan bir şəxsi-mənəvinin (Mehdi) vasitəsilə olacağını bildirdik.

Peyğəmbər əfəndimizdən (s.ə.v.) rəvayət edilən hədislərdə axır zamandan və "Qızıl əsr"in əlamətlərində xəbər verilir. Gündəlik həyatımızda qarşılaşdığımız hadisələri bu əlamətlərlə müqayisə edəndə isə axır zamanın içində yaşadığımız dövr olduğunu göstərən və eyni zamanda "Qızıl əsr"in gəlişini müjdələyən bir çox işarə görməkdəyik.

Hədislərdə axır zamanın başlanğıcı fitnələrin çoxaldığı, savaş və qarşıdurmaların artdığı, dünyada çox böyük bir əxlaqsızlığın baş qaldırdığı, din əxlaqından uzaqlaşıldığı bir xaos dövrü kimi təsvir edilir. Sözügedən dövrdə bütün dünyada təbii fəlakətlər olacaq, kasıblıq heç bir dövrdə olmadığı qədər artacaq, cinayətlər və soyqırımılar bir-birini əvəz edəcək. Ancaq bu, axır zamanın sa-

dəcə olaraq ilkin mərhələsidir; ikinci mərhələdə Allah Mehdini səbəb salaraq insanları bu xaosdan qurtaracaq.

Əlbəttə, burada sayılan bütün hadisələr tarixdə bir neçə dəfə yaşanmışdır. Bəşəriyyət tarix boyu dəfələrlə müharibə, təbii fəlakət və ya zəlzələ görmüşdür. Əxlaqi degenerasiya hər dövrdə müxtəlif cəmiyyətdə baş vermiş, kasıblıq və aclıq bütün dünyada yaşanmışdır. Axır zaman əlamətlərini bu hadisələrdən ayıran fərq isə bu əlamətlərin hamısının eyni dövrdə, bir-birinin ardınca və hədislərdə göstərildiyi şəkildə gerçəkləşməsidir. Burada bunu da müjdələməliyik ki, Peyğəmbərimizin (s.ə.v.) hədislərində göstərilən bu böyük xaos sadəcə müvəqqəti bir dövrdə yaşanacaq və "Qızıl əsr"in başlanması ilə bu dövrün sonu gələcək.

"Qızıl əsr" müharibələrin və savaşların sona çatdığı, insana böyük bəlalar gətirən dinsiz ideologiyaların tarixin qaranlıqlarına gömüldüyü və dünyanın bolluq, bərəkət və ədalətlə coşub-daşdığı bir dövr olacaq. İslam əxlaqı bütün dünyaya yayılacaq, insanlar axın-axın dinə meyl edəcəklər. İslam əxlaqının bu böyük hakimiy-



***Mehmed Nuri (Beşiktaşlı). Hicri 1364 tarixli sülüs xətt. Qurandan bir ayə yazılıb: "Allah hər şeyi eşidir və bilir".***

yəti - əvvəl də vurğuladığımız kimi - Peyğəmbər əfəndimizin (s.ə.v.) bəzi hədislərində Hz.Süleyman və Hz.Zülqərneynin dünya hakimiyyətlərinə bənzədilərək tərif edilmişdir. Bunlardan bəziləri belədir:

**"Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcəkdir" (Əl-Qavlul muxtasər fi əlamatil Məhdiyil muntəzər, səh 29).**

**"Bütün yer üzünün mələyi dörd dənədir. Onların ikisi - Zülqərney və Süleyman möminlərdən, digər ikisi - Nəmrud və Buhtunnəsr kafirlərdəndir. Yerə beşinci olaraq əhli beytimdən biri sahib olacaq. Yəni Mehdi" (Məktubati Rəbbani, 21163).**

Qarşıdakı bölümlərdə axır zamanda olduğumuzu və eyni zamanda da gözəl "Qızıl əsr" dövrünün çox yaxın olduğunu göstərən əlamətlərdən bəzi nümunələr veriləcək. (Axırzaman əlamətləri ilə bağlı ətraflı məlumat üçün "Qiyamət əlamətləri", "Qızıl əsr", ""Qızıl əsr" və Dəbbətül-Ərz" adlı kitablarımıza baxa bilərsiniz).

***"Sistemlərin dəyişdiyi bu dövrdə Mehdi adlı bir adam gələcək..." (Kitabul bürhan fi əlamət-il Məhdiyil axırzaman, səh.14).***

Bu hədisdə Peyğəmbər əfəndimiz (s.ə.v.) Mehdinin "sistem-

lərin dəyişdiyi" bir dövrdə gələcəyini bildirmişdi. Bu hədisdə işarə edilən "sistem dəyişikliyi"nin XX əsrdə bütün dünyada hakim olan və əsrin sonlarına doğru süqut edən kommunist rejimi olması ehtimal edilir.

XX əsrə damğasını vuran qanlı müharibələrin və soyqırımların ən böyük səbəblərindən biri materialist fəlsəfənin məhsulu olan kommunist ideologiyasının hakimiyyətidir. Bu ideologiya Avropadan Asiyaya, Cənubi Amerikadan Afrikaya qədər dünyanın böyük bir hissəsinə təsir etmiş, bir çox ölkələr illərlə kommunist rejimləri tərəfindən idarə edilmiş və kommunist təşkilatlar tərəfindən hədəfə alınmışdır. 1990-cı ilə qədər davam edən "soyuq müharibə"nin nəticəsinə soyqırımların səbəbi kommunizm olmuşdur.

Kommunist rejimləri digər ölkələrlə savaşaraq ideologiyalarını zorla yaymaqla yanaşı çox geniş kütlələri edam edərək bir çox soyqırımlar törətmiş, düşərgələrdəki ağır şərtlər və qıtlıqlar kimi üsullarla öz xalqlarına da böyük zülmlər vermişdir.

Tarixçilərin qənaətinə görə, kommunistlər XX əsr boyu 120 milyon insanın ölümünə səbəb olmuşdur. Bunların çoxu müharibə zamanı cəbhədə ölən əsgərlər deyil, kommunist dövlətlərin öz xalqının içindən öldürdüyü vətəndaşlardır. On minlərlə kişi, qadın, yaşlı, uşaq sadəcə kommunist rejimlərinin qatı vəhşilikləri üzündən həyatını itirmişdir. Bundan əlavə milyonlarla insan kommunistlərin zülmünə düçar olmuş, bu səbəbdən məcburən köçürülmüş, əllərindən malları, tarlaları alınmış və hər an öldürülmə, günahsız yerə tutulma və zülm görmə qorxusu altında yaşamışlar.

Ancaq çox güclü və sarsılmaz kimi tanınan bu ideologiyaya malik rejimlər XX əsrin sonlarına doğru yavaş-yavaş dağılmağa, güclərini itirməyə başladılar. Bu süqutun ən açıq rəmzi 1989-cu ildə Berlin divarının yıxılmasıdır. İki ildən sonra dünyanın ən böyük və güclü kommunist dövləti olan Sovetlər Birliyi yıxılmış və Şərq Bloku tamamilə parçalanmışdı. Afrikadan Hind-Çinə qədər bir coğ-

rafiyada fərqli kommunist rejimləri bir-birinin ardınca süqut etmiş, 1945-ci ildən etibarən dünyanın sabit beynəlxalq sistemi olan "ikiqütblü dünya düzəni" ortadan qalxmış, siyasi şərhçilərin dediyi kimi, yeni bir dünya düzəni qurulmuşdur. Hədisdə bildirilən "sistem dəyişikliyi" hər kəsi çaşdıran bu hadisə ilə həyata keçmişdir.

Bu gün isə - istər kommunizmin, istərsə də onunla eyni fikrə malik digər bir totalitar sistem olan faşizmin - son ideya və siyasi qalıqları da yox olmaqda, dünya bu qanlı ideologiyalardan tamamilə təmizlənməkdədir. İslam əxlaqının dünyaya yayılması ilə bu sistemlərin bütün dünyaya gətirdiyi zülm, kədər qaranlıq və yoxsulluq yer üzündən sözün əsl mənasında silinəcək, insanlar gözəlliyə, zənginliyə, rifah və rahatlığa qovuşacaqlar. Allah


The New York Times

DECLARING DEATH OF SOVIET UNION, RUSSIA AND 2 REPUBLICS FORM NEW COMMONWEALTH

Frantic Moves Came to Light In Days Before Maxwell Died

***1945-ci ildən davam edən ikiqütblü dünya sistemi SSRİ-nin süqutu ilə ortadan qalxdı. Bu, eyni zamanda yeni bir dünya sisteminin də başlanğıcı sayılır.***












***Berlin divarının 1989-cu ildə yıxılması kommunizmin yıxılmasının bir simvolu olaraq görülür. Kommunist ideologiyasının ən mühüm liderlərindən sayılan Leninin uca heykəllərinin yıxılıb xalq tərəfindən parça-parça edilməsi isə hədisdə bildirilən sistem dəyişikliyinin açıq sübutlarından biridir.***

çətinliklərin, qaranlıqların, müharibə və soyqırımların ardınca rəhmətinin və böyüklüyünün bir nümunəsi olaraq insanlara bənzərsiz nemətlərini verəcək.

***"Axır zamanda ümmətimin başına sultanlarından şiddətli bəlalar gəlir, belə ki, yerlər müsəlmanlara dar gəlir"***
***(Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.12).***

Bu hədis Mehdi gəlməzdən qabaq bəzi müsəlman ölkələrində din əxlaqından uzaq, zalım və qəddar xarakterli və ya bacarıqsız insanların iqtidarda olacağına işarə edir. Həqiqətən də bu gün İslam dünyasının bir hissəsində iqtidarda olan rəhbərlər müsəlman xalqa əziyyət verməkdə, mürtəce və despot rejimləri ilə insanları əzməkdədir. Bir qismində isə aqil olmayan rəhbərlər üzündən xalq müxtəlif bəlalara məruz qalır. İraq, Liviya, Suriya, Somali, Efiopiya, Əfqanıstan, Tunis və Cibuti kimi ölkələr başda olmaqla müsəlmanlar ölkəni idarə edən liderlər tərəfindən müxtəlif təzyiq və çətinliklərə məruz qalır. Müsəlmanların dini sərbəst şəkildə yaşaması və dini ibadətləri icra etməsi əngəllənir, iqtisadi çətinliklər həyatı ağırlaşdırır. Bu ölkələrin bəzilərində baş verən hadisələrə nümunələr bunlardır.

İranla müharibədə 3 milyonluq əhalisinin təqribən 1 milyonunu itirən İraqda faşist diktator Səddam Hüseyn xalqına ağlagəlməz işgəncələr və zülm vermişdir. İraq müsəlmanları 2003-cü ilin

martına qədər Səddamın faşist idarəçiliyi altında əzilməkdə, onun ağılsız siyasəti üzündən beynəlxalq blokadalara məruz qalmaqda idi.

1979-cu ildə sovet Rusiyası tərəfindən işğal edildiyi gündən bəri Əfqanıstanda qərarsızlıq və özbaşınalıq hakim olmuş, həqiqi İslamı heç bir şəkildə təmsil etməyən iqtidarlar çox qəddar, despotik və xoşagəlməz bir sistem qurmuşdular.

Afrikanın ən kiçik ölkələrindən olan Cibutidə 1977-1991-ci illər arasında 2 minə yaxın müsəlmanın qətlə yetirilməsi, 7 min insanın səbəbsiz yerə tutulub işgəncə verilməsi bir rejim tərəfindən həyata keçirilirdi.

Somalidə 1969-cu ildən 1991-ci ilə qədər təqribən 20 il birbaşa müsəlmanları hədəfə alan general-leytenant Məhəmməd Siad Biarenin liderliyində despotik bir rejim quruldu.





*Hafiz Əsad iqtidarda olduğu 30 ildə çox böyük soyqırımlar gerçəkləşdirdi. Bunlardan biri də Hama şəhərində bir gündə 40 min müsəlmanın vəhşicəsinə öldürülməsidir.*



*Əfqanıstanda 10 il davam edən Qırmızı Ordu işğalı özündən sonra on minlərlə ölü, bir o qədər də şikəst qoydu. Sovetlərin geri çəkilməsindən sonra başlayan daxili toqquşmalar isə ölkəni böyük bir xaosa sürüklədi.*

*İraq lideri Səddam Hüseyn uzun illər idi ki, həm öz xalqına, həm də qonşu ölkələrdəki müsəlmanlara qarşı böyük bir təzyiq və zülm siyasəti yürütməkdə idi.*









*Həbib Burqiba iqtidarı boyu müsəlman Tunis xalqına müxtəlif zülmlər etmişdir.*





*Somalidə iqtidara gələn rəhbərlərin ən mühüm işi İslama qarşı çıxmalarıdır. Somalidə Siad Barre dövründə başlayan vətəndaş müharibəsi hələ də davam etməkdədir.*

Tunis 31 il Həbib Burqibanın diktator rejimi altında idarə olundu. Özünü "ömürlük prezident" elan edən Burqiba iqtidarda olduğu müddətdə müsəlman xalqını təzyiq altında saxladı.

Suriyalı müsəlmanlar Hafiz Əsədin 30 illik diktatorluğunda müxtəlif işgəncələrə məruz qaldılar. Qadınlara təcavüz edildiyi, kişilərə hər cür işgəncələrin verildiyi soyqırımlarda bəzi şəhərlər tamamilə aradan götürüldü.

***"Tozlu-dumanlı, qaranlıq bir fitnə görünəcək, bunu digərləri əvəz edəcək" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.26).***

Bu hədisdə isə Mehdinin zühurundan əvvəl tozlu-dumanlı, qaranlıq bir fitnənin görüləcəyindən söz gedir. "Fitnə" - "insanın ağıl və qəlbini birbaşa haqdan və həqiqətdən uzaqlaşdıracaq şey, savaş, qarışıqlıq, dava, ixtilaf" kimi mənaları olan bir kəlmədir. - 15. Hədisdə bir fitnənin arxasınca toz-dumanın qalxacağı bildirilir. Üstəlik bu fitnənin "qaranlıq" kimi səciyyələndirilməsini onun haradan gəldiyi məlum olmayan, gözlənilməz bir hadisə olduğuna işarə kimi qəbul etmək olar.

Bu perspektivdən baxdıqda sözügedən hədisin 2001-ci il sentyabrın 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində meydana gələn, dünya tarixinin ən böyük terror hadisəsi kimi xarakterizə edilən basqına işarə etməsi ehtimal olunur. Televizor ekranlarından və qəzetlərdən də göründüyü kimi, bu iki böyük ter-


New York toz duman
Kriz merkezi de kulelerle çöktü!



*Hadisə bildirilən "tozlu-dumanlı, qaranlıq fitnə" şəkillərdən göründüyü kimi, 11 sentyabr terror hücumunun açıq nümunələrindəndir.*

ror hadisəsindən sonra ətrafı böyük bir toz buludu və duman bürümüşdü.

Nyu-Yorkdakı Ümumdünya Ticarət Mərkəzinə və Vaşinqtonda Pentaqon binasına çırpılan təyyarələrin yanacağının səbəb olduğu partlayışlar nəticəsində böyük bir duman yaranmış və bu duman bütün şəhərdən və hətta uzaq ətrafdan görünəcək qədər yüksələrək yayılmışdı. Partlayışlar nəticəsində dağılan binalar isə böyük bir toz buluduna səbəb olmuş, hətta ətrafdakı insanların üst-başı da tamamilə tozla örtülmüşdü.

Bu hadisə həm dünya tarixinin ən böyük terror hücumlarından biri olması, həm də digər əlamətlərlə yaxın dövrdə baş verməsi və üstəlik hədisdə edilən tərifəbənzər xüsusiyyətlər daşıması ilə çox önəmlidir. Ümumiyyətlə, minlərlə məsum insanın ölümünə və yaralanmasına gətirib çıxaran insanlıq tarixinin bu ən böyük terror hadisəsi hədisdə xəbər verilən və Mehdinin zühurunun bir əlaməti kimi bildirilən "tozlu, dumanlı, qaranlıq fitnə" ola bilər.

***"Mehdidən əvvəl geniş soyqırımların baş verəcəyi böyük bir fitnə görüləcəkdir" (Əl-Qavlul müxtəsər fi əlamətil Mehdiyyil müntəzər, s.37).***

Peyğəmbərimizin (s.ə.v.) Mehdinin zühuru ilə bağlı bildirdiyi hədislərin böyük bir qismi Mehdi gəlməzdən əvvəl dünyada qarışıqlıq və təhlükəsizliyin hakim olacağı üzərində qurulub. Mü-

haribələr və qarşıdurmalarla yanaşı kütləvi soyqırımların olacağı da bu dövrün özünəməxsusluqları arasındadır. Onu da qeyd edək ki, hədisdə soyqırımların geniş yayılacağına, yəni bütün dünya səviyyəsində yaşanacağına diqqət çəkilir.

Ötən əsrdə iki böyük dünya müharibəsi olmuş və sırf bu müharibələrdə 65 milyon insan həyatını itirmişdir. XX əsr boyu siyasi səbəblərlə qətlə yetirilmiş vətəndaşların sayının 180 milyonu keçdiyi güman edilir. Bu, əvvəlki əsrlərlə müqayisədə fövqəladə dərəcədə böyük bir rəqəmdir. Həqiqətdə XX əsrədək dünyadakı müharibələr çox vaxt bir cəbhə savaşı şəklində olur, yəni müəyyən bir xətt üzərində mübarizə aparan ordular arasında baş verirdi. Ancaq XX əsrdən silah texnikası və bununla yanaşı inkişaf etdirilən hərbi strategiyalar "tam yekun savaş" anlayışını ortaya çıxarmış, müharibələr sadəcə cəbhədəki əsgərləri deyil, cəbhə arxasındakı vətəndaşları da hədəfə almışdı. Şəhərlərin bombalanması, kimyəvi, bioloji və nüvə silahları, soyqırım, kütləvi həbs düşərgələri kimi anlayışlar sadəcə XX əsrə xasdır.

Sözügedən vəhşiliklər sürməkdə, hal-hazırda bütün dünyada qanlı müharibələr davam etməkdədir. Bu müharibələrin ortaq xüsusiyyətləri isə onların yuxarıdakı hədisdə bildirildiyi kimi, kütləvi soyqırımların yaşandığı müharibələr olmasıdır. Bir yandan kütləvi qırğın silahlarından istifadə edilməsi, digər yandan da müharibəyə, qan tökməyə sövq edən ideoloqların hökmranlığı soyqırımların çox geniş yayılmasına səbəb olur.



Yaxın tarixə baxdıqda xeyli sayda insanın həyatını itirdiyi bir çox qətliam nü-

munələrini görmək mümkündür. Məsələn, Yuqoslaviya müharibəsi tarixə daha çox dinc əhalinin hədəf seçildiyi, qadın, uşaq, yaşlı demədən minlərlə insanın qətlə yetirildiyi bir müharibə kimi düşmüşdür. Müharibədən sonra aşkarlanan məzarlar isə soyqırımı faktlarını aşkara çıxaran geniş bir sübutdur.

1940-cı illərdən bəri Fələstin xalqına qarşı aparılan digər bir "etnik təmizləmə" əməliyyatı isə daha uzunmüddətli bir soyqırımı siyasətidir. Bu siyasətin Sabra və Şatilla soyqırımları kimi nümunələri yaşanan dəhşətli hadisələrin miqyasını göstərir.

Afrika qitəsində də tez-tez müxtəlif etnik qruplar arasında şiddətli qarşıdurmalar yaranır və minlərlə insanın həyatına son qoyur. 1997-ci ilin yazında beş böyük ölkəni - Zair, Ruanda, Uqanda, Burundi və Tanzaniyanı əhatə edən bir müharibə iki böyük qəbilə - Hutu və Tutsi qəbilələri arasında baş verdi. Bu etnik müharibədə yarım milyona yaxın insan həyatını itirdi. On minlərlə insan meşələrdə aclıq, yoxsulluq, yoluxucu xəstəliklərlə mübarizə apardı və çox böyük bir qismi öldü. Kiçik uşaqlar və südəmər körpələr sırf başqa bir qəbilədən olduqları üçün vəhşicəsinə öldürüldülər.

***"Günahsız insanlar öldürülənə qədər Mehdi ortaya çıxmayacaq və bu vəhşiliklərə yerdəkilər və göydəkilər artıq dözə bilməyəcək bir hala gəldikdə zühur edəcəkdir"***
***(Əl-Kəvlul müxtəsər fi əlamət-il Mehdiy-il müntəzər, səh.37).***







*Yuqoslaviyada bütün insanların gözü qarşısında böyük bir soyqırım yaşandı və başa çatdı. Ancaq hələ də tapılmaqda olan məzarlar soyqırımın miqyasını ortaya qoyur.*

*Çeçenistan torpaqlarında illərdir davam edən vuruşmalarda minlərlə günahsız insan həyatını itirdi. Bir çox insanlar da köçkün vəziyyətinə düşdülər. Bunların çoxu isə yollarda həyatını itirdi (solda).*



*Hutu və Tutsi adlı qəbilələrin etnik münaqişəsi 500.000 ölü ilə nəticələndi və Zair, Uqanda, Ruanda, Burundi və Tanzaniyaya çox pis təsir göstərdi (solda).*





*XX əsrin ikinci yarısı boyu İsrail rəhbərliyinin içindəki sionistlər müdafiəsiz Fələstin xalqına qarşı dəhşətli bir soyqırımı törətdi. Minlərlə insanın olduğu Səbra və Şatilla qətliamı bunlardan sadəcə biri idi. Bu zülm və təzyiq bu gün də çox sürətlə davam edir (yuxarıda).*

Mehdinin zühuru ilə bağlı hədislərdə soyqırımların yayılacağından bəhs edilərkən bu savaşların dinc insanları hədəf seçəcəyinə xüsusi diqqət çəkilir. Əvvəllər də vurğuladığımız kimi, bu gün demək olar ki, bütün müharibələrdə başlıca hədəf dinc sakinlərdir. Müharibələr əsasən dinc xalqa qarşı yönəldilməkdə, çox vaxt uşaqlar, yaşlılar və qadınlar qətlə yetirilməkdədir. Xüsusilə də özlərini müdafiə etmək imkanı olmayan bu insanların hədəf seçilməsi müharibədə həyatını itirənlərin sayının böyük olmasına səbəb olur.



***Səddam Hüseynin Hələbçədə törətdiyi soyqırımdan görüntülər.***

Müharibələrdə və ya müxtəlif qarşıdurmalar zamanı gerçəkləşdirilən soyqırımlarla yanaşı xüsusilə də son illərdə qarşımıza çıxan terror əməlləri də xalqın kütləvi şəkildə məhv edilməsi ilə nəticələnir. Terrorizmin məqsədi xalq arasında qorxu və dəhşət yaymaq olduğundan bu növ basqınların hədəfi də əsasən dinc əhalidir. Terrorçular ticarət mərkəzləri, restoranlar, kafelər, məktəblər kimi müdafiəsiz qadınların, gənclərin və uşaqların olduğu yerləri hədəf seçdiyi üçün dünyanın müxtəlif ölkələrində bir çox insan həyatını itirməkdədir.

"Heç bir yerin ondan kənar qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən başqa hər tərəfə yayılacaq" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.21-22).















***Bütün dünyada həyata keçirilən terrorist hücumlarda, bombalamalarda və müharibələrdə hədəf olaraq hər zaman günahsız insanlar seçilir.***

***"Heç bir yerin ondan kənar qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən başqa hər tərəfə yayılacaq"***
***(Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.21-22).***

Yuxarıdakı hədisdə dünyaya fasiləsiz şəkildə yayılan və uzun müddət davam edən bir fitnədən danışılır. "Fitnə" sözü qeyd etdiyimiz kimi, "müharibə, qarışıqlıq, ixtilaf, dava" deməkdir. Sözün bu mənalarını düşündükdə görünür ki, hədisdə də ifadə edildiyi kimi, "xüsusilə də son bir əsrdir qaldığı yerdən dərhal başqa









*XX əsrdə baş vermiş müharibə və müxtəlif vuruşmalardakı ölüm nisbətlərini göstərən tablolar.*
*Yuxarıda 1950-1975-ci illərdə dünyanın müxtəlif yerlərində ölən insanların sayı göstərilir.*
*Aşağıdakı tabloda isə 1975-2000-ci illər arasında dünyada ölən insanların bölgələrə görə sayı göstərilir.16*





*Hədisdə axır zamanın başlanğıcında bir-birini əvəzləyən fitnələrdən söz gedir. Hədisdə də qeyd edildiyi kimi, XX əsr bitib-tükənməz vuruşmaların və soyqırımların yaşandığı bir əsr idi.*





Sekiz asırlık mezhep savaşı

Tarih ve Medeniyet, Temmuz 1994





Dünya silahlanıyor

Tğrkiye, 11 Temmuz 2001

bir tərəfə yayılan" müharibələr, daxili qarşıdurmalar bütün dünyada sonu gəlmədən davam edir. Xüsusilə də arxada qoyduğumuz XX əsr "Müharibələr əsri" kimi xatırladılır. Yaşadığımız XXI əsr isə müharibə və terror əməlləri ilə başlamışdır və hələ də dünyanın dörd bir yanında davam etməkdədir.

Əvvəl də qeyd etdiyimiz kimi, XX əsr müharibələrində 180 milyona yaxın insan həyatını itirdi. Bəşəriyyət tarixində ilk dəfə bir əsr ərzində bu qədər insan müharibələr üzündən həyatını itirmiş oldu. Yenə də XX əsrdə hər biri ən azı 6000 insanın ölümünə səbəb olan 165 müharibə və münaqişə meydana gəldi.17.

Son 25 ildə dünyanın hansı bölgələrində müharibə və daxili qarşıdurmaların olması məsələsini nəzərdən keçirəndə dünyanın bir yerdə bitib digərində başlayan fitnələrdən qurtula bilmədiyini görmək mümkündür. Bosniya-Herseqovina, Kosovo, Albaniya, Bolqarıstan, İran, İraq, Əfqanıstan, Çeçenistan, Fələstin, İsrail, Şimali Koreya, Kamboca, Şərqi Türküstan, Efiopiya, Somali, Yəmən, Uqanda, Əlcəzair, Ruanda, Mozambik, Anqola, Konqo, Liberiya, Burundi, Sudan, Livan, Argentina, Şimali İrlandiya, Salvador, Nikaraqua son 25 ildə müharibələrin və daxili qarşıdurmaların olduğu ölkələrdən sadəcə bəziləridir.

Dünyada müharibələr və toqquşmalar çoxdur, ancaq XX əsrdə meydana gələn müharibələr və soyqırımlar bütün dünya tarixində baş verənlərdən bir çox xüsusiyyətləri ilə seçilir. Qeyd edildiyi kimi, bu müharibələrdə ölənlərin sayı bütün müharibələrdə ölənlərin sayından çoxdur. Üstəlik, tarix boyu müharibələr həmişə bir zonada baş vermiş, bir yerdən digərinə sıçrayaraq bütün dünyaya yayılmamışdı. XX əsrdə isə bu toqquşmalar bütün dünyanı bürümüşdür. Ötən əsrdə müharibə və ya toqquşma görməmiş, terror hadisələrini yaşamamış bircə ölkə belə yox kimidir.

XX əsr müharibələrini digərlərindən fərqləndirən bir başqa cəhət də güclü silahlardan istifadə edilməsidir. Bu əsrdə xüsusilə

də nüvə və kimyəvi silahlardan istifadə edilməsi ilə çox dəhşətli soyqırımlar törədilmiş, sadəcə o müharibəni görən nəsillər deyil, sonrakı bir və ya bir neçə nəsil də böyük zərər görmüşdür. Bunların başında 1945-ci ildə Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atılan atom bombaları gəlir.

İndi də bioloji müharibə ən böyük təhlükələrdən biri kimi görülür. Həmçinin 11 sentyabr terror hücumlarından sonra ABŞ-da bəzi ünvanlara məktublarla göndərilən şarbon bakteriyası buna bir nümunədir və indidən bir çox insanın ölümünə səbəb olmuşdur.

Nəticə olaraq deyək ki, hədisdə sözügedən və dünyanın bir çox yerinə yayılan fitnənin XX əsrdə başlayan və XXI əsrdə də davam edən müharibələr, toqquşmalar, qarşıdurmalar və terror hadisələrinin olması ehtimalı çox yüksəkdir. Bütün bunlar "Qızıl əsr"in yaxınlaşmasının və axır zamanın yaşanmaqda olmasının əlamətləri ola bilər.

***"İnsanların ümidsiz olduğu və "Heç Mehdi-filan yoxmuş" dediyi vaxt Allah Mehdini göndərir..." (Kitab-ül bürhan əlamət-il Mehdiyy-il axır zaman, səh.55).***

Yuxarıdakı hədisdə "Qızıl əsr"in əlamətlərindən birinin insanların "Mehdinin gəlməyəcəyinə görə" bir ümidsizliyə qapılması olduğu bildirilir.



Axır zamanda müharibələr, aclıq, ədalətsizlik, əxlaqi tənəzzül və müxtəlif yoluxucu xəstəliklər içində yaşayan insanlar bütün bu mənfiliklərin ortadan götürüləcəyinə dair inanclarını itirir. Müsəlmanlar arasında bir çox insanlar "Qızıl əsr"in başlayıb İslam əxlaqının dünyaya hakim olacağı istiqamətindəki ümidlərini itirir və fitnələrin çoxalaraq davam edəcəyinə inanır.

Həmçinin bu gün də belə insanlara tez-tez rast gəlinir. Peyğəmbər əfəndimizin (s.ə.v.) Mehdinin gəlişi və "Qızıl əsr"də yaşanacaq gözəlliklərə aid çoxlu hədisi olsa da bir çox insanlar belə bir dövrün olmayacağını zənn edir. Elə bunun özü də axır zaman əlamətlərindən biridir. "Qızıl əsr" bu ümidsizliyin insanlar arasında geniş yayıldığı bir vaxtda Allahın insanlara olan rəhməti sayəsində başlayacaq.

Ortado¤u, 16 Eylğl 2000

**Dünyada yoksulluk AZALMIYOR, ARTIYOR**



**Adliye önünde cinayet**

**Brezilya'da 50 milyon aç**



Evrensel, 14 Temmuz 2001

**2.5 MİLYON İNSAN açlıkla karşı karşıya**

Etiyopya'da yaklaşık 2.5 milyon kişi aç kalma tehlikesinde. BM bunun için 89.7 milyon dolarlık yardıma ihtiyaç olduğunu açıkladı.

Akit, 12 Nisan 2001

***Bu gün qəzet səhifəsindən əskik olmayan aclıq və yoxsulluq xəbərləri hədislərdə bildirilən axır zaman əlamətlərindəndir. XXI əsrdə yenə bütün dünya aclıq və yoxsulluqla mübarizə aparmaqdadır. Bu hal Allahın izni ilə "Qızıl əsr"in başlanması ilə bitəcək.***



*Peyğəmbərimizin (s.ə.v.) axır zamanı təsvir edən hədislərində ən çox üzərində durduğu mövzulardan biri də aclığın, yoxsulluğun bütün dünyanı bürüməsidir. Ancaq "Qızıl əsr"də bu qaranlıq dövr başa çatacaq və Allahın vədi gerçəkləşəcək, yaşadığımız əsr aydınlıq əsri olacaq.*

***"Yoxsullar çoxalacaq"* (*Ölüm-qiyamət-axirət və axır zaman əlamətləri, səh.455*).**

***"Aclıq və bahalıq mümkün qədər çox yayılacaq"* (*Ölüm-qiyamət-axirət və axır zaman əlamətləri, səh.440*).**

Peyğəmbər əfəndimizin (s.ə.v.) Mehdidən əvvəl yaşanacaq aclıq və yoxsulluqla bağlı yuxarıdakı hədislərinə bənzər daha bir neçə hədisi var. Şübhəsiz ki, tarix boyu aclıq və səfalət həmişə olmuşdur. Ancaq axır zamanda yoxsulluq bütün dünyada sürətli bir şəkildə artacaq.

Bu gün dünyanın hər yerində yemək-içməkdən məhrum, sağlam şərtlər altında yaşamayan, sığınacaq yeri olmayan insanlar var. Bu hal Afrika, Asiya, Cənubi Amerika başda olmaqla Amerika və Avropa ölkələrində də geniş şəkildə davam edir. İnsanların az bir qismi çox böyük bir rahatlıq və rifah içində yaşayarkən milyonlarla insan yoxsulluqdan əziyyət çəkir. 2000-ci il ərəfəsində yazılan bir məqalədə dünyadakı vəziyyət bu şəkildə açıqlanır:

"Yeni bir ilə addım atarkən hər gün yoxsulluqla bağlı səbəblər üzündən 35000 uşağın həyatını itirdiyi bir dünya ilə qarşı-qarşıya gəlirik. Bu da hər 2,5 saniyədə bir uşağın öldüyünü göstərir.

Elə bir dünya ilə qarşılaşırıq ki, yoxsulluqla yaşayan insanların sayı hər gün artır və axır vaxtda bu rəqəm 1,5 milyarddır. Bu da Çinin əhalisinin sayında artıq, Avropa Birliyi ölkələrinin ümumi əhalisinin dörd qatına bərabərdir.

...Yaşadığımız dünyada varlı ilə kasıb arasındakı fərq çox sürətlə artır. Birləşmiş Millətlər Təşkilatının rəqəmlərinə görə, 1960-cı ildə dünyada ən varlı adamların 20 faizinin ən kasıb adamların 20 faizinin var-dövlətinin 30 qatına sahibdir. Daha sonrakı 37 il ərzində zənginlər irəlilədi və 1997-ci ildə bu rəqəm, yəni ən kasıb 20 faizin 74 qatına yüksəldi.

Dünyanın ən varlı üç ailəsinin sərvəti toplandıqda ən az inkişaf etmiş ölkələrdəki 600 milyon insanın illik gəlirlərindən daha çox edir. Bununla yanaşı dünyanın ən kasıb 80 ölkəsindən çoxunun adambaşına illik gəliri 10 il əvvəlkinə nisbətən aşağıdır".18

"Qızıl əsr"in başlaması ilə birlikdə bütün bu çətinliklər də ortadan qalxacaq. Aclıq, yoxsulluq və səfalət yerini bolluğa, bərəkətə və zənginliyə verəcək. O dövrdə ehtiyac və yoxsulluq içində heç bir insan qalmayacaq, din Allahın Quranda buyurduğu kimi yaşanacaq və insanlar "Mallarında da dilənçinin və (abrına qısılıb dilənməyən) yoxsulun haqqı (payı) var idi" ("Zariyat" surəsi, 19) ayəsində də göstərildiyi kimi, mallarını ehtiyacı olanlara paylayacaqlar. Onsuz da İslam əxlaqının hökm sürdüyü bir cəmiyyətdə bəzi insanların varlı, bəzi insanların isə kasıb olması mümkün deyil. Çünki əgər bir insan iman edirsə, Allahın "O yoxsulu yedirtməyə rəğbət oyatmırdı. Bu gün bax burda onun yaxın bir dostu yoxdur" ("Haqqə" surəsi, 34-35) ayəsində bildirildiyi hala düşməkdən qorxar. Bu da cəmiyyətdə böyük bir ictimai ədalət, rifah

və bərəkətin olmasına səbəb olur.

Bu hədisdə "Qızıl əsr"dən əvvəlki iqtisadi vəziyyətlə bağlı daha geniş və müfəssəl məlumatlar verilir.

Hədisdəki "95-ci il" ifadəsi ilə 1995-ci ilə işarə edilməsi ehtimal olunur. 1995-ci il insanların nisbətən daha yaxşı yaşadıqları həyat şərtlərinin çox ağırlaşmadığı bir dövrdür. Həmçinin hədisdə bu il içində "İşlərin yaxşı gedəcəyi" xəbər verilir. Yəni bu dövrdə insanlar müəyyən bir gəlirə sahibdir və hələ zəngindir. Ancaq 1997-1999-cu illər iqtisadiyyatın çox zəifldiyi, kasıbçılığın artdığı bir dövrdür. Bu illər arasında malın və mülkün dəyəri qal-




***Axır zamanın ən başlıca əlamətlərindən biri də "Qızıl əsr"in bolluq və bərəkətli illərindən əvvəl çox şiddətli aclıq və qıtlığın yaşanacağıdır. Bu dövrdə insanlar quru çörəyə möhtac olacaq, aclıq üzündən ölümlər artacaq. Ancaq "Qızıl əsr" dövrünün başlanması ilə insanlar Allahdan bir rəhmət olaraq yer üzündə görünməmiş bir zənginlik və bolluqla qarşılaşacaqlar.***

mayacaq. Qarşılaşdığımız Argentina nümunəsindən də göründüyü kimi, bu hadisə həyata keçmişdir və hələ də şiddətlə davam etməkdədir.

***"İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97 və ya 99-cu ildə mülkləri zail olacaq..."***
***(Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.54).***

Bu hədisdə Mehdinin gəlişindən qabaq Şam və Misir rəhbərlərinin öldürəcəklərinə diqqət çəkilir.

Misirin yaxın tarixini öyrəndikdə hədisdə deyildiyi kimi, bir "məliyin" öldürüldüyü görünür: 1970-ci ildə Misirin rəhbəri olan və 11 il iqtidarda qalan Ənvər Sədat.

Ənvər Sədat 1981-ci ildə bir rəsmi parad zamanı müxaliflər tərəfindən sui-qəsd nəticəsində həyatını itirdi. Misir tarixində öldürülənlərdən digərləri də 1910-cu ildə sui-qəsdə məruz qalan baş nazir Butros Qali, 1945-ci ildə öldürülən Misir baş naziri Əhməd Mahər Paşa, 1948-ci ildə yenə bir sui-qəsd nəticəsində öldürülən Misir baş naziri Mahmud Nukraşi Paşadır.

Şam sözü isə yalnız Suriyadakı Şam şəhəri üçün deyilmir. "Şam" sözünün ərəbcə mənası "sol" anlamına gəlir və qədimdən Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi bölgə) sol tərəfində qalan ölkələri ifadə edir. - 19. Şam bölgəsi rəhbərlərindən də çoxu sui-qəsdə məruz qalıb. Bunlardan bəziləri aşağıdakılardır:




Hğrriyet, 20 Aral□k 2001



Arjantin patladı

Sonunda korkulan oldu. Arjantin'de isyan çıktı. Halk dükkanları yağmaladı. Sıkıyönetim ilan edildi. Hükümet düştü. Çatışmalarda 16 kişi can verdi

Gğne▪, 21 Aral□k 2001

***"Ondan əvvəl Şam və Misir məlikələri öldürüləcəkdir..."***
***(Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.49).***

1920-ci ildə öldürülən Suriyanın keçmiş prezidenti Səlah al-Din Beetər;

1921-ci ildə öldürülən Suriya prezidenti Droubi Paşa;

1949-cu ildə sui-qəsdə məruz qalan Suriya prezidenti Mühsin əl-Bərazi;

1951-ci ildə öldürülən İordaniya kralı Abdullah;

1982-ci ildə bomba partladılması yolu ilə sui-qəsdə məruz qalan Livanın falangist lideri Bəşir Cəmayel... - 20.




*Xəritədə görünən Hicazin solundakı ölkələr Şam bölgəsi kimi tanınır.*

Əvvəlki səhifələrdə axır zamanda Mehdinin zühurundan əvvəl görüləcək əlamətlərin bəzilərinə toxunduq. Bununla yanaşı Peyğəmbərimizin (s.ə.v.) hədislərində qiyamətin xırda əlamətləri kimi sayılan və qiyamətdən əvvəlki dövrdə, yəni axır zamanın başlanğıcında yaşanacaq hədislər var. Bu əlamətlər "Qızıl əsr"dən əvvəl həyata keçəcəyi üçün eyni zamanda Mehdinin zühurunun əlamətləri kimi görünür.



*1951-ci ildə Məscid-i Əqsada ibadət edərkən sui-qəsdə məruz qalan İordaniya kralı Abdullah.*

Qarşıdakı səhifələrdə qiyamətin bu kiçik əlamətlərinin bəzilərindən danışılır. Peyğəmbərimizdən (s.ə.v.) bizə çatan bu məlumatlar öyrəniləndə onlardan hər birinin indiki cəmiyyətdə yaşandığı görünəcək. Ancaq unutmaq olmaz ki, ilk baxışda xoşagəlməz görünən bu hadisələr əslində bolluq, bərəkət, sülh, xoşbəxtlik, təhlükəsizlik dolu bir çağın başlayacağının müjdələridir. Bü-


The New York Times

SADAT ASSASSINATED AT ARMY PARADE AS MEN AMID RANKS FIRE INTO STANDS; VICE PRESIDENT AFFIRMS 'ALL TREATIES'

Israel Stunned and Anxious; Few Arab Nations Mourning

7 Ekim 1981



*Ənvər Sədat 1981-ci ildə rəsmi bir parad zamanı müxaliflər tərəfindən hazırlanmış bir sui-qəsd nəticəsində həyatını itirmişdir. Yan tərəfdə sui-qəsd zamanı çəkilmiş bir rəsm. Yuxarıda Sədata sui-qəsdlə bağlı "The New York Times" qəzetinin xəbəri.*



tün bu hadisələrdən sonra Allah bütün insanlar üçün gözəl bir çağ açacaq. Bu, Allahın vədidir. Allah Quranda möminləri belə müjdələyir:

**"Biz kitabdan sonra Zəburda da torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq" ("Ənbiya" surəsi, 105).**

**"(Sizi hələ) sevdiyiniz başqa bir şey də - Allah dərgahından kömək və yaxın qələbə gözləyir. Möminlərə müjdə ver!" ("Səff" surəsi, 13).**

***"Qənimət müəyyən insanların inhisarında olduğu, əmanət qənimət sayıldığı, zəkat ağır bir yük kimi qəbul edildiyi zaman..."***

***(Qiyamət əlamətləri, səh.114).***

***"Əmanətin qənimət, zəkatın da (altından çətinliklə çıxılacaq) bir borc kimi qəbul edilməsi..."***

***(Qiyamət əlamətləri, səh.139).***

*"Böyüyə hörmət, kiçiyə mərhəmət götürüləcək. Zina uşaqları çoxalacaq. O qədər ki, kişi küçənin ortasında qadınla zina edəcək"*
*(Qiyamət əlamətləri, səh.140).*

*"Bir zaman gələcək ki, qadınla yolun ortasında zina ediləcək. Heç kim buna etiraz etməyəcək"*
*(Qiyamət əlamətləri, səh.142).*



Milliyet, 13 Mayıs 2001



Milliyet, 10 Mayıs 2000



Zaman, 18 Aralık 2000

*"Dünyanın xarab olmuş yerlərinin abadlaşdırılması, abad edilmiş yerlərin təxribi qiyamətin şərt və əlamətlərindəndir"*
*(Qiyamət əlamətləri, səh.138).*

*"Gözəl şəhərlər xarab ediləndə, əmanətə xəyanət ediləndə qiyamətlə sənin aranda iki barmaq arası qədər məsafə qalmış deməkdir"*
*(Qiyamət əlamətləri, səh.143).*



*(Solda) 1923-cü ildə 8,3 bal gücündə zəlzələdən dağılan Tokio şəhəri. (Aşağıda) Bu gün Tokio şəhərinin yenidən inşa edilmiş halı.*







*(Yan tərəfdə) 1991-ci ildə Andreu qasırğası ilə bir hissəsi məhv olan Mayami şəhəri. (Yuxarıda) Mayami şəhərinin indiki vəziyyəti.*

*(Aşağıda) 1906-cı ildə San-Fransiskoda baş vermiş zəlzələ 3000 adamın ölümünə və şəhərin böyük bir qisminin yanmasına səbəb oldu. (Kənarda) San-Fransiskonun indiki vəziyyəti.*





*"Binaların çox yüksək tikilməsi..."*
*(Qiyamət əlamətləri, səh.146).*





**_Çağdaş dövrdə şəhərlərin bir çoxu çoxmərtəbəli binalardan, göydələnlərdən ibarətdir. Hədisdə bildirilən hadisə tam şəkildə gerçəkləşmişdir._**



*"İnsan qardaşını öldürməyincə qiyamət qopmaz"*
*(Qiyamət əlamətləri, səh.141).*





***Zairdə Hutu və Tutsi qəbilələri arasında vuruşmalar davam edir. Bu vuruşmalar xüsusilə çoxlu uşağın ölümünə səbəb olmuşdur.***

*"Bu üç şeylə qarşılaşmayana qədər ümmət gözəl bir yol üzrə olacaqdır: yaxşılıq aradan qalxmadıqca, əxlaqsız uşaqlar çoxalmadıqca, aralarında Essekka-run peyda olmadıqca... Dedilər ki, Əssəkkarun nədir? Cavab verdilər: axır zamanda gələcək bir nəsildir ki, aralarındakı salamları bir-birini söymək olacaq"*
***(Qiyamət əlamətləri, səh.141-142).***

*"Hər kəsin az qazancından şikayətlənməsi... Zəngin-lərin var-dövlətlərinə görə hörmət görməsi"*
***(Qiyamət əlamətləri, səh.146).***

*"Bazarın zəifləməsi, qazancların azalması..."*
***(Qiyamət əlamətləri, səh.148).***

*"İşlərin kasad getməsi. Hər kəs "sata bilmirəm, ala bilmirəm, qazana bilmirəm!" deyə şikayətlənəcək"*
***(Qiyamət əlamətləri, səh.152).***

Zaman, 2 Eylğl 2001




*Bu gün işsizlik, gəlirlərin azalması, insanların özlərini təmin edə bilməməsi bir çox ölkələrdə geniş şəkildə yaşanan problemdir.*




Yeni Mesaj, 26 Temmuz 2001




Takvim, 16 Ekim 1999

*"Liderlərinizi öldürmədikcə, dünyanızda pisləriniz varis olmadıqca qiyamət qopmaz" (Qiyamət əlamətləri, səh.141).*

20th Chronicle, s.127


Swedish Premier is killed strolling home


The New York Times.

KENNEDY IS KILLED BY SNIPER AS HE RIDES IN CAR IN DALLAS; JOHNSON SWORN IN ON PLAN

23 Kas□m 1963

20th Chronicle, s.335



20th Chronicle, s.131


Pakistani President killed in air crash

Aug 17. Only a few minutes after takeoff, a plane that carried 30 passengers, including President

*Yaxın keçmişdə bir çox liderlər öldürülmüşdür. Bunlardan bəziləri ABŞ prezidenti C.F.Kennedi, İsveçin baş naziri Ulof Palme, Yuqoslaviyanın kralı I Aleksandr, Pakistanın dövlət başçısı Ziya Ül-Həqqdir.*

## *"Qızıl əsr"*

Bura qədər verilən hədislərdən də göründüyü kimi, axır zaman əlamətlərinin bir-birinin ardınca həyata keçməsi dünyada yaşanacaq "Qızıl əsr"i müjdələyir.

"Qızıl əsr" eynilə Hz.Süleyman dönəmində olduğu kimi zənginliyin, əzəmətin, gözəlliklərin, sülhün, rifahın, asayişin yaşandığı, Quran əxlaqının geniş yayılması ilə dünya üzərində cənnətə bənzər bir həyatın davam etdiyi bir dövr olacaq. Şübhəsiz ki, bu, dünya tarixinin son mərhələsi üçün Allahın böyük bir müjdəsi və lütfüdür. Allah bu müjdəni iman gətirən qullarına Quranda da vermişdir. Ayədə belə deyilir:

"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün onların Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir!" ("Nur" surəsi, 55).



"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini və onların qorxusunu sonra əmin -amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir!"

("Nur" surəsi, 55).




## *Hz.Süleyman, Hz.Zülqərneyn dönəmləri və "Qızıl əsr"*

Kitabın əvvəlki fəsillərində Hz.Süleymanın bütün insanlara nümunə olan əxlaqı və həyatı haqqında ətraflı danışdıq. Allaha olan səmimiyyətindən, hər işində Ona üz tutmasından, cəsarətindən, ədalətli qərar və hökmlərindən, bağışlayan, nəzakətli, qonaqpərvər, sülhpərvər olmasından və əsl xarakterindən bəhs etdik. Bunlarla yanaşı dövləti idarə etməsindən, kəşfiyyat və diplomatiya sahəsindəki uğurlarından, abadlıq işlərindən və sənətkarlıq fəaliyyətindən müxtəlif nümunələr göstərdik. Eyni şəkildə Hz.Zülqərneynlə Hz.Süleyman arasındakı oxşarlıqlardan danışaraq Hz.Zülqərneynin də Quranda vəsf edilən salih qullardan olduğunu anlatdıq.

Kitabda verilən bütün məlumatlar Hz.Süleymanın insanların hətta ağıllarına belə gətirmədiyi və bilmədiyi sənət və elm sahəsindəki işlərini ortaya

qoyur. O, yaşadığı müddət-də bir çox sahələrdə fövqəladə tərəqqinin yaşanmasına səbəbkar olmuş güclü bir hökmdar, Allahın dəyərli bir elçisidir. Hz.Zülqərneyn də yenə öz dövründə dünyada hakimiyyət qurmuş, çox yüksək elmi ilə cəmiyyəti idarə etmiş bir rəhbər olmuşdur.

Hz.Süleyman və Hz.Zülqərneyn qissələrini öyrəndiyimiz zaman diqqətimizi çəkən digər bir mövzu da axır zamana aid verilən işarələrdir. Peyğəmbərimizin (s.ə.v.) hədislərindən də göründüyü kimi, "Qızıl əsr" də eynilə Hz.Süleyman və Hz.Zülqərneyn dövrlərində olduğu kimi elm, sənət, texnologiya kimi sahələrdə fövqəladə tərəqqinin yaşanacağı bir dövr olacaq. Hz.Süleyman və Hz.Zülqərneyn dövrləri keçmişdə yaşanıb, "Qızıl əsr" dövrü isə gələcəkdə yaşanacaq. Ancaq üçü də Allahın bizə bildirdiyi gerçək xəbərlərdir.

Mehdilik Hz.Süleymanın və Hz.Zülqərneynin yüksək əxlaqının axır zamanda yenidən, daha fərqli və geniş bir şəkildə həyata keçməsidir. Hz.Süleymanın və Hz.Zülqərneynin şəxs-i



mənəviləri, məntiqləri, ruhları, ictimai baxışları axır zamanda özünü göstərəcək.

Hz.Süleyman, Hz.Zülqərneyn və Mehdi dövrləri İslamın gözəl əxlaqının dünyada geniş şəkildə yayılması və tətbiqidir. Hər üçü də Allahın bəyəndiyi dövrlərdir. Quranda və Peyğəmbərimizin (s.ə.v.) hədislərində bildirilən Buhtunasr, Nəmrud və Firon dövrləri isə şeytanın və imansızlığın hakim olduğu dövrlərdir. Bu dövrlərdən sonra Allah İslam əxlaqını necə hakim etdisə, axır zamanda, yəni dünyanın son mərhələsində də Rəbbimiz İslam əxlaqının hakim olduğu bir dövrü qullarına göstərəcək. Bax, bu, "Qızıl əsr"dir.

Bu çağ Hz.Süleyman və Hz.Zülqərneyn dövrlərinin özünü daha geniş şəkildə büruzə verməsidir. Başqa sözlə desək, Mehdilik xoşbəxtlik, sevgi, dostluq, vəfa, sülh, fədakarlıq, insanpərvərlik, qayğıkeşlik kimi xüsusiyyətlərin dünyaya hakim olmasıdır.

Hz.Süleyman və Hz.Zülqərneynlə "Qızıl əsr" dövrü arasındakı oxşarlıqlardan bəziləri belədir.

## *Mehdinin dünya hakimiyyəti*

Əvvəl də qeyd etdiyimiz kimi, Hz.Süleyman və Hz.Zülqərneyn İslam əxlaqını dünyada bərqərar etmişdilər. Onlar çox geniş bir coğrafiyaya hökm etmiş, çox güclü bir orduya sahib olmuşdular və bu baxımdan onların dövrü ilə "Qızıl əsr" arasında böyük oxşarlıqlar nəzərə çarpır.

"Qızıl əsr" dövrü də İslam əxlaqının bütün dünyaya hakim olacağı, insanların axın-axın müsəlman olacaqları, inkarçı ideyaların yer üzündən silinəcəyi, dinin Peyğəmbərimizin (s.ə.v.) vaxtındakı kimi yaşanacağı bir dövrdür. "Qızıl əsr" dövründəki hakimiyyət bəzi hədislərdə belə tərif edilir:

**"(Mehdi) bütün dünyaya malik olacaqdır" (Kitabül bürhan fi əlamət-il Mehdiyy-il axırzaman, səh.10).**

**"Mehdi şərqlə qərb arasındakı hər yeri fəth edər" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.56).**

## *Mehdinin sahib olduğu xüsusi elm və Hz.Süleymana və Hz.Zülqərneynə bağışlanan böyük elmlər*

Kitabın əvvəlində Allahın Hz.Süleymana müxtəlif elmlər lütf etməsindən bəhs etdik. O, Allahın istəyi ilə cinlərə və şeytanlara hökm etmiş, quşlarla danışmış, qarışqaların öz aralarındakı danışıqlarını duya bilmiş, külək və mis mədəni onun hökmünə verilmişdi. Bunların hər biri Hz.Süleymanı digər insanlardan ayıran möcüzəvi xüsusiyyətlərdir. Hz.Zülqərneyn üçün Quranda **"Belə idi. Biz hələ onun yanında daha nələr olduğunu da bilirik" ("Kəhf" surəsi, 91)** şəklində bildirilir. Buradan da göründüyü kimi, o, Allahın elm verdiyi qullarındandır.

Mehdi də eynilə bu iki mübarək insan kimi xüsusi elmlərə sahib olacaqdır. Taşköprülüzadə Əhməd Əfəndi "Mövzuatul ulum" adlı əsərində (11246) Mehdinin cifr elminə vaqif olacağını qeyd etmişdir. Digər bir hədisdə isə Mehdi haqqında bu məlumat verilir:

**"O, heç kimin bilmədiyi gizli bir vəziyyətə bələdçi olduğu üçün ona Mehdi deyilmişdir" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.77).**

Peyğəmbərimiz (s.ə.v.) Mehdinin eynilə Hz.Süleyman kimi heyvanların dilini biləcəyini və yenə eynilə onun kimi cinlər üzərində hakimiyyətə malik olacağını bildirmişdir:

**"O, (Mehdi) doğrulanmış, quş və bütün heyvanların dillərini bilən birisidir. Onun üçün ədaləti bütün insanlar və cinlər tərəfindən cari olacaqdır" (Qiyamət əlamətləri, səh.188).**

## *"Qızıl əsr"də elm və texnologiya sahəsində baş verəcək tərəqqi*

Quran ayələrindən öyrəndiyimiz kimi, Hz.Süleyman və Hz.Zülqərneyn dövrlərində elm və texnologiya sahəsində çox böyük irəliləyişlər olmuşdu. "Qızıl əsr"i təsvir edən hədislərə nəzər saldıqca da buna oxşar vəziyyətlə qarşılaşırıq.

"Qızıl əsr"də elm, texnologiya, rabitə və tibb sahəsində böyük tərəqqi olacaq. Yeni əldə edilən hər şey insanların xidmətinə veriləcək və beləliklə, dünyanın dörd bir yanında yaşayan insanların həyatı asanlaşacaq. Hədislərdə bu mövzuya aid işarələrdən biri belədir:

**"...İnsan əlindəki qamçıya danışacaq..." (Qiyamət əlamətləri, səh.152).**

Bəlkə də bu hədisdə gündəlik həyatımızda rabitə vasitəsi olan cib telefonuna işarə olunur (Ən doğrusunu Allah bilir).

Hədislərdə "Qızıl əsr"dəki texniki tərəqqiyə dair digər diqqətçəkici və önəmli işarə isə belədir:

**"İnsanlar bir ölçək buğda əkdikdə əvəzində yeddi yüz ölçək tapacaq, insan bir neçə toxum atacaq, 700 ovuc hasil edəcəkdir... Çox yağış yağmasına baxmayaraq bir damcısı belə boşa getməyəcək" (Qiyamət əlamətləri, səh.164).**







***Axırzamanla bağlı hədislərdə bu dövrdə yaşanacaq tərəqqiyə də işarə edilir. Bu gün modern texnologiya ilə kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsi bu işarələrdən biridir.***

Bu hədislə texnologiyanın bir məhsulu olan maşınlar vasitəsilə müasir kənd təsərrüfatına diqqət çəkilmiş ola bilər. Bildiyimiz kimi, əvvəllər tarlaların əkilməsi və əldə edilən əkin məhsullarının yığılması üçün çox vaxt və güc tələb edilirdi. Ancaq texnologiyadakı tərəqqi kənd təsərrüfatı sahəsində çox böyük dəyişikliklərə səbəb olmuş, bu yeni müxtəlif maşınlar istər əkini, istərsə də biçini asanlaşdırmışdır. Bununla yanaşı toxum növlərinin yaxşılaşdırılması istehsalda çox böyük irəliləyişə səbəb olmuşdur. Və texnologiya inkişaf etdikcə yeni üsullar təkmilləşdirilir və məhsuldarlıq artır.

Mehdi dövründə bu sahədə çox böyük inkişaf olacaq, təsərrüfatla məşğul olan insanların həyatı asanlaşacaq ("Qızıl əsr"də yaşanacaq elmi-texniki tərəqqiyə dair ətraflı məlumat üçün bax: "Qızıl əsr", Harun Yəhya, Vural Yayınçılıq, 1999).





*Bu gün təsərrüfat sahəsində əldə edilən nailiyyətlə çöllər də yaşıllaşdırılmaqda və məhsuldar hala gətirilməkdədir.*

## *Heyvanlara sevgiyə önəm verilməsi*

Quranda Hz.Süleymanın heyvanlarla qayğı, şəfqət və sevgi dolu davranışına dair bəzi məlumatlar verilir. Əvvəlki fəsillərdə onun qarışqalara zərər verməkdən belə çəkindiyindən, atlara olan sevgisindən danışmışdıq.

"Qızıl əsr" mərhələsində də heyvanlara olan sevgi təşviq ediləcək. Peyğəmbərimizin (s.ə.v.) hədislərində bu dövrdə hər növ heyvanı izləmək və sevə bilmək üçün şərait yaradılacağından xəbər verilir. Bu mövzudakı hədislərdən bəzisi belədir:

**"...İnsan qoyun və heyvanlarına "haydı, gedin otlayın" deyəcək, onlar gedəcəklər, əkinin ortasından keçdikləri vaxt bir sünbülü belə ağızlarına almayacaq, ilan və əqrəblər kimsəyə zərər verməyəcək, vəhşi heyvanlar qapıların önündə duracaq və heç kimə zərərləri dəyməyəcək..." (Qiyamət əlamətləri, səh.245).**

"And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz deyilmişdi: "Onlar mütləq qalib gələcəklər. Bizim əskərlərimiz labüd olaraq zəfər çalacaqlar!"" ("Saffat" surəsi, 171-173).



"İlanlar uşaqlarla, inəklər aslanlarla keçinə biləcək..." (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.64).

Yuxarıdakı hədislərdən də göründüyü kimi, "Qızıl əsr"lə Hz.Süleyman dövrü arasındakı digər bir diqqətçəkici bənzərlik də heyvanlar üzərindəki hakimiyyətdir. Hz.Süleyman quşlar başda olmaqla müxtəlif canlılar üzərində necə hakimiyyət qurmuşdusa, "Qızıl əsr" dövründə də heyvanların üzərində yırtıcı heyvanların insanlara zərər verməsinin əngəllənəcəyi şəkildə bir hakimiyyət olacaq.

## *Sülh tərəfdarı olmaları və diplomatik yolu seçmələri*

Hz.Süleymanın qonşu ölkələrlə olan münasibətlərində xeyirxah, bağışlayan, sülhpərvər olduğunu əvvəl də vurğulamışdıq. O, problemləri diplomatik yolla həll etməyə üstünlük verməkdə və demokratik üsullar tətbiq etməkdədir. Hz.Süleyman yaşadığı dövrdə çox yüksək bir mədəniyyət bərqərar etmiş və hakimiyyətində də diplomatiyaya, sənətə və mədəniyyətə diqqət yetirmişdi. Çox güclü, qarşısıalınmaz ordulara sahib olsa da hərbi gücündən istifadə etməmişdi. Hz.Zülqərneyn isə ətrafındakı xalqlar tərəfindən "yer üzündə əxlaqsızlığın və fitnənin qarşısına alan insan" kimi tanınmış, insanlara sülh və rahatlıq gətirən bir lider olmuşdur. Hz.Süleyman və Hz.Zülqərneyn dövrləri bu baxımdan "Qızıl əsr" dövrünə çox bənzəyir.

"Qızıl əsr"də də insanlar öz istəkləri ilə müsəlman olacaq, heç bir münaqişəyə səbəb olmadan İslam əxlaqı bütün dünyaya hakim olacaq. Bu mərhələni təsvir edən hədislər bunlardır:

**"Zamanında nə bir kimsə yuxudan oyandırılacaq, nə də bir kimsənin burnu qanayacaqdır" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.42).**

**"Mehdi Peyğəmbərin yolu ilə gedəcək, yatan insanı oyandırmayacaq, qan da axıtmayacaqdır" (Qiyamət əlamətləri, səh.163).**

Hədislərdən də göründüyü kimi, Mehdi İslam əxlaqını bütün dünyaya sülh yolu ilə hakim edəcək, müharibə və toqquşmalardan qaçacaqdır. Mehdinin gedəcəyi yol bütün dünya miqyasında yüksək bir mədəniyyətlə insanları İslam əxlaqına cəlb etməsi olacaq. Bu mərhələdə Allahın rizası ilə aşağıdakı ayələr özünü göstərəcəkdir:

**"Allahın köməyi və zəfər gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!" ("Nəsr" surəsi, 1-3).**

## *Din əxlaqına dəvət məsələsində qərarlı olmaları və cəld davranmaları*

Hz.Süleyman verdiyi ağıllı və sürətli qərarlarla bütün möminlər üçün gözəl bir örnəkdir. Səba ölkəsini iman etməyə dəvət etmək üçün yazdığı məktub onun təbliğ gücünü göstərərkən elm sahibi bir insanın vasitəsilə Səba məlikəsinin taxtını gətirtməsi sürətli qərar verməsini açıqlayır. Hz.Zülqərneynin Yəcuc və Məcuc adlı qövmün tərbiyəsizliyinin qarşısını almaq üçün dərhal qiyamətə qədər yıxılmayacaq güclü bir sədd tikməsi də onun gücünün və ağlının bir nümayişidir. "Qızıl əsr" də bu baxımdan Hz.Süleyman və Hz.Zülqərneyn dövrünə çox böyük oxşarlıq göstərəcək.

"Qızıl əsr" dövründə insanlar dəstə-dəstə İslama üz tutacaq, bunun üçün çox geniş əhatəli və sürətli işlər görəcəklər. Cəmiyyətlər bir-birinin arxasınca İslam əxlaqını mənimsəyəcək, əks fikirdə olanlar ortadan qalxacaq, hər növ zülm sistemi tarixin qaran-

lıqlarında məhv olub gedəcək. Bu mövzu ilə bağlı böyük İslam alimi Muhyiddin Ərəbi bunları bildirmişdir:

**"Allah ona (Mehdiyə) o qədər güc verəcək ki, bir gecənin içində zülmü və əhlini ortadan qaldıracaq, dini iqamə edəcək, İslamı canlandıracaq, əhəmiyyətsiz bir hala gəldikdən sonra ona yenidən qiymət qazandıracaq, ölümündən sonra onu dirildəcək... Əsrində cahil, zülmkar və qorxaq olan bir adam sonra dərhal alim, cəsur və mərd olacaq... Dini Rəsulullahın (s.ə.v.) zamanında olduğu kimi eynilə tətbiq edəcək..." (Muhyiddin Ərəbi əl-Əndəlüsu, Fütuhat-ül Məkkiyə, Bab 66; Qiyamət əlamətləri, səh.186).**

## *Abadlaşdırma işlərinə böyük diqqət yetirilməsi*

Hz.Süleymanın abadlıq işlərinə göstərdiyi diqqətdən kitabın əvvəlində geniş danışmışıq. O, əmri altında işləyən bina ustası cinlərdən və şeytanlardan yararlanaraq qalalar, heykəllər, çanaqlar və qazanlar düzəltdirmişdi. Onun görkəmli sarayını görən hamı - başda Səba məlikəsi olmaqla - heyran qalmışdılar. Hz.Zülqərneynin çəkdiyi səddin tikintisində isə Allahın diləməsindən başqa yıxılmayacaq qədər güclü olan bir texnikadan istifadə edilmişdir.

Peyğəmbər əfəndimizin (s.ə.v.) hədislərində "Qızıl əsr"də də abadlaşdırma işlərinə böyük önəm veriləcəyinə diqqət çəkilir. Bu dövrdə şəhərlərə rahatlıq və sülhlə yanaşı üstün bir mədəniyyət də gətiriləcəkdir. Bu hədislərdən biri belədir:

**"Mehdi Konstantiniyyə və digər yerlərin abadlığına çalışır" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.40).**


"Allahın köməyi və zəfər gəldiyi
zaman; İnsanların dəstə-dəstə Allahın
dininə daxil olduqlarını gördüyün
zaman Rəbbini həmd-səna ilə təqdis et
və Ondan bağışlanmağını dilə.
Həqiqətən, O, tövbələri qəbul edəndir!"
("Nəsr" surəsi, 1-3).

"Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüdrət, qüvvət sahibidir!" ("Mucadələ" surəsi, 21).









## *Zənginlik və əzəmətdən İslamın mənfəəti, Allahın rizası üçün istifadə etmələri*

Hz.Süleyman sahib olduğu zənginliklərdən Allahın dinini anlatmaq və İslam əxlaqını dünyada yaymaq üçün çox gözəl şəkildə istifadə etmişdi. Fəth etdiyi ölkələrdə yaşayan insanları ilk olaraq Allaha iman etməyə və təslim olmağa dəvət etmişdi. Səba ölkəsinə göndərdiyi İslama dəvət məktubu bu mövzuda çox mühüm bir sübutdur. **"...Rəbbimin mənə verdiyi daha yaxşıdır..."** ("Kəhf" surəsi, 95) ayəsindən də gördüyümüz kimi, Hz.Zülqərneyn də Allahın neməti ilə sağlam bir iqtidara sahibdir. Və bu böyük gücdən dünyada əxlaqsızlığı əngəlləmək üçün istifadə etmişdir.

"Qızıl əsr" mərhələsində də insanlar çox böyük bir zənginliyə, sülhə və rahatlığa qovuşacaqlar. Mehdi dünyanın bütün zənginliyindən Allahın dinini hakim qılmaq üçün yararlanacaq, fəth etdiyi ölkələrdə gözəl əxlaqı və sülhü əsas götürəcəkdir. Onun tayıbərabəri olmayan bu üsulları insanların ürəyinin İslam əxlaqına qarşı yumşalmasına səbəb olacaq və İslam əxlaqı çox qısa müddət ərzində bütün dünyaya hakim olacaqdır. Bu mövzudakı hədislərdən bəziləri bu şəkildədir:



"De: "Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan..." ("Ali-İmran" surəsi, 26).

"...Yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət müttəqilərindir!" ("Əraf" surəsi, 128).

**"Ümmətim arasında Mehdi çıxacaq, Allah onu insanları zəngin etmək üçün göndərəcəkdir. Ümmət nemətlənəcək, heyvanlar çoxlu yeyib-içəcək, ərz bitkisini çıxaracaq..." (Kitab-ül burhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.15).**

**"...Biətdən əvvəl insanlar dəstə-dəstə ona axın edəcəklər və ora gedən hər kəs ondan bərəkət qazanacaqdır" (Əl Kəvlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.25).**

## *"Qızıl əsr"də olacaq bolluq və bərəkət*

Ayələrdən Hz.Süleyman dövründə çox böyük bir zənginliyin yaşandığı və insanların xoş həyat sürdüyü anlaşılır. Hz.Süleymanın sarayı son dərəcə əzəmətli və gözəldir, çox böyük orduları vardır və bütün dünyaya hakim olmuşdur. "Qızıl əsr" də öz bolluq və bərəkəti ilə Hz.Süleyman dövrünə çox böyük bir bənzərlik göstərəcəkdir. İnsanlara bütün istədikləri sayılmadan, çox-çox veriləcək, havadakı quşlar belə Mehdinin xilafətindən razı olacaqdır. Peyğəmbər əfəndimizin (s.ə.v.) "Qızıl əsr"dəki bolluğu, bərəkəti və rahat şəraiti təsvir edən bəzi müfəssəl açıqlamaları belədir:



**"O zaman yer və göy əhli, bütün vəhşi heyvanlar, quşlar, hətta dənizdəki balıqlar belə onun xilafəti ilə sevinəcəkdir. Onun dövründə axan çaylar belə suyunu çoxaldacaqdır" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.31).**

**"...Ümmətin onun zamanında yaxşı və pisin bənzəri ilə nemətləndiyi bir nemətlə nemətlənəcək, səma üzəriinə bol yağış yağdıracaq, ərz bitki-**



*"Sonra da Allahın nemәti vә lütfü sayәsindә özlәrinә heç bir әziyyәt toxunmadan geri döndülәr vә Allahın razılığını qazanmış oldular. Hәqiqәtәn, Allah böyük mәrhәmәt sahibidir"* *("Ali-İmran" surәsi, 174).*

**sindən heç bir şey saxlamayacaqdır" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, s.9).**

**"...Səma yağışını endirəcək, yer bərəkətini çıxaracaq, ümmətim onun zamanında əvvəllər görünməmiş bir şəkildə rahatlığa çatacaqdır" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.9).**

**"Məhəmməd ümmətinin könlü zənginliklə dolacaqdır" (Əl Kəvlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.20).**

**"Göydən çoxlu rəhmət yağacaq, yerlərdə bərəkət artacaq, bütün dəfinələri tapacaq" (Qiyamət əlamətləri, səh.164).**

## *"Qızıl əsr" dövründəki ədalət və xoşməramlılıq*

Hz.Süleyman xoşməramlı bir hakimiyyətə malikdir və onun demokratik yollarla hərəkət etməsi diqqəti çəkməkdədir. Eyni vəziyyəti "Qızıl əsr" üçün də söyləyə bilərik.

İslam əxlaqının bütün dünyaya hakim olduğu "Qızıl əsr" dövründə də xoşməramlı və sülh dolu bir dünya bərqərar olacaqdır. İnsanlara şəfqət, qayğı və mərhəmət göstəriləcək, bütün dindən olan insanlar xoşbəxt və təhlükəsiz yaşayacaqdır. Dünya zənginlikləri insanlar arasında bərabər bölünəcək, yer üzündə kasıblıq və yoxsulluq aradan götürüləcək. Bu mövzu ilə bağlı bəzi hədislər belədir:

**"Zülm və yalanla dolu olan dünya o, gəldikdən sonra ədalətlə daşacaqdır" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər. səh.20).**

**"Hz.Mehdi o qədər mərhəmətli olacaqdır ki, dövründə nə bir insan yuxusundan oyandırılacaq, nə də burnu qanayacaqdır" (Əl-Qavlul müxtəsər fi əlamət-il Mehdiyy-il müntəzər, səh.44).**



*Hicri 1280 tarixli cəli sülüs xətt. "Hikmətlərin ən böyüyü Allah qorxusudur" yazılıb.*
*Sağ tərəfdə Seyid Abdullah tərəfindən nəsh xətti ilə yazılmış "Ənam" surəsinin ilk ayələri.*

**"O (Mehdi), ərzə sahib olur və ondan əvvəlki təzyiq və zülmlə olan ərzi ədalətlə əvəz edir. Sizdən ona kim çatarsa, qar üstündə sürünəcək olsa belə ona qoşulsun, çünki o, Mehdidir" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.14).**

**"...Onun dövründə yaxşı insanların yaxşılığı artacaq, pislərə qarşı belə yaxşılıq edilər" (Kitab-ül bürhan fi əlamət-il Mehdiyy-il axır zaman, səh.17).**

**"Bütün ölkələr ona qapılarını açacaqlar... Yer üzündə təhlükəsizlik və sükut hakim olacaq" (Qiyamət əlamətləri, səh.164).**


"Biz ona belə
buyurduq: "Qorxma,
üstün gələcək mütləq
sənsən!"
("Taha" surəsi, 68).
"Onlara dünyada da,
axirətdə də müjdə
vardır. Allahın sözləri
heç vaxt dəyişməz. Bu,
böyük qurtuluşdur!"
("Yunus" surəsi, 64).

# Nəticə

Bura qədər Allahın Hz.Süleymana bəxş etdiyi bənzərsiz nemətlərdən və əvvəllər heç bir insana verilməmiş yüksək elmlərdən bəhs etdik. Bunları diqqətlə və nümunə götürmək məqsədi ilə oxuyan hər insan üçün Hz.Süleyman qissəsində çox dəyərli öyüdlər və bu günümüzə işarə edən maraqlı məlumatlar var.

Hz.Süleyman bir dövlət adamı olaraq ideal bir davranış göstərməkdədir. Hər müsəlmanın bu mübarək insanın gözəl davranışından nümunə götürməsi lazımdır. Hər müsəlman Hz.Süleyman kimi ədalətli, təvazökar, ixlaslı, ağıllı, tədbirli, səbrli və qərarlı olmalıdır. Çünki Allahın bütün bəşəriyyətə nümunə göstərdiyi bu əxlaq axirətdə olduğu kimi bu dünyada da iman gətirənləri böyük uğurlara və zəfərlərə aparan bir yoldur.

Əvvəldə də qeyd etdiyimiz kimi, Quranda Hz.Süleyman kimi dünyada böyük bir güc və hakimiyyət əldə edən Hz.Zülqərneyndən də bəhs edilir. Hz.Zülqərneynin də həyatında müsəlmanlar üçün çox gözəl nümunələr var. Allah ona "Biz onu yer üzərində

möhkəmləndirib qüvvətləndirmiş və hər şey vermişdir" ("Kəhf" surəsi, 84). O, getdiyi hər yerdə insanlara rahatlıq, təhlükəsizlik və ədalət bəxş etmiş, Allahın dinini hakim dinə çevirmişdi. Müsəlmanların bu güclü və qərarlı xarakterə sahib olan mübarək insanı da özlərinə nümunə götürməsi lazımdır. (Ətraflı məlumat üçün bax: ""Kəhf" surəsindən günümüzə işarələr", Harun Yəhya, Kültür Yayınçılıq, 2001).

Əgər müsəlmanlar Allahın bir hidayət rəhbəri olaraq göndərdiyi bu mübarək insanların əxlaqını və bütün həyatını özlərinə örnək alsa və sadəcə Allahın rizasını hədəfləsə, onlar da mütləq böyük bir uğur və zəfər əldə edəcəklər.

İslam əxlaqının dünya hakimiyyətinə aid işarələri bu gün birbirinin ardınca gerçəkləşməkdədir. Bütün dünyada Allaha dönüş böyük bir sürətlə artmaqdadır. Xüsusilə də İslamla bağlı xəbərlər dünyanın ən çox oxunan qəzetlərində yer almaqda, fərqli dinlərə mənsub minlərlə insan İslamı qəbul edib Peyğəmbərimizin (s.ə.v.) yoluna tabe olmaqdadır. İnsanları sülhə, rahatlığa, xoşməramlı olmağa dəvət edən İslam əxlaqı daha yaxından öyrənildikcə heç şübhəsiz ki, bu yönəliş getdikcə artacaqdır.

Bütün bu inkişafdan Allahın izni ilə İslam əxlaqının dünyadakı hakimiyyətinin çox güclü bir lider millətin birinciliyi şərtilə çox qısa müddətdə gerçəkləşə biləcəyi anlaşılır. Dünyada bu təcrübəyə və gücə sahib olan yeganə millət böyük türk millətidir. Bu, hazırda bir çox Qərb siyasətçisi və strateqi tərəfindən də qəbul edilən bir həqiqətdir. Bu gün münaqişələrin və xaosun mərkəzi olan Balkanlar, Orta Asiya, Qafqaz, Orta Şərqlə yanaşı bütün dünya ölkələri İslam əxlaqının türk millətinin liderliyi ilə gətirdiyi rahatlıq və sülh sayəsində hazırda içində olduqları xaos şəraitindən çıxacaq.

XXI əsr Allahın izni ilə türk millətinin dünyaya İslam əxlaqı ilə yol göstərdiyi və cənnət kimi bir dünyanın yaranmasında liderlik etdiyi mübarək bir dövr olacaq.

# Quranda cinlər

Kitabın əvvəlki fəsillərində cinlərin Hz.Süleymanın əmrinə verilməsinin onun üçün Allahdan böyük bir dəstək olduğunu qeyd etdik. Bu yerdə Quranda cinlər haqqında verilən məlumatlara toxunaq.

Quranda cinlərin oddan yaradıldığı bildirilir. Müvafiq ayələr bu şəkildədir:

**"Cannı da tüstüsüz (təmiz) oddan O xəlq etdi" ("Rəhman" surəsi, 15).**

**"Can tayfasını daha öncə tüstüsüz oddan xəlq etmişdik" ("Hicr" surəsi, 27).**

Quran ayələri öyrənilərkən cinlərin də eynilə insan cəmiyyətləri kimi bir həyatının olduğu görünür. Ayələrdə cinlərin də gəlib-getmiş ümmətlərinin olmasından bəhs edilir. Onların da soyları və ataları var ("Əraf" surəsi, 38; "Kəhf" surəsi, 50). Cinlər insanlardan daha fərqli bir ölçü və çərçivədə yaşayır, ancaq insanları görə, onların danışığını dinləyə bilir.

Cinlərdən ifrit Hz.Süleymana o, hələ yerindən qalxmadan Səba məlikəsinin taxtını gətirə biləcəyini söyləmiş və **"...Mən bu işi görmə yə çox qüvvətliyəm, etibarlıyam!"** ("Nəml" surəsi, 39) deyə bildirmişdir. Bu ifadə ilə onun bir yerdən digər bir yerə çox böyük bir sürətlə hərəkət etməsinə, bir maddəni başqa yerə apara bilməsinə işarə edilmiş ola bilər.

Allah cinləri yaratmasının məqsədini **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"** ayəsi ilə bildirmişdir ("Zariyat" surəsi, 56). Onlar da elçilər və elçilərə endirilən Kitablar vasitəsilə xəbərdar olunub qorxudulur, dünyada necə davranacaqları ilə sınanır, ibadət və itaət edir, bunun nəticəsində də Allahdan bir əvəz alırlar. Allah "Ənam" surəsində bu şəkildə bildirir:

**"Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidik!" Dünya həyatı onları aldatdı və onlar kafir olduqları barədə öz əleyhlərinə şəhadət verdilər" ("Ənam" surəsi, 130).**

Ayədə də bildirildiyi kimi, cinlərlə insanların imtahanı bir-birinə çox bənzəyir. Onların da bəziləri dünya həyatının müvəqqəti bəzəklərinə aldanır, xəbərdar edildikləri halda hidayət yolundan uzaqlaşırlar. Yenə də Quran ayələrindən cinlərin peyğəmbərlərin təbliğini dinlədikləri, Quran oxunarkən ona qulaq asdıqları və öyrəndikləri ilə öz qövmlərini xəbərdar etdikləri anlaşılır. Cinlərin Hz.Məhəmmədin (s.ə.v.) təbliğini dinləməsi "Əhqaf" surəsində belə xəbər verilir:

**"Onu da xatırla ki, bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə hazır olduqda (bir-birinə): "Qulaq asın!" - dedilər və (Quran oxunub) qurtardıqdan sonra qorxudanlar sifətilə öz**

**qövmlərinin yanına qayıtdılar. Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiq edən, haqqa və düz yola yönəldən bir kitab dinlədik!" ("Əhqaf" surəsi, 29-30).**

Allah bir çox ayəsində cinlərə və insanlara birlikdə xitab edir, müxtəlif öyüdlər verir, onları cəhənnəm əzabı ilə qorxudur. "Əraf" surəsinin 38-ci ayəsində Allah "Sizdən əvvəl gəlib getmiş cin və insan tayfaları ilə birlikdə cəhənnəmə girin..." şəklində buyurur ("Əraf" surəsi, 38). Hz.Məhəmmədə (s.ə.v.) bir hidayət rəhbəri kimi nazil edilmiş Quranı yalanlayan cin və insan tayfalarının vəziyyəti isə "İsra" surəsində belə bildirilir:

**"De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər"" ("İsra" surəsi, 88).**

Allahın cinlərə və insanlara birlikdə xitab etdiyi ayələrdən bəziləri bu şəkildədir:

"Belələri özlərindən əvvəl gəlib getmiş cinlərdən və insanlardan ibarət ümmətlərlə birlikdə haqlarında əzab sözünün gerçəkləşdiyi kimsələrdir. Onlar, doğrudan da, ziyana uğrayanlardır!" ("Əhqaf" surəsi, 18).

"Biz cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" ("Əraf" surəsi, 179).

## *İman gətirən cinlər və inkarçı cinlər*

Ayələrdə cinlərdən bir qisminin Allaha iman edib hidayət yoluna gəlməsindən bəhs edilərkən bir qisminin də üsyankar və inkarçı olduğu bildirilir. Müsəlman cinlər Quran oxunarkən onu din-




əyirlər:

**"De: "Mənə vəhy olundu ki, bir dəstə cin dedilər: "Biz çox qəribə bir Quran eşitdik. O, haqq yolu göstərir. Biz ona iman gətirdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq. Həqiqətən, Rəbbimizin cəlalı çox ucadır. O Özünə nə bir zövcə götürmüşdür, nə də bir uşaq!" ("Cin" surəsi, 1-3).**

Cinlərin bir hissəsi Allahı təsdiq edib ucaldan, Ona heç kimi ortaq qoşmayan müsəlmanlardır. Onlar Qurana qarşı böyük bir heyranlıq duymaqda, Allahın əmr və tövsiyələrinə əməl etməkdədir. Onlar öz aralarında iman etməyən cinlərin olduğunu bilir və bu durumu belə ifadə edirlər:

**"Doğrusu, bizim səfehimiz Allah barəsində tamamilə yalan söyləyirmiş. Biz elə güman edirdik ki, nə insan, nə də cin tayfası Allah barəsində yalan danışmaz" ("Cin" surəsi, 4-5).**

Cinlər öz aralarında bir çox müxtəlif qruplardan yaranmışlar. Bəziləri səmimi müsəlman, bəzi-

ləri kafir, bəziləri Allaha qarşı ya-lan söyləyənlərdir. İman edən cinlər "Cin" surəsinin davamında cinlərin ümumi vəziyyəti haqqında bu məlumatları verirlər:

**"Şübhəsiz ki, aramızda əməlisaleh olanlar da var, olmayanlar da. Biz müxtəlif firqələrə ayrılmışıq. Biz anladıq ki, yerdə də olsaq, (göyə də) qaçsaq, Allahdan canımızı qurtara bilmərik. Doğrusu, biz hidayət yolunu göstərəni dinlədiyimiz zaman ona iman gətirdik..." ("Cin" surəsi, 11-13).**

Cinlər də eynilə insanlar kimi Allahın Kitabı ilə cavabdeh sayılan varlıqlardır. Onlar da bütün etdiklərinə görə Allaha hesab verəcək və etdiklərinin əvəzini heç bir haqsızlığa düçar olmadan görəcəklər. İman edən cinlər Allahdan gözəl bir qarşılıqla müjdələnmişlər:

**"...Kim Rəbbinə iman gətirsə, nə əskilməsindən, nə də haqsızlığa məruz qalmaqdan qorxar. Şübhəsiz ki, aramızda müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır" ("Cin" surəsi, 13-14).**



**"Allah dərgahından olanı və Onun göndərdiklərini təbliğ etməkdən başqa (heç bir şey gəlməz). Allaha və Onun Peyğəmbərinə asi olanları cəhənnəm odu gözləyir. Onlar orada həmişəlik qalacaqlar!" ("Cin" surəsi, 23).**

Allahın varlığını inkar edib Ona qarşı üsyana qalxanların və zülm edənlərin aqibəti bu şəkildədir:

**"(Haqq yoldan) çıxanlar isə cəhənnəm üçün odun olacaqlar" ("Cin" surəsi, 15).**

**"...Mən cəhənnəmi (Allahı inkar edən) bütün cinlər və insanlarla dolduracağam!" ("Hud" surəsi, 119).**

## *Cinlərlə insanların görüşməsi*

Ayələrdən Allahın diləməsi ilə cinlərlə insanların görüşə biləcəkləri, hətta cinlərin insanların əmrinə itaət edəcəkləri anlaşılır. Allah Hz.Süleymanın əmrinə cinləri vermiş, Hz.Süleyman onlardan müxtəlif işlərində istifadə etmişdi. Burada vurğulanması gərəkli olan mühüm bir mövzu da insanların cinlərlə nə şəkildə görüşə biləcəyidir. Nə qədər tam aydın olmasa da bu gün "cin çağırma" insanlar arasında geniş yayılmış bir üsuldur. İnsanların çoxu həyatında bir və ya bir neçə dəfə cin çağırıb. Bu, xüsusilə də gənclər arasında çox tətbiq edilən bir üsuldur. Bəziləri buna "qəlb



"Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtəraqlı sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!"

("Ənam" surəsi, 112).

*"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! Mən onlardan ruzi istəmirəm, Mən onlardan Məni yedirtmələrini də istəmirəm! Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!"*

*("Zariyat" surəsi, 56-58).*



***Taxta lövhə: Həsən Əfəndi, hicri 1325 (m.1907) istifli sülüs xətlə "Allah hər şeyi bilir və eşidir" yazılıb.***

çağırma", bəziləri "ruh çağırma" kimi adlar versə də əslində belə mühitdə gələnlərin hamısı cinlərdir (Bəzi hallarda da cin olmamasına baxmayaraq insanlar özlərini buna inandırırlar).

Ancaq bu cinlərin çoxu iman gətirməmiş dinsiz cinlərdir. Dinsiz cinlərin bunu etməkdə məqsədi isə çox güman ki, insanları aldatmaq və onların vaxtının boş keçməsinə səbəb olmaqdır. İnsanlar da bu cinlərə aldanaraq özlərinin bir qazanc mənbəyi qura biləcəyini, qeybə dair xəbərlər ala biləcəyini zənn edirlər. Ancaq cinlərin - Allah diləmədikcə - insanlara qeybdən xəbər verməsi mümkün deyil. Həmçinin **"...O yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıçı əzab içində qalmazdılar"** ("Səba" surəsi, 14) ayəsində xəbər verildiyi kimi, Hz.Süleymanın ölümündən sonradan xəbərdar olmaları bunun bir dəlilidir. Bir də unutmaq olmaz ki, "Nəml" surəsinin 65-ci ayəsində bildirildiyi kimi: **"Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!"** ("Nəml" surəsi, 65).

## *Cinləri Allaha şərik qoşanlar*

Bəzi insanlar cinlərin özlərinə aid bir güclərinin olmasına inanır. Halbuki bu, çox böyük bir yanlışlıqdır. Çünki cinləri Yaradan Allahdır və onların özlərinə aid heç bir gücü yoxdur. Allah istəməsə, onların hər hansı bir insana zərər və ya fayda verməsi mümkün deyil. Ancaq buna baxmayaraq insanların bir qismi cinlərdən imdad umub onları vəli qəbul edər:

**"Cinləri (Allah) yaratdığı halda, onları Allaha şərik qoşdular, bilmədən Onun üçün oğullar və qızlar uydurub düzəltdilər. Allah isə onların Ona aid etdikləri sifətlərdən uzaqdır və yüksəkdə durur" ("Ənam" surəsi, 100).**

Bir Quran ayəsində Allah insanların cinlərlə münasibət qurmaq məqsədi ilə yollarından sapmasından belə xəbər verir:

**"Həqiqətən, bəzi insanlar bir para cinlərə pənah aparır, bununla da onların təkəbbürünü artırırdılar" ("Cin" surəsi, 6).**



*Ömər Vəsfi Əfəndinin cəli sülüs lövhəsi, "Sad" surəsinin 50-ci ayəsi. "Ədn cənnətləri: qapılar onlara açılmışdır" yazılıb.*

Mələklər də bir ayədə bəzi insanların cinlərə ibadət etdiyini bildirir:

**"(Mələklər:) "Sən pak və müqəddəssən. Bizim ixtiyar sahibimiz onlar deyil, Sənsən! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti onlara iman gətirmişdi", - deyə cavab verəcəklər" ("Səba" surəsi, 41).**

İnsanların cinləri Allaha şərik qoşmasının və onlardan yardım istəməsinin ən başlıca səbəblərindən biri onların qeybi bildiklərini düşünməsidir. Ancaq bu, çox böyük bir yanlışlıqdır. Çünki Allah ayədə cinlərin qeybə dair heç bir məlumata sahib olmadığını bildirir ("Səba" surəsi, 14).

Ayələrdə cinlərin insanlar üçün bir yolgöstərən olmadığı, hətta insanları doğru yoldan azdırmaq üçün onlara bəzəkli sözlər pıçıldadıqları bildirilir. Ancaq unutmaq olmaz ki, cinlərin Allah istəməsə, insanlar üzərində təsiri mümkün deyil. Onları Allah Yaratmışdır və onlar da kainatdakı bütün canlılar kimi Allahın əmri ilə hərəkət etməkdədir:

**"Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düş-**



*Tarixli, dairəvi medal içinə istifli cəli bəzəkli xətt. "Ya Məhəmməd Əleyhissəlam və dörd küncdə dörd xəlifənin adı" yazılıb, 22 əyar qızıldan istifadə edilib və rokoko üslubundadır.*



*Yəsarizadə (Mustafa İzzət) (1770-1849). h.1258. Cəli Təliq xətlə mavi üzərinə zərəndut lövhə. Kənarı qızıl rokoko bəzəkli "Barək Allah-ü Təala" ("Allah bərəkət etsin") yazılıb.*

**mənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtəraqlı sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!" ("Ənam" surəsi, 112).**

Allah həm insanları yolundan azdıran cinləri, həm də cinləri Allaha şərik qoşanları bu etdiklərinin əvəzində sonsuz cəhənnəm əzabı ilə cəzalandıracaq. Bu dünyada cinlərin bəzəkli sözlərinə inananlar axirətdə çox böyük bir səhv etdiklərini anlayacaqlar. Çünki o gün bütün şərik qoşduqları onlardan uzaqlaşacaq, Allahın qarşısında tək, yalnız olduqlarını anlayacaqlar. Etdiklərinin əvəzi olaraq cəhənnəm əzabını gördükdə isə bu şəkildə yalvaracaqlar:

**"Kafir olanlar deyəcəklər: "Ey Rəbbimiz! Cinlərdən və insanlardan bizi azdıranları bizə göstər ki, onları ayaqlarımız altına salaq pay mal olsunlar!"" ("Fussilət" surəsi, 29).**

Digər bir ayədə alovun onlar üçün müddətsiz bir qonaq evi olması bu şəkildə bildirilir:

**"(Allah insanları və cinləri) toplayacağı gün belə buyuracaq: "Ey cin tayfası, artıq insanların bir çoxunu yoldan çıxartdınız". Onların insanlardan olan dostları deyəcəklər: "Ey Rəbbimiz! Biz bir-birimizdən bəhrələndik və bizim üçün müəyyən etdiyin əcəlimiz gəlib çatdı!" (Allah) buyuracaq: "Sizin düşəcəyiniz yer atəşdir. Allahın istədiyi istisna olmaqla, siz orada həmişəlik qalacaqsınız!" Şübhəsiz ki, Rəbbin hikmət, elm sahibidir!" ("Ənam" surəsi, 128).**

## *Üsyan edən cinlərin alacağı əvəz*

"Rəhman" surəsində cin və insan cəmiyyətlərinin Allahın ilhamı ilə hərəkət edən aciz varlıqlar olduğu xatırladılır. Allahın ayələrini inkar edib üsyana qalxdıqları təqdirdə heç bir uğur əldə edə bilməyəcəkləri, çünki yerlərin də, göylərin də tək hakiminin aləmlərin Rəbbi olan Allah olduğu bildirilir:

**"Ey cin və insan tayfası! Əgər göylərin və yerin ətrafından kənara çıxa bilərsinizsə, çıxın. Siz ancaq qüvvətlə çıxa bilərsiniz!" ("Rəhman" surəsi, 33).**

Belə bir cəhddə olanların görəcəyi əvəz isə **"Sizin üstünüzə tüstüsüz alov və alovsuz tüstü göndəriləcək və siz bir-birinizə kömək də edə bilməyəcəksiniz"** ("Rəhman" surəsi, 35) ayəsi ilə

***"(Allah) buyuracaq: "Sizdən əvvəl gəlib getmiş cin və insan tayfaları ilə birlikdə cəhənnəmə girin!"" ("Əraf" surəsi, 38).***

bildirilir. Həmçinin müsəlman cinlər vu həqiqəti bilir və **"Biz anladıq ki, yerdə də olsaq, (göyə də) qaçsaq, Allahdan canımızı qurtara bilmərik"** ("Cin" surəsi, 12) ayəsində də göstərildiyi kimi, acizliklərini başa düşürlər. Eyni ayələrin davamında üsyan edən cin və insanların axırının cəhənnəm olduğu bildirilir:

**"Göy ayrılıb dağ edilmiş yağ kimi qıpqırmızı olduğu zaman halınız necə olacaq?! Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?! O gün nə bir insan, nə də bir cin günahı barəsində sorğu-sual olunmayacaqdır! Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?! Günahkarlar üzlərindən tanınacaq, kəkillərindən və ayaqlarından tutulub yaxalanacaqlar. Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?! (Onlara belə deyiləcəkdir:) "Bu, günahkarların yalan hesab etdikləri Cəhənnəmdir!"" ("Rəhman" surəsi, 37-43).**

Bu fəsildə cinlərin müxtəlif xüsusiyyətlərindən danışdıq. İnsanlarla eyni məsuliyyət daşıdıqlarını, amma xəlq edilən olaraq müxtəlif özəlliklərinin olduğunu Quran ayələri ilə açıqladıq. Şübhəsiz ki, insanlardan fərqli bu varlıqlara hakim olmaq ancaq çox güclü bir imanın qarşılığında Allahın verdiyi bir dövlətdir. Hz.Süleyman Allahın bu neməti ilə mükafatlandırdığı əzm sahibi bir peyğəmbərdir. Allah Hz.Süleymana rəhmət etmiş və ona dünyada çox az quluna nəsib etdiyi böyük bir hakimiyyət vermişdi.

# Quranda şeytan

Allah Quranda şeytanla bağlı bir çox ayə bildirmiş, insanları şeytanın hiylələrinə qarşı xəbərdar etmişdir. Şeytanın Quranda göstərilən xüsusiyyətlərini öyrənmək insanların onun hiylələrinə düşməməsi baxımından çox mühümdür.

## *İblisin Allaha üsyanı və alçaldılması*

Quranda Allahın Hz.Adəmi yaratdıqdan sonra bütün mələklərə ona səcdə etməyi əmr etdiyi bildirilir. Bütün mələklər Allahın əmrinə uymuş, ancaq iblis bu əmrə itaət etməmişdir. İblis Hz.Adəm torpaqdan, özü isə alovdan yaradıldığı üçün özünün daha üstün olduğunu irəli sürüb və bu səbəblə də Hz.Adəmə səcdə etməyəcəyini söyləmişdi:

**"Sizi yaratdıq, sonra sizə surət verdik və mələklərə: "Adəmə səcdə edin!" - dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı. (Allah İblisə) "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" - deyə buyurdu. (İblis:) "Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən**

**məni oddan, onu isə palçıqdan yaratdın!" - dedi" ("Əraf" surəsi, 11-12).**

İblis Hz.Adəmə səcdə edəcəyi təqdirdə alçalacağını sanmış, lovğalığı və təkəbbürü üzündən Allahın əmrinə itaət etməmişdi. Allahın hər şeyin Yaradıcısı olduğunu bildiyi, hər şeyin nizamının Allahın diləməsi ilə olduğundan xəbərdar olduğu halda təkəbbür göstərmiş və insandan "daha xeyirli olduğunu" iddia etmişdir. Üstəlik bunları iddia edərkən xoşagəlməz bir üslubdan yararlanmış, bir yandan, Allaha iman etdiyini söylərkən digər bir yandan da ona qarşı çıxmışdır.

Böyüklük arzusunda olan iblis bu hərəkəti ilə təkəbbürünü qoruyacağını düşünmüş, ancaq yanılmışdır. Çünki istədiyinin əksinə olaraq dəyərdən düşmüş, alçalmış və qovulmuşdur. Bütün tarix boyu onun qovulan, bəyənilməyən, alçaldılan və pislərin pisi kimi cəhənnəmdə əzab görəcək olan bir varlıq olduğu bilinir və gələcəkdə də bilinəcək. İblisin Allahın hüzurundan qovulması ayələrdə belə bildirilir:

**"(Allah) buyurdu: "Oradan aşağı en. Orada sənə təkəbbür göstərmək yaramaz. Çıx, çünki sən alçaqlardansan!"" ("Əraf" surəsi, 13).**

**"(Allah) buyurdu: "Oradan rüsvay olmuş və kənar edilmiş halda çıx. Onlardan hər kim sənə uysa (cəzasını alacaq). Əlbəttə, cəhənnəmi sizin hamınızla dolduracağam!" ("Əraf" surəsi, 18).**

Əslində şeytanın bu vəziyyəti yalnız özünü bəyənən təkəbbürlü insanların vəziyyəti ilə eynidir. Onlar şeytana uyub özlərini böyük sanmaqla hörmət və etibar qazanacaqlarını zənn edirlər. Ancaq tam əksinə olaraq bununla dəyərlərini itirir, alçalırlar. Hər şeydən əvvəl Allah dərgahında gözdən düşürlər, çünki "Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz!" ("Nisa" surəsi, 36). İn-

sanlar arasında da dəyərlərini itirib kiçilirlər; təkəbbürlü insanların heç birinin həqiqi bir dostu, gerçək bir sevəni yoxdur, hətta hamı belə insanlara dərindən nifrət edir. Bu da alçalmanın ən pisidir. Ən böyük alçalma və təhqir isə bu insanların cəhənnəmdə şeytanlarla birlikdə görəcəyi şiddətli əzab olacaq.

## *Şeytan ilk öncə Hz.Adəmdə və onun xanımında şübhə oyatdı*

İblis Allahın hüzurundan qovulduqdan sonra qiyamətə qədər olacaq mübarizəsinə başladı. İnsanları aldadaraq yoldan çıxarmaq üçün onlara müxtəlif yollarla hücum etdi. İlk böyük hiyləsi cənnətdə yaşamaqda olan Hz.Adəmi və onun xanımını aldadaraq onları Allahın əmrinə itaət etməməyə sürükləməsi idi. Bəşər tarixinin əvvəllərindəki bu hadisə Quranda belə açıqlanır:

"Ey Adəm! Sən zövcənlə birlikdə cənnətdə sakin ol. Hər ikiniz istədiyiniz yerdən yeyin, ancaq bu ağaca yaxınlaşmayın, yoxsa zülm edənlərdən olarsınız!" Şeytan örtülü ayıb yerlərini özlərinə göstərmək məqsədilə onlara vəsvəsə verib dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya əbədi qalmamağınız üçün qadağan etmişdir". Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm", - deyə and içdi. Beləliklə, onları batil sözlərlə aldatdı. Ağacın meyvəsindən daddıqda ayıb yerləri göründü. Onlar cənnət yarpaqlarından ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağacı qadağan etməmişdimmi? Şeytan sizin açıq-aş-

**"Həqiqətən, Şeytan sizin düşməninizdir, onu düşmən tutun..." ("Fatir" surəsi, 6).**



***İsmail Haqqı Altunbəzərin tuğra şəklində başlama lövhəsi (Əkrəm Haqqı Ayverdi xətt kolleksiyası).***

kar düşməninizdir, deməmişdimmi?" "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" -dedilər. (Allah) buyurdu: "Bir-birinizə düşmən olaraq enin! Yerdə sizin üçün bir müddət sığınacaq və dolanacaq vardar". (Allah) buyurdu: "Orada yaşayacaq, orada öləcək və oradan çıxarılacaqsınız!"" ("Əraf" surəsi, 19-25).

Bu, bəşəriyyətin dünyadakı həyatının başlanğıcı, Hz.Adəmin yuxarıdakı ayələrdə izah edilən vəziyyəti idi. Ancaq Hz.Adəm Allaha tövbə etdi və Allah onu bağışladı. İblisin insanların əleyhinə apardığı mübarizəsi isə sona çatmadı.

"...O özünə uyanları cəhənnəm əhli olmağa çağırır" ("Fatir" surəsi, 6).

# *Şeytanlar insan şəklində ola bilərlər*

Allah Quranda şeytanların insan və ya cin şəklində ola biləcəklərini, danışaraq və ya insanların ürəyinə şübhə salaraq, onlara təsir edərək düz yoldan sapdıra biləcəklərini bildirmişdir. Yəni şeytanlar insan şəklinə girib onların arasında gəzməkdədir. Allah bu vəziyyətə Quranda belə bildirir:

**"De: "Pənah aparıram insanların Rəbbinə; İnsanların ixtiyar sahibinə; İnsanların tanrısına; Vəsvəsə verən, qaçıb gizlənən Şeytanın şərindən - O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də olur, insanlardan da!" ("Nas" surəsi, 1-6).**

Ayədən də göründüyü kimi, "insan və cin şəklindəki şeytanlar" olan insanlar özlərini qorumalıdır. İblis - Allah istəmədikcə - insana görünməz, ancaq beyinlərə, şüurlara təsir göstərər. İnsanlar bəzən ağıllarından keçən pisliklərin, dinə zidd fikirlərin özlərindən gəldiyini zənn edərlər. Ancaq bunları onlara pıçıldayan şeytandır. Əgər insanlar şeytanın təsiri altında olduqlarını bilib, Allaha sığınıb, dərhal xeyirli olanları və gözəllikləri düşünüb Quran ayələrini xatırlasalar, şeytanın bu pıçıltılarının onlara heç bir təsiri olmaz:

**"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir! Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman onlar xatırlayıb düşünərlər və dərhal görən olarlar" ("Əraf" surəsi, 200-201).**

Şeytanlar eyni zamanda qarşımıza insan kimi də çıxarlar. Bu, bir insanın dost olaraq gördüyü bir yaxını, bir fikir adamı və ya təcavüzkar bir insan ola bilər. Bu şeytanlar bütün xüsusiyyətləri ilə insana bənzərlər. Ancaq danışıq və hərəkətləri ilə insanları Allah yolundan çıxarmağa, onları dünya həyatına bağlamağa çalışırlar.

Allah bir çox ayəsində şeytanın ordularının olduğunu bildirir.

Və bu şeytan orduları min illərdir insanları doğru yoldan çıxarmaq üçün mübarizə aparmaqdadır. Ancaq qalib gələnlər daim Allahın yolunda olanlardır. İblis isə bunun əvəzini ordusu ilə birlikdə cəhənnəmdə alacaq:

**"Onlar və azğınlar oraya atılarlar! İblisin bütün əsgərləri də ora sürüklənib salınarlar" ("Şuəra" surəsi, 94-95).**

## *Şeytan dünya həyatını cəlbedici göstərməyə çalışır*

Şeytan Allahın hüzurundan qovulandan sonra düşdüyü bu vəziyyətin səbəbini insanda görmüş və insana olan kinini onun nəslini düz yoldan azdırmaqla göstərməyə qərar vermişdir. Halbuki şeytan öz əxlaqsızlığı, ədəbsizliyi, təkəbbür və itaətsizliyi ucbatından cəzalandırılmışdır. Amma təkəbbüründən bu həqiqəti qəbul etməyən şeytan belə bir and içmişdir:

**"(İblis) dedi: "Mənə qiyamətə qədər möhlət ver!" (Allah) buyurdu: "Sən möhlət verilənlərdənsən!" (İblis) dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra Onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükr edən görməyəcəksən!"" ("Əraf" surəsi, 14-17).**

Şeytanın ən başlıca taktikalarından biri insanları zəiflikləri ilə aldatmağa çalışmasıdır. Məsələn, Hz.Adəmi və onun həyat yoldaşını "sonsuzluq" vədi ilə aldatmışdır. İnsanların bir çoxunu dünya həyatına bağlayaraq onu cəlbedici, bəzəkli və sanki heç sonu olmayan bir yer kimi göstərərək aldatmağa çalışır. Bir ayədə şeytanın bu xüsusiyyətindən belə bəhs edilir:

**"(İblis) dedi: "Ey Rəbbim! Məni azdırmağına əvəz olaraq and içirəm ki, mən də onlara (insanlara pis əməllərini, gü-**


"Ey iman gətirənlər! Özünüzü və
əhli-əyalınızı elə bir oddan
qoruyun ki, onun yanacağı
insanlar və daşlardır..."
("Təhrim" surəsi, 6).
"Şeytan onlara hakim olmuş və
Allahı zikr etməyi onlara
unutdurmuşdur. Onlar Şeytanın
firqəsidirlər. Bilin ki, şeytanın firqəsi
- məhz onlar ziyana uğrayanlardır!"
("Mucadələ" surəsi, 19).

**nahlarını) yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!" ("Hicr" surəsi, 39).**

Məsələn, şeytan bir iş adamına işinə hədsiz bağlanmağı, maddi qazancı və ticarətlə bağlı etibarı hər şeydən yüksək tutmağı təlqin edə bilər. Bu isə əvvəl qeyd etdiyimiz kimi, yaxınındakı bir insana və ya onun zehninə təsir edə bilən bir cin şeytan ola bilər. Bu insan sözügedən təlqinlər üzündən bütün əxlaqi və mənəvi dəyərlərin, dini, axirəti tərk edər. Beləcə, şeytan bu insanın zəif tərəflərindən istifadə edərək onu dindən sapdırmış olur.

Quranda Allah şeytanın Səba qövmünü bu şəkildə sapdırdığını bildirir:

**"Mən onlara padşahlıq edən bir qadın gördüm. Ona hər şey verilmişdir. Onun çox böyük bir taxtı vardır. Mən onun və tayfasının Allahı qoyub günəşə sitayiş etdiklərini gördüm. Şeytan (çirkin) əməllərini onlara gözəl göstərmiş, onları yoldan sapdırmışdır. Buna görə də haqq yolu tapa bilmirlər. Göylərdə və yerdə pünhan olanı aşkara çıxardan, onların gizlində və aşkarda etdikləri hər şeyi bilən Allaha səcdə etməsinlər deyə (Şeytan belə etmişdir). O böyük ərşin Rəbbi olan Allahdan başqa heç bir tanrı yoxdur!"" ("Nəml" surəsi, 23-26).**

Ancaq unutmaq olmaz ki, şeytanın taktika və hiylələri əslində çox zəifdir və onların vicdanını üstün tutan, Allahı və Quran ayələrini düşünən səmimi insanlara heç bir təsiri olmaz.

## *Şeytanın iman gətirənlər üzərində heç bir təsiri yoxdur*

Şeytanın bütün bu xain taktika və mübarizəsində bir həqiqət vardır: şeytan səmimi iman gətirən qullara heç bir təsir göstərə bilməz. Hətta güclü imana sahib möminlər eynilə Hz.Süleyman-




***Allahı inkar edib özlərinə şeytanı tanrı seçdikləri söylənən satanistlər vəhşilik və qarşıdurma tərəfdarı olan rituallara malikdir. Ayinlərində şeytana ibadət edər, ona bəzən heyvanları, bəzən də insanları qurban edər və daha sonra da bu qurbanlarının qanlarını içərlər.***

da olduğu kimi, şeytanın bütün planlarına bir qıfıl vurur, onları tamamilə təsirsiz bir hala gətirə bilirlər. Şeytanın hiyləsi Allahı tez-tez anan, hər şeydə Allahın yaratdığı bir xeyir və gözəllik görən, hər hərəkət və düşüncəsində Allaha üz tutan və Qurana müraciət edən möminlər üçün çox zəifdir. Allah bunu ayələrində belə bildirir:

**"Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edən-**



*Cəli sülüs lövhə, Mehmet Tahir, istifli cəli sülüs xətlə "Allah köməyin olsun" yazılıb. Qızıl yaldız üslublu.*

**lərin üzərində şeytanın heç bir hökmü yoxdur! Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!" ("Nəhl" surəsi, 99-100).**

Allah başqa ayələrində də şeytanın heç bir zorlayıcı gücünün olmadığını, ancaq Allahın ona bu imkanı verməsinin səbəbinin yaxşılarla pislərin ayırd edilməsi üçün olduğunu bildirir:

**"İblisin onlar haqqındakı zənni düz çıxdı. (İçərilərindən) bir dəstə mömin istisna olmaqla, hamısı ona uydu. Əslində (İblisin) onlar üzərində heç bir hökmü yoxdur. Lakin Biz axirətə inananla ona şəkk edəni ayırd edib bilmək üçün (İbli-**

**sə bu imkanı verdik). Sənin Rəbbin hər şeyi hifz edəndir!" ("Səba" surəsi, 20-21).**

Şeytan müstəqil bir gücə sahib deyil. Etdiklərini Allahın bilgisi daxilində edir. Beləcə, şeytana uyanlarla şeytanın hiylələrinə düşməyən möminlər bir-birindən seçilib ayrılırlar.

## *Şeytanın Quranda bildirilən bəzi xüsusiyyətləri*

"Yalançıdır" ("İbrahim" surəsi, 22).

"Asi və azğındır" ("Həcc" surəsi, 3).

"Gücü ancaq çağırmağa çatır" ("İbrahim" surəsi, 22).

"Yaxşılıqla və xeyirlə heç bir əlaqəsi yoxdur" ("Nisa" surəsi, 117).

"İnsanların üzərindəki təsiri ancaq pisliyə dəvət etməkdir" ("Ənfal" surəsi, 11).

"İnsanların şükr etməklərinə maneə olmağa çalışır" ("Əraf" surəsi, 17).

"İnsanları qorxutmağa çalışır" ("Ali-İmran" surəsi, 175).

"Möminlərin arasını vurmağa səy göstərir" ("İsra" surəsi, 53); ("Maidə" surəsi, 91).

"İnsanlara onların xeyirxah məsləhətçiləri olduğunu təlqin edir" ("Əraf" surəsi, 20-21).

"Allahın adından istifadə edərək insanları azdırmağa çalışır" ("Fatir" surəsi, 5-6).

"Möminlərin büdrəməklərini istəyir" ("Ali-İmran" surəsi, 155).

"Yalan vədlər verir" ("İbrahim" surəsi, 22).

"İnsanları sapdırmağa və puç xülyalara salmağa çalışır" ("Nisa" surəsi, 119-120).

"Çirkin əməlləri gözəl göstərir" ("Nəml" surəsi, 24).

"Yoxsulluqla qorxudur" ("Bəqərə" surəsi, 268).

"Təkəbbürlü etməyə çalışır" ("Sad" surəsi, 74-75).

"Xalqa göstərmək üçün ibadət etməyə həvəsləndirir" ("Nisa" surəsi, 38).

"Ayələrdən uzaqlaşdırmağa çalışır" ("Zuxruf" surəsi, 36-37).

"Unutdurmağa çalışır" ("Mucadələ" surəsi, 19); ("Ənam" surəsi, 68); ("Kəhf" surəsi, 63).

"Hissi davranmağa məcbur edir" ("İsra" surəsi, 64), ("Mumtəhinə" surəsi, 1-3).

"Xırda işlərlə məşğul edir" ("Bəqərə" surəsi, 67-71).

"İsraf etdirməyə çalışır" ("İsra" surəsi, 26-27).

Şeytanın Allaha qarşı çıxmaq cəsarətində bulunan, çox üsyankar, insanlara böyük bir kin bəsləyən, onları doğru yoldan çəkindirmək üçün müxtəlif səylər göstərən bir varlıq olduğunu Qurandakı ayələrlə açıqladıq. Tarix boyu bütün insanları Allahın yolundan azdırmağa çalışan belə bir varlığın bir insanın xidmətinə verilməsi əlbəttə ki, Allahın böyük bir rəhmətidir. Hz.Süleymanın şeytanları öz əmrinə tabe etməsi, onlardan haqq dininin faydalı işlərində istifadə etməsi şübhəsiz ki, onun Allahın üstün qullarından olmasının aşkar bir dəlilidir.